**PREZİDENT İLHAM ƏLİYEV İRANIN SƏRHƏD QOŞUNLARI KOMANDANININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında...



Bax səh. 2

**PREZİDENT İLHAM ƏLİYEV NATO MÜTTƏFİQ QÜVVƏLƏRİNİN AVROPADAKI BAŞ KOMANDANININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı (SACEUR) Körtis Skaparrottinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə tərəfdaşlığının uzun tarixə və geniş gündəliyə malik olduğunu...



Bax səh. 2




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 12 dekabr 2018-ci il, çərşənbə / № 235 (5362). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi əbədiyaşardır




*Bu gün Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günüdür*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

**Heydər Əliyev siyasi kursu: sabitlik, güclü iqtisadiyyat və uğurlu xarici siyasətin mükəmməl vəhdəti**

Müstəqil Azərbaycanın memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi kursunun analizi daim diqqət mərkəzində olmalıdır. Çünki bu kurs çoxtərəfli, müasir tələblərə tam cavab verən və çevik manevrlər etməyə imkan yaradan mükəmməl idarəetmə sistemidir. İllər keçdikcə Heydər Əliyevin dövlət xadimi kimi Azərbaycanın müstəqilliyində və idarə edilməsinin demokratikləşməsindəki əvəzsiz rolu daha aydın görünür. Hər keçən gün bu siyasi kursun istənilən sürətlə...

Bax səh. 5

**Səfəvilər dövlətinə qarşı qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ifşa olunmasına həsr edilmiş qiymətli monoqrafiya**

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində dekabrın 11-də muzey kollektivi və respublika elmi ictimaiyyətinin...



Bax səh. 2

**Ulu öndər Heydər Əliyev qüdrətli siyasətçi kimi güclü və inkişaf edən Azərbaycan dövlətinin əsasını qoymuşdur**

...Qərinələr, əsrlər və minilliklər boyu davam edən bəşər salnaməsi, sivilizasiyaların, lokal və qlobal mədəniyyətlərin təkamülü və transformasiyası, eləcə də mövcud kəmiyyət dəyişikliklərinin yeni keyfiyyət dəyişikliyinə çevrilməsi nəticəsində Yer üzünün əşrəfi sayılan insan övladı və onun yaşadığı cəmiyyət adilikdən adiliyə, varislikdən müasirliyə doğru irəliləyərək müxtəlif dövrləri əhatə edən zaman və məkan müstəvisində...

Bax səh. 6



**ƏLİ ƏHMƏDOV: AZƏRBAYCAN XALQI NƏ QƏDƏR YAŞAYACAQSA, ONUN QƏLBİNDƏ HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HÖRMƏT VƏ EHTİRAM DAİM OLACAQ**

"Azərbaycan vətəndaşları Ümummilli lider Heydər Əliyevin anım gününü qeyd etməklə Onun xatirəsinə olan böyük ehtiramı ifadə edirlər...

Bax səh. 3

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV ÜMUMBƏŞƏRİ ŞƏXSİYYƏTDİR**

2018-ci il - "Azərbaycan Xalq Cümhuriyyəti İli" tariximizin hər bir səhifəsini vərəqləməyə geniş imkanlar yaradır. Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. İllər bir-birini əvəzlədikcə, bu günümüzdən dünənimizə bir baxış keçirməklə uğurlarımızın fonunda keçilən yolun dəyərləndirilməsinin obyektiv aparılmasının bir zərurət olduğunu daha aydın görür, tarixdə şəxsiyyətlərin rolunu daha yüksək qiymətləndirir, ən əsası aforizmə çevrilən bu fikri bir daha təsdiqləmiş oluruq: keçmişinə bağlı olan, bu günü ilə qürur duyan, gələcəyə böyük ümid bəsləyərək inamla irəliləyən xalqlar tarixin sərt və çətin sınaqlarından üzüağ çıxaraq, milli varlığını yüksək səviyyədə qoruyur, sözünün imzası qədər dəyəri olduğunu dünyaya nümayiş etdirir. Azərbaycan xalqı 1991-ci il 18 oktyabrda tarixi uğur qazanaraq dövlət müstəqilliyini yenidən bərpa etdi. Lakin həmin dövrdə ölkəyə səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, ən əsası, şəxsi ambisiyalarını dövlətin maraqlarından üstün tutan şəxslərin rəhbərlik etməsi...

Bax səh. 7



**DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN ŞƏXSİ HEYƏTİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD EDİB**

Dekabrın 11-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) şəxsi heyəti Fəxri xiyabana gələrək Ulu öndər Heydər Əliyevin xatirəsini yad edib. AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi...

Bax səh. 4

**Respublika Veteranlar Təşkilatının VIII plenumu keçirilib**

Dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VIII plenumu keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət nümayəndələri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri...



Bax səh. 11

*__Dmitri Savelyev__:*

**Heydər Əliyev azərbaycanlılara firavanlaşan ölkəni, bütün dünyaya həqiqi vətənpərvərlik nümunəsini miras qoyub**

"Tarixdə bütöv bir dövrün rəmzi olan, arxasınca xalqın getdiyi...



Bax səh. 4

*__Vladimir Solovyov__:*

**Heydər Əliyev böyük siyasi xadim idi**

Təəssüf ki, Heydər Əlirza oğlu ilə şəxsi tanışlığım olmayıb, amma onun barəsində çox eşitmişəm. O, hər baxımdan böyük siyasi xadim idi. Ölkəni bütün qlobal dəyişikliklərdən...



Bax səh. 4

*__Sergey Medvedev__:*

**Heydər Əliyev mətbuat nümayəndələri ilə həmişə qeyri-rəsmi və səmimi şəraitdə işləyirdi**

Rusiyanın birinci prezidenti Boris Yeltsinin mətbuat katibi işləmiş Sergey Medvedev "Moskva-Bakı" portalına...



Bax səh. 11

*__Dmitri Kiselyov__:*

**Heydər Əliyev Rusiya ilə Azərbaycan arasında strateji münasibətlərin qurulmasına mühüm töhfə verib**

Rusiya-Azərbaycan münasibətləri təkcə Qafqazda deyil, daha geniş regionda da sülh amilidir. AZƏRTAC xəbər verir ki...



Bax səh. 10

# Prezident İlham Əliyev İranın Sərhəd Qoşunları komandanının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən sərhədlərin mühafizəsi ilə bağlı əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev iki ölkə vətəndaşlarının, iş adamlarının gediş-gəlişinin, yükdaşımalarının həyata keçirildiyini vurğulayaraq, İran-Azərbaycan sərhədini dostluq sərhədi kimi dəyərləndirib. Ölkələrimizin sərhəd xidməti rəhbərlərinin görüşünün önəmini qeyd edən dövlətimizin başçısı İran-Azərbaycan əlaqələrinin inkişafında Sərhəd Qoşunları xidmətlərinin əməkdaşlığının mühüm yer tutduğunu deyib. Prezident İlham Əliyev İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayi ölkəmizlə bağlı xoş hisslərini ifadə edərək, Prezident İlham Əliyevə yorulmaz fəaliyyətində uğurlar arzulayıb. O, Azərbaycan Respublikasının Prezidenti ilə yenidən görüşməkdən, dövlətimizin başçısının iki ölkə arasında əlaqələrin inkişafı ilə bağlı tövsiyələrini və dərin mənalı fikirlərini eşitməkdən məmnunluq hissi keçirdiyini deyib və Bakıya səfərlərinin onlarda xoş xatirələr doğurduğunu bildirib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı (SACEUR) Körtis Skaparrottinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə tərəfdaşlığının uzun tarixə və geniş gündəliyə malik olduğunu deyən dövlətimizin başçısı bu ilin iyul ayında NATO-nun mənzil-qərargahına son səfərini və Brüsseldə keçirilmiş Zirvə toplantısında iştirakını xatırlayıb və bunun əlaqələrimizin inkişafına müsbət təsir göstərdiyini qeyd edib. Dövlətimizin başçısı ümumilikdə NATO-nun mənzil-qərargahına etdiyi bütün səfərlərin müsbət xarakter daşıdığını qeyd edib. Prezident İlham Əliyev NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasında ölkəmizin fəal iştirak etdiyini, Azərbaycan hərbçilərinin sayının artırıldığını və əməliyyatlarda iştirak edən dövlətlərə zəruri nəqliyyat və logistik dəstək göstərildiyini vurğulayıb. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın ikitərəfli əsasda da Əfqanıstana dəstək göstərdiyini, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat layihələrinin Əfqanıstan üçün yeni imkanlar yaratdığını vurğulayıb. Dövlətimizin başçısı NATO-nun yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli tərəfdaşlığın gündəliyində duran vacib məsələlərin müzakirəsi üçün əlverişli imkan yaratdığını deyib.



NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti onu və rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyinə və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə dekabrın 12-də Bakıda keçirilməsi nəzərdə tutulan görüşə ev sahibliyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. O, Bakının NATO-Rusiya formatında görüşünün keçirilməsi üçün tam münasib məkan olduğunu, Azərbaycanın artıq ikinci dəfədir ki, belə bir tədbirə ev sahibliyi etməsinin əhəmiyyətini vurğulayıb. Qonaq Azərbaycanın NATO-nun etibarlı və fəal tərəfdaşı olduğunu qeyd edib, ölkəmizin Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasına verdiyi töhfəsini, Azərbaycan hərbçilərinin Əfqanıstanda və eləcə də ölkəmizin hərbçilərinin peşəkarlıqla NATO qərargahlarında xidmətini və NATO-nun təlimlərində iştirakını yüksək qiymətləndirib.

Dövlətimizin başçısı qlobal təhlükəsizliyə aid olan vacib məsələlərin müzakirə edilməsi üçün bir çox ölkələr arasından Azərbaycanın seçilməsini ölkəmizə olan hörmət və etimadın təzahürü kimi dəyərləndirib və bunun, eyni zamanda, ölkəmizin regional təhlükəsizlik, inkişaf və sabitliyin təmin edilməsində oynadığı rolun və yürütdüyü siyasətin göstəricisi olduğunu deyib.

# Səfəvilər dövlətinə qarşı qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ifşa olunmasına həsr edilmiş qiymətli monoqrafiya






Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində dekabrın 11-də muzey kollektivi və respublika elmi ictimaiyyətinin aparıcı təmsilçilərinin iştirakı ilə keçirilən elmi sessiya akademik Ramiz Mehdiyevin bu günlərdə işıq üzü görmüş "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" monoqrafiyasının geniş müzakirəsinə həsr edilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan muzeyin direktoru, akademik Rafael Hüseynov əvvəlcə akademik Ramiz Mehdiyevin son illərdə Şah İsmayıl Xətai və Səfəvilər dövləti ilə əlaqədar apardığı araşdırmalar və bunun elmi həyatımızdakı mühüm əhəmiyyətindən bəhs edərək deyib: **"Azərbaycan tarix elmi və mədəniyyətşünaslığında Şah İsmayıl Xətainin şəxsiyyəti və fəaliyyəti, onun qurucusu olduğu Səfəvilər dövlətinin keçdiyi yol barədə çoxlu məqalələr, kitablar yazılıb, dissertasiyalar müdafiə edilib, yeni tədqiqatlar da aparılmaqdadır. Lakin akademik Ramiz Mehdiyevin son bir neçə il ərzində yazıb nəşr etdirdiyi "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi", "Şah İsmayıl Səfəvi: Hökmdarın və döyüşçünün portreti", "Şah İsmayıl Səfəvi: Tarixi, diplomatik sənədlər toplusu" əsərləri həm Xətaişünaslıqda, həm Səfəvi dövlətinin tarixini daha dərindən öyrənmək istiqamətində yeni bir mərhələnin başlanmasına təkan verib. Akademik Ramiz Mehdiyevin araşdırmalarını səciyyələndirən başlıca xüsusiyyət ondan ibarətdir ki, bu əsərlərin hamısında sətirlərin ardında yalnız mötəbər bir alim görünmür. Şəxsiyyətində həm görkəmli dövlət xadimini, həm də yüksək təcrübəyə və əhatəli biliklərə malik mükəmməl alim məziyyətlərini birləşdirən akademik Ramiz Mehdiyev seçdiyi istənilən problemə də elə bu görüm bucağından yanaşır. İctimaiyyətə təqdim etdiyi əsərlərin hər birində o, həm alim, həm ictimai xadim, həm dövlət adamıdır. Qələmə aldığı əsərlərin hər birində o, keçmişi, tarixin dünənində baş vermiş hadisələri araşdırsa da, həmin tədqiqatların nəticələrinin bu gün üçün hansı istiqamətlərdə gərəkli və əhəmiyyətli olacağını da unutmur, bəlkə də bunun daha da vacib olmasını vurğulayır. Yenicə elmi dövriyyəyə daxil olan "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" əsəri bu baxımdan akademikin illərdən bəri apardığı sistemli fəaliyyətin uğurlu davamı, alimin Səfəvilər dövlətinin tarixi və dövlətimizin müasir təhlükəsizliyi mövzusunu araşdırmaq sahəsində ciddi nailiyyəti hesab edilməlidir".**

"Şərq-Qərb" nəşriyyatında buraxılmış, 10 çap vərəqi həcmində olan, müxtəlif xarici dillərdəki bir çox məxəzlər və tarixi araşdırmalara istinadlarla yazılmış, problemin qoyuluşu və həlli nöqteyi-nəzərindən tam yeni və orijinal olan bu monoqrafiya ilə bağlı ümumi məlumatları sessiya iştirakçılarının diqqətinə çatdırdıqdan sonra akademik Rafael Hüseynov əsərlə bağlı mülahizələrini əks etdirən "Səfəvilər dövlətinin açılmamış səhifələri və erməniçiliyin köhnə fitnəkarlıqları" adlı məruzə ilə çıxış edib. O qeyd edib ki, akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin bütün məsələlərinə və mərhələlərinə keyfiyyətcə yeni yanaşma tələb olunmasını bu əsəri ilə bir daha sübut edir. **"Yaddaşsız, tarixin dərk olunmasına əsaslanmayan toplum həm bu günündən, həm də gələcəyindən məhrumdur"** yazan akademik R.Mehdiyev yeni monoqrafiyası ilə tarixi hafizənin elə qatlarını açır ki, bu barədə elmimiz indiyədək səthi məlumata malik olub. Akademikin tarix elmimizdə hələ də mövcud arzuolunmaz hallara tənqidi münasibəti, ictimaiyyətə ünvanladığı proqram səciyyəli baxışlardan ibarət bu yeni monoqrafiyası Azərbaycan alimlərini səfərbər olmağa, xalqımızın ümdə tələblərinə cavab verən tarix əsərləri yazmağa və nəşr etdirməyə səsləyir.

Elmi sessiyadakı müzakirələrdə bir sıra tanınmış elm adamları və mütəxəssislər düşüncələrini bölüşüblər.

Tarix üzrə elmlər doktoru, professor Şahin Fərzəliyev əvvəlcə müstəqillik illərində Azərbaycan Respublikasında tarix elminin inkişafında akademik Ramiz Mehdiyevin rolunu ayrıca qeyd edib. Bildirilib ki, bu əsər Vətən tarix elmində fenomenal hadisə kimi dəyərləndirilə bilər. Ramiz Mehdiyev aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən tarixçidir desək, yanılmarıq. Onun bu əsəri Azərbaycan tarix elmində qriqorian kilsəsinin XVII əsr-XVIII əsrin birinci rübündə Səfəvi dövlətinə qarşı kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ilk dəfə ətraflı araşdırılması və işıqlandırılması faktı kimi olduqca əhəmiyyətlidir. Dörd fəsildən ibarət monoqrafiyada guya "Səfəvi şahlarının ermənilər qarşısında daim qorxu, xof duyğusu keçirmələri" haqqında erməni uydurmalarına əsaslı tənqidi münasibət bildirilir, "köhnə peşəsinə" - casusluğa sadiq qalan ermənilərin Səfəvi İmperiyası ərazisində Qərb dövlətlərinin xeyrinə casusluq fəaliyyəti araşdırılır, Səfəvi hökmdarlarının Vatikan emissarlarına və onların erməni yardımçılarına qarşı mübarizəsindən bəhs olunur, Səfəvi dövlətinin tənəzzülü və Moskva dövlətinin (Rusiyanın) yüksəlişi dövründə qriqorian kilsəsinin İslam türk dünyasına qarşı avantürist və dağıdıcı fəaliyyəti tədqiq edilir, ermənilərin yeni xəyanətlər yoluna üz tutduqları göstərilir.

Akademik bizə onu da xatırladır ki, erməni etnosunun xəyanətkarlığa, avantürizmə meyilli olması ermənilərin əsrlər boyu səpələnmiş halda məskunlaşmağa meyillənmələri onların etnogenezi ilə bağlıdır, ermənilərin xarakterinin mühüm cəhətidir, tarixi faktlar isə bizdən daim ayıq-sayıq olmağı, ermənilərlə ünsiyyət zamanı onların xəyanətkar olduğunu bir an belə yaddan çıxarmamağı tələb edir.

Akademik Ramiz Mehdiyev düzgün olaraq irad tutur ki, elmi ictimaiyyət nümayəndələri, şərqşünaslar, tarixçilər Heydər Əliyev Fondunun fəal yardımı ilə Vatikan arxivindən Azərbaycan Respublikasına gətirilmiş qriqorian kilsəsinin casusluq fəaliyyətini və avantürist əməllərini əks etdirən zəngin tarix materiallarını indiyədək, qismən də olsa, işləyib hazırlaya və cəmiyyətə təqdim edə bilməyiblər.

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, professor Şəfəq Əlibəyli çıxışında daha çox monoqrafiyada əksini tapmış vacib bir mövzu üzərində dayanıb. Qeyd edib ki, ermənilər Vatikan və bir sıra Qərb dövlətlərindən ötrü Səfəvilər dövləti əleyhinə kəşfiyyat məlumatları toplamaq, casusluq fəaliyyətlərini həyata keçirmək istiqamətində əsas qüvvə olublar. Məruzəçi, akademik R.Mehdiyevin qriqorian kilsəsinin azərbaycanlılara və türklərə qarşı düşmən və satqın siyasətinin köklərinin uzaq keçmişə gedib çıxdığı və bunun Azərbaycanla Türkiyə torpaqlarında "böyük Ermənistan" yaratmaq arzusu ilə bağlı olduğu qənaətinə şərik çıxdığını söyləyib. Xatırladıb ki, Romadan daimi maliyyə yardımı almaq erməni dini qurumunun da əsas məqsədinə çevrilmişdi. Vatikan üçün aydın idi ki, Eçmiədzin başda olmaqla, ermənilər istənilən səviyyədə casusluq fəaliyyəti göstərməyə hazırdır. Monoqrafiyada danılmaz sübutlar və dəlillər əsasında Səfəvilər dönəmində katolikliyi qəbul edən bəzi erməni din xadimlərinin ikiüzlü olması, maddi maraq xətrinə katolikliyi yalandan qəbul edib, qriqorianlığa xidmət göstərmələri ifşa edilir.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işlər üzrə direktor müavini, professor Xatirə Bəşirli Ramiz Mehdiyevin yeni kitabının məziyyətlərindən söz açarkən ilk növbədə belə bir cəhət üzərində dayandı ki, əsər boyu erməni tarixçilərinin həqiqətləri tərsinə çevirən, ağa qara deyən, yalanlar və uydurmalardan ibarət mülahizələri təhlil edilir, saxtakarlıqların anatomiyası açıqlanır: **"Hörmətli akademik Ramiz Mehdiyev erməni tarixçilərinin qələmə aldıqlarının heç bir elmi, dini əsası olmadığını və tarixi həqiqətlərə söykənmədiyini xüsusi vurğulayaraq yazır ki, "hansı erməni dövlətinin qaytarılmasından və onun uğrunda mübarizə aparmaqdan söhbət gedə bilər ki, 1441-ci ildə erməni kilsəsi öz taxt-tacını Qafqaza köçürmək üçün məhz Qaraqoyunlu dövlətinin hökmdarı Cahan şahdan (1436-1467) icazə almaq məcburiyyətində idi. Hətta erməni orta əsr salnaməçisi Arakel Davrijetsinin yazılarından anlaşılır ki, erməni ruhanilərinin başçısı patriarx Zəkəriyyənin Cahan şahla görüşü zamanı hökmdar lütfkarlıq göstərərək qriqorian kilsəsinə İrəvan yaxınlığında yerləşən Eçmiədzində torpaq sahəsi ayırıb".**

Məruzəçi müasir erməni tarixçilərinin bir çox yazılarını elə erməni mənbələri vasitəsilə ifşa etməsini akademik R.Mehdiyevin bu əsərindəki ən cəlbedici və elmi baxımdan faydalı əlamət kimi dəyərləndirib.

Tarix elmləri doktoru, professor Kamil İbrahimov akademik R.Mehdiyevin bu kitabını Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin yerli-yataqlı faş edilməsi yolunda ilk sanballı cəhd adlandırıb. Qeyd edib ki, müəllif özünün yeni kitabı ilə azərbaycanlı tarixçi alimlərə ölkəmizin uzaq və yaxın keçmişinin tədqiqinə necə yanaşmaq lazım olması nümunəsi göstərir. Müəllif tarixi faktlara əsaslanaraq yazır ki, ermənilərin mənfur xisləti, erməni şovinizmi, ekstremizmi və hərbi təcavüzü təkcə Səfəvilər dövlətində deyil, Qafqaz Albaniyasından başlamış Azərbaycan Xalq Cümhuriyyətinə qədər davam edib, Azərbaycan ərazisində bu gün də davam edir.

Ermənilərin tarixini araşdırarkən əldə olunmuş faktlar sübut edir ki, satqınlıq, casusluq, bədrəftarlıq, oğurluq, başqa millətdən olan insanları qəbul etməmək erməni xislətində konkret məqsədlərə nail olmağa yönəlmiş şüurlu hərəkətlərdir. Müəllif elə ermənilərin öz mənbələrinə, o cümlədən orta əsr salnaməçiləri (Arakel Davrijetsi, Zəkəriyyə Kenakertsi), habelə Rusiya və Qərb tədqiqatçılarının əsərlərinə istinad edir. Bu əsərlərdə göstərilir ki, Səfəvi dövlətinin hökmdarları erməni əhaliyə tolerant münasibət bəsləyib, dini etiqad və əmlak münasibətləri məsələlərində onlara tam sərbəstlik verib, onların ticarətlə məşğul olmasına maneçilik törətməyib, uzun müddət Avropa və Rusiya bazarlarına o dövrün ən gəlirli mallarından biri olmuş Azərbaycan ipəyinin praktiki olaraq inhisarçı tədarükçüləri olmasına imkan veriblər. Akademik R.Mehdiyev yazır: **"Bunun müqabilində onlardan (ermənilərdən) yalnız vergiləri vaxtında ödəmək, qanunlara riayət etmək və hakimiyyətin iradəsinə tabe olmaq tələb edilirdi".** Bu isə artıq başqa məsələdir ki, ermənilər bu cür xeyirxah münasibətin müqabilində adətləri üzrə qədirbilməzlik göstərirdilər.

Məruzəçi, akademik R.Mehdiyevin təqdim olunan kitabındakı fikir və problemlər dairəsinin əslində zahirən göründüyündən geniş olmasına diqqət yönəldərək bildirib: **"Sırf elmi materialın şərh edilməsi ilə kifayətlənməyən alim respublikada humanitar elmlərin taleyinə görə narahatlıq keçirir, göstərir ki, bu elmlər təhlil, obyektiv tənqid metoduna keçməli, gərəksiz pafosa, sözçülüyə son qoyulmalıdır. Bu mövzu üzrə xarici arxiv mənbələrindən istifadə imkanının məhdud olması alimin həqiqətən sanballı elmi əsər yaratmasına mane olmayıb. Əminliklə demək olar ki, tarixi-fəlsəfi faktlarla zəngin olan bu kitab Azərbaycan tarixşünaslığında yeni səhifə açacaq".**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, professor Kamil Allahyarov ermənilərin nə qədər riyakar və saxtakar olmalarını ən azı son 30 il ərzində xalqımıza qarşı törədilən olmazın cinayətlərdən yaxşı bildiyimizi, cinayətkar olduqları halda, özlərini dünyaya əzilən, təcavüzə məruz qalan xalq kimi göstərmələrindən, hər şeyi dünyaya təhrif olunmuş şəkildə təqdim etmələrindən xəbərdar olduğumuzu söyləyib. Natiq əlavə edib ki, akademik Ramiz Mehdiyevin kitabının ilk ibrəti bundan ibarətdir ki, bizə bu erməni xislətinin tarixi köklərini nümayiş etdirir, əslində, bu mərəzin daim onların mahiyyətində yaşadığını aşkarlayır. Ancaq dünya xalqlarının əksəriyyəti həqiqətlərdən xəbərsiz olduqlarına görə ermənilərin uydurduqları yalanlara inanırlar. Belə yalanları yaymaq işində isə ermənilər çox ustalaşıblar. Həm də onların çoxsaylı və güclü diasporları var. Hələ XV əsrdən başlayaraq ermənilər ticarət vasitəsilə Rusiyaya, Avropaya, Hindistana, hətta Çinə qədər yayılıblar. Ona görə də hələlik biz özümüz bu sahədə çox çalışmalı, bu barədə çoxlu kitab və məqalələr yazıb, xarici dillərdə çap etdirməliyik. Akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" adlı kitabı da bu məqsədə xidmət edir.

Elmi sessiyanı yekunlaşdıran akademik Rafael Hüseynov görkəmli dövlət xadimi, akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" kitabını zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış və tarixşünaslığımıza və geniş ölçüdə Azərbaycanşünaslığa bir töhfə olan əsər kimi dəyərləndirib. O, akademik R.Mehdiyevlə bu nöqtədə tam şərik olduğunu bildirib ki, bu qəbil mürəkkəb, çoxşaxəli və çətin problemlərin araşdırılması üçün Şərq dillərini, Qərbi Avropa dillərini, habelə erməni dilini mükəmməl bilən mənbəşünasların yetişdirilməsinə və onların elmi potensialından layiqincə istifadə olunmasına ciddi ehtiyac var.

Bu monoqrafiyanın keçmişimizin unudulmuş, az tədqiq edilmiş, qaranlıq səhifələrində nə qədər vacib həqiqətlərin gizləndiyini əyani olaraq ortaya qoyduğunu söyləyən akademik Rafael Hüseynov kitabın tezliklə həm Azərbaycan dilində, həm də xarici dillərdə nəşr edilməsinin zəruri olduğunu söyləyib.

Belə bir inam ifadə edilib ki, akademik Ramiz Mehdiyevin bu əsəri milli tarixçiliyimizdə və cəmiyyətşünaslıqda büsbütün yeni baxışları əks etdirən orijinal bir araşdırma olaraq yeni tədqiqatlar silsiləsinin meydana çıxmasına da etibarlı zəmin yaradır.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər





Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri, partiyanın İdarə Heyətinin, Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, rayon və şəhər təşkilatlarının fəalları müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan Ümummilli lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.

Ulu öndər Heydər Əliyevin zəkası bütün maneələri aşaraq və qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı tənəzzüldən, hərc-mərclikdən, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsindən uğurla çıxarıb, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb.

Əbədiyaşar liderimiz Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının banisidir.

Ümummilli liderin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 700 mindən çox üzvü birləşdirərək ölkənin avanqard siyasi qüvvəsi kimi respublikamızda YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

## Əli Əhmədov: Azərbaycan xalqı nə qədər yaşayacaqsa, onun qəlbində Heydər Əliyevin xatirəsinə hörmət və ehtiram daim olacaq



**“Azərbaycan vətəndaşları Ümummilli lider Heydər Əliyevin anım gününü qeyd etməklə Onun xatirəsinə olan böyük ehtiramı ifadə edirlər. Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri də daim Ümummilli liderin əziz xatirəsini yad edirlər”.** Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, xalqımız hər zaman Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və millətimiz qarşısındakı xidmətlərini qeyd edir. Onun sözlərinə görə, Azərbaycan xalqı nə qədər yaşayacaqsa, onun qəlbində Heydər Əliyevin xatirəsinə hörmət və ehtiram daim olacaq.

**“Bunu vaxtında Ümummilli lider Heydər Əliyev duyurdu. Ulu öndər deyirdi ki, “nə qədər Azərbaycan var, mən də olacağam”. Bu sözlərdə böyük bir həqiqət var. Hər il vəfatının ildönümündə Ulu öndərimizin xalqımız tərəfindən böyük ehtiramla anılması bu sözlərdəki müdrikcəsinə həqiqəti bir daha ifadə edir”,** - deyə Əli Əhmədov vurğulayıb.

## YAP Sədrinin müavini: Təəssüf ki, beynəlxalq təşkilatlar bir çox məsələlərə, o cümlədən seçkilərə münasibəti ifadə edərkən ikili standartlardan qaça bilmirlər

**“Çox təəssüf ki, beynəlxalq təşkilatlar bir çox məsələlərə, o cümlədən seçkilərə münasibəti ifadə edərkən ikili standartlardan qaça bilmirlər”.** Bu fikri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov Ermənistanda dekabrın 9-da keçirilən parlament seçkilərində baş verən ciddi pozuntulara beynəlxalq təşkilatların göz yummasına dair jurnalistlərin suallarını cavablandırarkən deyib.

Əli Əhmədov bildirib ki, beynəlxalq təşkilatların bu kimi yanlış yanaşmaları Ermənistanda keçirilən və ciddi pozuntularla müşayiət olunan seçkilərə biganə qalmalarında da özünü göstərir. Onun fikrincə, seçkiləri müşahidə edən beynəlxalq qurumlar nöqsanlara münasibəti açıq şəkildə ifadə etməməklə ikili standartlar nümayiş etdirirlər.

**“Yəqin ki, beynəlxalq təşkilatların ikili standartları insanların, sadə əhalinin münasibətinə o qədər də təsir etmir. Ermənistanda ciddi pozuntularla baş verən seçkilərin nəticələrinə sadə erməni xalqı öz etirazlarını bildirir və bundan sonra da bildirəcək. Bununla da, beynəlxalq təşkilatların ikili standartları növbəti dəfə ifşa olunacaq. Təəssüf doğuran məqam odur ki, beynəlxalq təşkilatlar ikili standartlar azarından qurtula bilmirlər”,** - deyə YAP Sədrinin müavini vurğulayıb.

## Qafqaz Müsəlmanları İdarəsində Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib



Dekabrın 11-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə müqəddəs “Qurani-Kərim”dən ayələr oxunub.

QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə tədbirdə çıxış edərək Ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, dinə diqqət və qayğısından danışıb. Bildirib ki, Ulu öndər yorulmaz fəaliyyəti və qətiyyətli qərarları ilə müstəqilliyimizin formalaşmasında, ölkədə sabitliyin yaradılmasında, dünyada Azərbaycanın nüfuzunun yüksəldilməsində müstəsna xidmətlər göstərib. Buna görə də Heydər Əliyev tarixə müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi daxil olub. Dinindən, dilindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarına eyni münasibət bəsləyən Ümummilli lider illərin sınağından çıxmış adət və ənənələrə ehtiramla yanaşırdı. O, Özündən sonrakı dövr üçün də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi və yaradıcısıdır. Ulu öndər tarixin çətin və keşməkeşli yollarında xalqını ciddi sınaqlardan uğurla çıxarıb, zəhməti, zəkası, fitri istedadı ilə Azərbaycan Respublikasının dünya birliyində özünə layiqli yer tutmasına zəmin yaradıb. Ölkəmizdə azərbaycançılıq ideologiyasının formalaşması Heydər Əliyevin müdrikliyi və sarsılmaz iradəsi sayəsində mümkün olub. Azərbaycan bu gün Ümummilli liderin əsasını qoyduğu təməl üzərində sürətlə inkişaf edir. Ulu öndərin müəyyənləşdirdiyi siyasətə bu gün də xalqımız böyük etimad göstərir. Çünki bu siyasət Vətənə və xalqa xidmət edir. O, Ümummilli lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunduğunu, dövlətçiliyimizin məhv olmaq təhlükəsindən xilas edildiyini vurğulayıb. Ulu öndərin hakimiyyəti dövründə respublikamızın hərtərəfli tərəqqisində misilsiz nailiyyətlər qazanıldığını, habelə ölkəmizin yüksək iqtisadi inkişaf tempi ilə irəliləməsinin məhz Heydər Əliyev əməyinin nəticəsi olduğunu diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Azərbaycanın hər hansı bir sahəsinə, onun keçmişinə, bu gününə və gələcəyinə baxanda Heydər Əliyev siyasətinin nəticələrinin göründüyünü bildirib. O deyib ki, Azərbaycan dövləti Ümummilli liderin şah əsəridir. Hər bir xalqın əldə etməyə çalışdığı və qazandığı başlıca sərvəti onun dövlətidir. Bu gün müasir Azərbaycan dövləti var, inkişaf edir və daha yüksək nailiyyətlər qazanır. Bu, müdrik rəhbər Heydər Əliyevin ən böyük xidmətidir. Bu gün müstəqil Azərbaycan məhz Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla irəli addımlayır, özünün sabit və davamlı inkişafı ilə bölgədə liderliyini möhkəmləndirir, dünyada nüfuzunu durmadan artırır.

Professor Qəzənfər Paşayev deyib ki, Ulu öndər Heydər Əliyev ölkəmizi dini, etnik separatçılıq zəminində parçalamaq, mənəvi cəhətdən zəiflətmək, məzhəb ayrı-seçkiliyi salmaq istəyənlərin niyyətlərini puça çıxararaq dövlətçiliyimizi xilas edib. Milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməklə, Ulu öndər Azərbaycan dövlətçiliyinin sarsılmaz əsaslarını yaratdı. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dünya ölkələri arasında özünə layiqli yer tutdu.

Akademik Teymur Bünyadov çıxış edərək bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyevin həyatı boyunca Azərbaycan naminə göstərdiyi xidmətlər misilsizdir. Bu görkəmli şəxsiyyətin onilliklər ərzində Vətənə, millətə xidmətinin cövhərində böyük mənəviyyat sahibi olması dayanır. Heydər Əliyev ölkəmizi dini, etnik separatçılıq zəminində parçalamaq, mənəvi cəhətdən zəiflətmək, məzhəb ayrı-seçkiliyi salmaq istəyənlərin niyyətlərini puça çıxararaq dövlətçiliyimizi xilas edib.

Digər çıxış edənlər Ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyi və dövlətçiliyinin möhkəmlənməsi, gələcək inkişafı üçün gördüyü işlərdən danışıblar. Bildirilib ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməklə Ulu öndər Azərbaycan dövlətçiliyinin sarsılmaz əsaslarını yaradıb.

## Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın iclası keçirilib



Dekabrın 11-də Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, komissiyanın sədri Əli Həsənovun yanında keçirilən iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.

Baş nazirin müavini bildirib ki, əhalinin siyahıyaalınması Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” Fərmana uyğun aparılır. Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarı ilə yaradılan komissiyanın bugünkü iclasının keçirilməsində əsas məqsəd siyahıyaalma prosesini ciddi müzakirə etmək və prosesi sürətləndirməkdən ibarətdir. Hər 10 ildən bir baş tutan əhalinin siyahıyaalınması növbəti dəfə 2019-cu ilin oktyabr ayında keçiriləcək.

Hazırlıq prosesinə 43 min insanın cəlb olunduğunu deyən Baş nazirin müavini qeyd edib ki, sorğu vərəqələri artıq hazırlanıb. Əhalinin sayına uyğun vərəqələr hazırdır. 28 bənddən ibarət sorğuda 180 göstərici yer alıb. Əhalinin bu sorğulara tam, dolğun cavab verməsi mühüm əhəmiyyət kəsb edir.

İclasda vurğulanıb ki, bu prosesin əhaliyə geniş şəkildə çatdırılması üçün KİV-lərin üzərinə böyük vəzifə düşür.

Sonra Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov hazırlıq prosesi ilə bağlı ətraflı məlumat verib.

Daha sonra maraq doğuran məsələlər təhlil edilib, aidiyyəti üzrə tapşırıqlar verilib.

## “Ermənistanda ədalətli, demokratik seçkilər keçirmək qeyri-mümkündür”



**“Ermənistanda seçkilər həmişə saxta keçirilib. Yəni işğalçı ölkə müstəqillik əldə etdikdən sonra da orada azad, ədalətli və demokratik seçkilər keçirilməyib. Təəssüflər olsun ki, buna baxmayaraq, bəzi Avropa strukturları gah susurlar, gah da orada keçirilən ədalətsiz seçkiləri ədalətli seçkilər kimi qiymətləndirirlər”.** Bunu SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini Siyavuş Novruzov deyib.

**“Əgər xatırlayırsınızsa, vaxtilə Ermənistanda seçkilər prosesində insanlar kütləvi şəkildə güllələnirdi, öldürülürdü və ikili pasportla səsvermə həyata keçirilirdi. Ermənistanda keçirilən parlament seçkilərində bildirilib ki, seçkilərdə 2 milyon 600 min seçici iştirak edib. Halbuki Ermənistanın rəsmi statistikasına əsasən, bu ölkədə yaşayanların sayı 2 milyon 900 mindir. Bəs belə olan halda, bu qədər seçici haradan çıxdı? O baxımdan hesab edirəm ki, burada seçkilər saxta keçib və sui-istifadə hallarına yol verilib. Müxtəlif insanların sıxışdırılması, həbs olunması, təzyiqlərə məruz qalması açıq-aydın ortada idi. Ermənistanda keçirilən seçkilər bir daha göstərdi ki, burada azad, ədalətli, demokratik seçkilər keçirmək qeyri-mümkündür. Əfsuslar olsun ki, yenə də Qərb, Avropa strukturları bu məsələdə susurlar və öz mövqelərini ortaya qoymurlar”**, - deyə YAP İcra katibinin müavini vurğulayıb.

# Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti Ulu öndər Heydər Əliyevin xatirəsini yad edib






Dekabrın 11-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) şəxsi heyəti Fəxri xiyabana gələrək Ulu öndər Heydər Əliyevin xatirəsini yad edib.

AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Xidmətin əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, DTX-nin N saylı hərbi hissəsinin zabit və əsgərləri Fəxri xiyabanda Ulu öndərin məzarı önünə əklil qoyublar, xatirəsinə ehtiramlarını bildiriblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olunub.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan təhlükəsizlik orqanlarının inkişafında da mühüm xidmətləri var. Hələ sovet dövründə bu xidmətdə milliləşmə siyasətinin aparılmasında dahi şəxsiyyətin rolu böyükdür. Ulu öndərin əsasını qoyduğu şanlı məktəbin ənənələrini qürur və şərəflə yaşadan DTX-nin şəxsi heyəti müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı qorunması işini əzmlə davam etdirir və Xidmətin hər bir əməkdaşı bununla fəxr edir. Bu gün xalqımız qəti əmindir ki, Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə daha da inamla addımlayan ölkəmiz yeni-yeni uğurlara imza atacaq və Azərbaycan əsgəri qarşısına qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirməyə qadirdir.




## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb




Ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümü ilə əlaqədar dekabrın 11-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında anım tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, gənclər və idman nazirinin müavinləri İsmayıl İsmayılov, İntiqam Babayev, MOK baş katibinin müavini Azər Əliyev, Milli Məclisin deputatları, idman ictimaiyyətinin nümayəndələri, Olimpiya və dünya çempionları, müəllim və tələbələr iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ulu öndər Heydər Əliyev Akademiyanın foyesindəki abidəsi önünə gül dəstələri qoyaraq, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra Azərbaycanın dövlət himni səsləndirilib, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Daha sonra Tofiq Quliyev adına 12 nömrəli musiqi məktəbinin tələbələri Ulu öndərin sevdiyi mahnıları ifa ediblər.



## "Sönməzdir, əbədidir Heydər Əliyev!" adlı anım gecəsi təşkil olunub




Dekabrın 11-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Sönməzdir, əbədidir Heydər Əliyev!" adlı anım gecəsi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Xalq artisti Rauf Abdullayevin bədii rəhbəri və baş dirijoru olduğu Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin ifasında Qara Qarayevin "Matəm odası" səslənib. Orkestrin ifası zamanı monitorda Ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş videofraqmentlər nümayiş etdirilib.

Tədbirdə qeyd olunub ki, 15 il əvvəl dekabr ayının 12-də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyev əbədiyyətə qovuşub. O, xalqımızın yaddaşına əbədi həkk olmuş dahi şəxsiyyətdir. Çox illər keçəcək, lakin azərbaycanlılar müdrikliyi və sarsılmaz mətinliyi sayəsində ölkəmizin gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasəti hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Bildirilib ki, XX əsrin 90-cı illərində Azərbaycanın dəf etdiyi çətin yol yalnız Ümummilli lider Heydər Əliyevin fəaliyyəti sayəsində tarixi həqiqətə çevrildiyi kimi, XXI əsrin əvvəllərinin möhtəşəm uğurları da Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin yeritdiyi siyasətin parlaq təzahürüdür.

Sonra Qara Qarayevin "Leyli və Məcnun" simfonik poeması, Frans Şubertin "Simfoniya №8" əsəri səsləndirilib.

Soltan Hacıbəyovun "Karvan" simfonik lövhəsi ilə davam edən anım gecəsi Fikrət Əmirovun "Azərbaycan kapriççiosu"nun ifası ilə başa çatıb.

## Dmitri Savelyev: Heydər Əliyev azərbaycanlılara firavanlaşan ölkəni, bütün dünyaya həqiqi vətənpərvərlik nümunəsini miras qoyub




**"Tarixdə bütöv bir dövrün rəmzi olan, arxasınca xalqın getdiyi, sağlığında canlı əfsanəyə çevrilən şəxsiyyətlər az-az yaranır. Heydər Əliyev məhz belə insan idi".** Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bu sözləri AZƏRTAC-a müsahibəsində deyib.

O vurğulayıb: **"Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə ölkənin nüfuzunun artırılmasında, Rusiya ilə Azərbaycan arasında bu gün strateji xarakter daşıyan ikitərəfli münasibətlərin inkişafında bu dahi strateqin, istedadlı dövlət xadiminin tarixi rolunun əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Heydər Əliyev Sovet İttifaqı hökumətinin tərkibində işlədiyi dövrdə Rusiya ərazilərinin inkişafına da çox böyük töhfələr verib. Axı, Heydər Əliyev ən mürəkkəb və məsul sahələrə, o cümlədən həmin vəzifəyə gəldiyi dövrdə dərin böhran vəziyyətində olan dəmir yoluna, habelə o dövrün digər ən iri tikintilərinə - Qərbi Sibirdən və Urenqoydan ölkənin Avropa hissəsinə qaz kəmərləri çəkilişinə, məşhur Baykal-Amur Magistralına görə cavabdeh idi. Qaz sənayesinin, elmin, təhsilin, təbabətin inkişafı Onun xüsusi nəzarətində idi. Yeri gəlmişkən, mənim doğma şəhərim Novosibirskdə SSRİ Pedaqoji Elmlər Akademiyasının Elmi-tədqiqat informatika və hesablama texnikası institutu məhz Onun imzaladığı qərar sayəsində yaradılıb".**

Dövlət Dumasının deputatı vurğulayıb ki, Heydər Əliyev son dərəcə savadlı şəxs idi. D.Savelyev deyib: **"Məni ən çox heyrətləndirən budur ki, Heydər Əliyev ən yüksək vəzifələrdə çalışanda da həmişə nəyi isə öyrənir, əlavə ali təhsil alırdı, o cümlədən Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdi. Yəni O, sadəcə müdrik rəhbər deyil, həm də tarixin ibrət dərslərindən nəticə çıxarmağı bacaran, son dərəcə savadlı adam idi".**

Deputatın sözlərinə görə, Heydər Əliyevi şəxsən tanıyan adamlar təsdiqləyirlər ki, O, çox təvazökar və ilk növbədə, Özünə qarşı tələbkar adam idi. D.Savelyev sonda deyib: **"Fikrimcə, hamı mənimlə razılaşar ki, Heydər Əliyev azərbaycanlılara güclü, firavanlaşan bir ölkəni, bütün dünyaya isə həqiqi vətənpərvərlik və Öz ölkəsinə hədsiz sədaqətlə xidmət nümunəsini miras qoyub".**

## Vladimir Solovyov: Heydər Əliyev böyük siyasi xadim idi



Təəssüf ki, Heydər Əlirza oğlu ilə şəxsi tanışlığım olmayıb, amma onun barəsində çox eşitmişəm. O, hər baxımdan böyük siyasi xadim idi. Ölkəni bütün qlobal dəyişikliklərdən mühafizə etmiş, demək olar ki, Azərbaycanı yenidən qurmuş, qətiyyətli və aydın xətt yürütmüş siyasi xadim idi.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov söyləyib. O vurğulayıb ki, ölkənin indiki Prezidenti İlham Əliyev Ulu öndərin kursunu davam etdirir: **"Mənə çox xoşdur ki, Azərbaycan Prezidenti məni həmkarım - Rusiya Jurnalistlər İttifaqının katibi Rafael Hüseynovla birlikdə qəbul etdi. Bu, hətta gözlənilmədən oldu, çünki hər halda respublika Prezidenti ilə Jurnalistlər İttifaqı sədrinin səviyyələri arasında böyük fərq var. Bilirəm ki, sələfim Vsevolod Boqdanov Heydər Əliyevlə sıx ünsiyyət saxlayıb. Onlar hələ o dövrdə Xəzər regionu ölkələrinin jurnalistlərini birləşdirmək barədə düşünüblər. Prezidentlə söhbət əsnasında mən bunu ona xatırlatdım. O, bu ideyanı böyük maraqla qarşıladı. Görüş çox maraqlı keçdi, biz bir çox ümumi mövzu tapdıq. Prezident tapşırdı ki, Azərbaycana mümkün qədər çox rusiyalı jurnalist gəlsin. Gəlib Azərbaycanda rus dilinin necə inkişaf etdiyini, rusların necə yaşadıqlarını, respublikanın gözəlliklərini görsünlər. Biz jurnalistlərdən, yazıçılardan və şairlərdən ibarət qrup yaradırıq. Ümidvaram ki, onlar Novruz bayramında ölkənizə səfər edəcəklər".**

V.Solovyov Azərbaycan paytaxtı barədə təəssüratlarını bölüşərək deyib: **"Mən demək olar ki, bütün qitələrdə, hətta Antarktidada, ümumən dünyanın 80 ölkəsində olmuşam. Bakı, sözün həqiqi mənasında, güclü təəssürat yaradır. O, qeyri-adi memarlıq abidələri ilə fantastik dərəcədə gözəl şəhərdir. Yeraltı keçidlərin mərmərlə işlənməsi heyrətləndirir. Heydər Əliyev Mərkəzi, Xalça Muzeyi, Şirvanşahlar sarayı, İçərişəhər, Qız qalası görənləri mat qoyur. Sizdə yeni xalça ustaları nəsli yetişib. Onlar xalça üzərində fantastik şəkillər yaradırlar. İnsanın belə bir kompozisiyanı necə düşündüyünü təsəvvür belə gətirmək çətindir. Bakı heyrətamiz şəhərdir. Düşünürəm ki, biz indi Azərbaycana tez-tez gələcəyik".**

# Heydər Əliyev siyasi kursu: sabitlik, güclü iqtisadiyyat və uğurlu xarici siyasətin mükəmməl vəhdəti

Müstəqil Azərbaycanın memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi kursunun analizi daim diqqət mərkəzində olmalıdır. Çünki bu kurs çoxtərəfli, müasir tələblərə tam cavab verən və çevik manevrlər etməyə imkan yaradan mükəmməl idarəetmə sistemidir. İllər keçdikcə Heydər Əliyevin dövlət xadimi kimi Azərbaycanın müstəqilliyində və idarə edilməsinin demokratikləşməsindəki əvəzsiz rolu daha aydın görünür. Hər keçən gün bu siyasi kursun istənilən sürətlə dəyişən situasiyaya adaptasiya potensialının möhtəşəmliyini sübut edir. Təcrübə göstərir ki, Ulu öndərin siyasi kursu XXI əsrin bütün sınaqlarından uğurla çıxmaqdadır. Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev konkret proqramlarla bu kursun çox böyük potensiala malik olduğunu və onun nəzəri aspekti ilə praktiki tətbiqi arasında sıx bağlılığın mövcudluğunu təsdiq edir. Bütövlükdə Heydər Əliyevin siyasi kursu haqqında çox yazmaq olar. Bu məqalədə biz yalnız bir sıra məqamlara qısa təhlili nəzər salmaq istərdik.

### HƏR ZAMAN EHTİYAC DUYULAN QÜDRƏTLİ ŞƏXSİYYƏT: HEYDƏR ƏLİYEV FENOMENİ VƏ MÜSTƏQİL AZƏRBAYCAN

Ulu öndər Heydər Əliyevin böyük siyasi və dövlət xadimi kimi fəaliyyəti uzun illərdir ki, müxtəlif aspektlərdən analiz edilir. Ancaq hər keçən gün bu prosesin davam etdirilməsi zərurətini bir daha qarşımıza qoyur. Bunun çox ciddi nəzəri və praktiki səbəbləri vardır. Çünki Heydər Əliyev nadir şəxsiyyətlərdəndir ki, xalqın, dövlətin və cəmiyyətin Ona hər zaman ehtiyacı vardır. Ümummilli lider ictimai-siyasi fəaliyyəti, dövlət quruculuğunda oynadığı rolu, müstəqil Azərbaycanın varlığı və inkişafı üçün hazırladığı mükəmməl kursu ilə həmişəyaşardır. Heydər Əliyevin hər bir kəlməsinə ehtiyac vardır. Ulu öndərin başlıca əsəri müstəqil Azərbaycandır və nə qədər ki, bu dövlət yaşayır, Heydər Əliyev də yaşayır. Azərbaycanın müstəqilliyi əbədi olduğundan, Ümummilli lider də əbədidir.

Hamıya məlumdur ki, Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət heç də ürəkaçan deyildi. O dövrdə baş verənlər barədə kifayət qədər yazılıb. Lakin ən dolğun qiyməti Prezident İlham Əliyev verib. Dövlət başçısı keçən əsrin 90-cı illərinin əvvəllərində naşı rəhbərliyin fəaliyyətsizliyi nəticəsində, ümumiyyətlə, müstəqil dövlətçiliyin təhlükə altında qaldığını vurğulayıb. Bu məqamı dərk etmədən Ulu öndərin xilaskarlıq missiyasını tam dərk etmək mümkün deyil.

Doğrudan da, Heydər Əliyevin xilaskarlığı geniş mənanı əhatə edir. Burada ölkənin parçalanmadan, separatizmdən xilas edilməsi ilə mükəmməl dövlət quruculuğu kursunun reallaşdırılması vəhdət təşkil edir. Konkret ifadə etsək, Heydər Əliyev postsovet məkanında yeganə siyasi lider oldu ki, həm ölkəni məhv olmaqdan qoruya bildi, həm də buna paralel olaraq müstəqil dövlət quruculuğu kursunu davamlı olaraq reallaşdırdı.

Həmin dövrdə bu işi görmək olduqca çətin idi. Çünki daxildəki separatçıların fəaliyyətindən başqa, kənardan da çox güclü təzyiqlər mövcud idi. Eyni zamanda, həm kənar təzyiqlərə sinə gərmək, həm daxildə separatçı qrupları neytrallaşdırmaq və dövlət quruculuğunu aparmaq fövqəladə iradə, uzaqgörənlik, siyasi təcrübə və iti zəka tələb edirdi. Heydər Əliyev müdrik siyasəti ilə bu vəzifənin öhdəsindən gəlmək naminə dövlət quruculuğu üçün vacib olan üç faktoru vahid sistemdə birləşdirə bildi. Bunlar güclü iqtisadiyyat yaratmaq, daxili sabitliyi təmin etmək və geosiyasi mənzərəni Azərbaycanın xeyrinə dəyişməkdən ibarət idi.

Birinci faktor, yəni güclü iqtisadiyyatın yaradılması daxili sabitlik və uyğun geosiyasi mühit olmadan mümkün deyildi. Ulu öndər iqtisadi islahatları neft strategiyası ilə sıx bağlılıqda həyata keçirməyə başladı. Bununla həm iqtisadi potensialı gücləndirdi, həm də beynəlxalq aləmdən güclü dəstək aldı. “Əsrin müqaviləsi” bu prosesdə həlledici rol oynadı. 1995-1996-cı illərdə həmin siyasət nəticəsində Azərbaycanda sosial-iqtisadi vəziyyət sabitləşdi, ölkə davamlı inkişaf xəttinə çıxdı. Sosial-iqtisadi islahatlar yalnız bundan sonra sürətləndirmək olardı.

Heydər Əliyev şərti olaraq ikinci mərhələ adlandırdığımız dövrdə ustalıqla siyasi və iqtisadi islahatlar apardı. Bunun üçün Ulu öndər strateji əhəmiyyətli sistemli addımlar atdı. Həmin sırada Heydər Əliyev çox ağıllı kadr siyasəti həyata keçirdi. Ümummilli lider gənc, enerjili, yüksək diplomatik hazırlığa malik İlham Əliyevi neft strategiyasının reallaşdırılması prosesinə cəlb etdi. Təcrübə göstərdi ki, bu, çox uğurlu bir addım oldu və Azərbaycan həmin istiqamətdə çox böyük uğurlar qazandı.

Yeri gəlmişkən vurğulayaq ki, İlham Əliyevin idarəetməyə cəlb olunması bütövlükdə Azərbaycanda müstəqil dövlət quruculuğu prosesində dirçəlişə nail olmağa imkan verdi. Konkret misal kimi Prezident İlham Əliyevin ötən 15 ildə həyata keçirdiyi proqramların verdiyi nəticələri göstərə bilərik. Məsələn, aqrar sektorda ardıcıl inkişaf təmin edilib. Bu, həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar sayəsində mümkün olub. 2003-2018-ci illərdə meliorasiya sahəsinə əsaslı kapital qoyuluşu 21 dəfə artıb.

Prezident İlham Əliyevin 15 ildə həyata keçirdiyi ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkə bazar iqtisadiyyatına keçid prosesini başa çatdırıb. Keçən müddətdə ÜDM-də özəl sektorun payı 80 faizdən çox olub. Makroiqtisadi sabitlik möhkəmləndirilib. Ölkə iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə MDB məkanında birinci yerə yüksəlib. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin davamlı yüksəlişi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı həyata keçirilib. Ötən dövr ərzində qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilib. Müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlayıb.

Rəqəmlərlə ifadə edilsə, 15 il müddətində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. O cümlədən qeyri-neft sektoru - 2,8, sənaye istehsalı - 2,6, kənd təsərrüfatı isə - 1,7 dəfə böyüyüb. Qeyri-neft məhsulları sahəsində ixracat 4,1 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılıb. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar həcmində investisiya qoyulub.

İqtisadiyyata yeni nəfəs verən digər faktları da göstərə bilərik. Bütün bu uğurlar Prezident İlham Əliyevin ifadə etdiyi kimi, Heydər Əliyevin əsasını qoyduğu dövlət quruculuğu kursunun inkişaf etdirilməsi sayəsində mümkün olub. Bu barədə dəfələrlə fikir bildirən dövlət başçısı İlham Əliyev başlıca inkişaf xəttinin məhz Ulu öndərin müəyyən etdiyi daxili və xarici siyasəti müasir tələblərə uyğun inkişaf etdirməkdən ibarət olduğunu ayrıca vurğulayıb. Bu xətt daxili və xarici siyasətin bütün sferalarında müşahidə edilir.

Burada onu da vurğulamaq tam yerinə düşərdi ki, müstəqil dövlət quruculuğu prosesində Ümummilli liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Mehriban xanım Əliyeva Ulu öndərin irsinin öyrənilməsi istiqamətində irimiqyaslı proqramların həyata keçirilməsini aktiv dəstəkləyir. Ölkənin birinci xanımı Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə edir, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olur. Mehriban xanım Əliyevanın bu fəaliyyəti geniş ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir.



Məsələyə daha geniş miqyasda yanaşdıqda Baş nazir Novruz Məmmədovun bir fikri çox düzgün olaraq qeyd etdiyini görürük. Novruz Məmmədov ifadə edib ki, son illərdə Prezident İlham Əliyevin uzaqgörən və müdrik rəhbərliyi nəticəsində Azərbaycanda yeni keyfiyyətli inkişaf modelinin formalaşmasına xüsusi diqqət yetirilir və bu istiqamətdə böyük işlər görülür. Eyni zamanda, ölkəmizdə iqtisadiyyat sahəsində islahatların dərinləşməsi, iqtisadiyyatın rəqabətliliyinin artırılması üçün önəmli addımlar atılır.

### ÜÇ ASPEKTİN SİNTEZİ VƏ AZƏRBAYCANÇILIQ: YENİ İDARƏETMƏ FƏLSƏFƏSİNİN BƏHRƏLƏRİ

Yuxarıda vurğuladığımız kimi, Ulu öndər iqtisadi islahatları daxili sabitliklə vəhdət şəklində apardı. Daxili sabitlik inkişafın təməlidir. Heydər Əliyev həm içəridə olan dağıdıcı ünsürləri zərərsizləşdirməklə, həm də xarici təzyiqlərə sinə gərməklə qısa zamanda sabitliyə nail oldu. Dünyanın aparıcı siyasi liderləri də etiraf edirlər ki, sabitlik olmayan yerdə davamlı inkişaf mümkün deyil. Məhz buna görədir ki, Türkiyənin mərhum Prezidenti Süleyman Dəmirəl Bakıda insanların firavan, təhlükəsiz yaşamasını nəzərdə tutaraq demişdi ki, bu, Heydər Əliyevin əldə etdiyi ən böyük tarixi nailiyyətlərdən biridir.

Daxili sabitliyin təmin edilməsində Ulu öndərin azərbaycançılıq ideologiyasına yeni məzmun verməsi əhəmiyyətli rol oynadı. Azərbaycançılıq həm cəmiyyətdə münasibətlərin müasir dövrün tələblərinə uyğun tənzimlənməsinə, həm də müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsinə təkan verilməsinə böyük imkanlar yaratdı. Təcrübə bunu tam sübut etdi. Bizim üçün çox əhəmiyyətlidir ki, məhz Heydər Əliyevin bu ideoloji konsepte verdiyi yeni məzmun Prezident İlham Əliyevə azərbaycançılığı yeni səviyyəyə yüksəltməyə əsas yaratdı. Nəticədə, Ulu öndərin siyasətinin davamı kimi İlham Əliyev iki mühüm proqramı dövlət səviyyəsində reallaşdırmağa başladı. Onlardan biri Azərbaycan cəmiyyətində multikultural dəyərlərin bərqərar olunması, digəri isə sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoq mexanizmlərinin və formatlarının hazırlanmasıdır.

Sivilizasiyalar, dinlər və mədəniyyətlər arasında dialoqun təşkili azərbaycançılıq ideologiyasında milli ilə beynəlmiləl olanın vəhdəti prinsipinə əsaslanır. XXI əsrin tələbləri fonunda bu, çox mühüm məqamdır. Çünki heç də müstəqilliyini əldə etmiş dövlətlərin hamısında milli ilə bəşərinin vəhdətini təmin edən səmərəli ideoloji prinsip yoxdur. Azərbaycançılıqda isə Ulu öndərin nəzəri olaraq müəyyən etdiyi həmin prinsipin praktiki olaraq yüksək səmərə verdiyini Prezident İlham Əliyev tam sübuta yetirdi. Məsələn, Azərbaycanda sivilizasiyalar, dinlər və mədəniyyətlərarası qarşılıqlı əlaqələrin genişləndirilməsi və dialoqun təşkili mexanizmi kimi “Bakı Prosesi”, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Beynəlxalq Humanitar Forumu mövcuddur. Bir neçə ildir ki, bu üç mexanizm öz səmərəsini verməkdədir və onu bütün dünya qəbul edir. Cənubi Qafqazda buna bənzər ikinci nümunə yoxdur.

Ulu öndərin azərbaycançılıq ideologiyasının konkret səmərəli təsdiqi olan multikulturalizmin dövlət siyasəti səviyyəsinə yüksəldilməsi də tarixi hadisədir. Azərbaycanda multikultural dəyərlər ənənəvi olaraq mövcud olub. Müasir mərhələdə isə onun dövlət siyasəti kimi reallaşdırılması prosesi gedir. Multikulturalizm müasir dövr üçün çox əhəmiyyətlidir. Qloballaşma avtomatik olaraq müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsi məsələsini aktuallaşdırır. O cümlədən bir cəmiyyətdə yanaşı yaşayan və fərqli dinlərə mənsub olan insanların tolerant, dialoq və sülh şəraitində yaşamasının real fəlsəfi-ideoloji əsası olmalıdır. Azərbaycan təcrübəsi bütün dünyaya sübut etdi ki, ölkəmiz bu istiqamətdə konkret fəaliyyət göstərir. Artıq dünyanın tanınmış siyasi liderləri və ekspertləri multikulturalizmin Azərbaycan modeli haqqında danışırlar.

Bu, olduqca vacib prosesdir. Məsələ ondan ibarətdir ki, Ulu öndərin yeni məzmun verdiyi azərbaycançılıq ideologiyasının müasirliyi və kreativ potensialı yüksəkdir. Deməli, müstəqil dövlət quruculuğu XXI əsrin tələblərinə cavab verən müasir ideoloji bazaya malikdir. Bizcə, həmin özəllik Heydər Əliyevin Azərbaycan xalqına və dövlətinə verdiyi ən qiymətli töhfələrdən biridir. Şübhə yoxdur ki, Prezident İlham Əliyev bu istiqamətdə müasir tələblərə uyğun yeni və səmərəli proqramlar həyata keçirməkdə davam edəcək. Dövlət başçısı Ulu öndərin siyasi varisi olduğunu dəfələrlə sübut edib və bunun həmişə belə olacağına qətiyyən şübhə yoxdur.

Yuxarıda vurğulanan məqamlardan başqa, bir əhəmiyyətli tezisi də vurğulamaq mümkündür. Güclü iqtisadiyyat və daxili sabitliyin təmini azərbaycançılıq ideologiyasının mühüm aspektlərindən olan xarici siyasət prinsiplərinin real təntənəsini görməyə imkan verir. Azərbaycanın xarici siyasətini Ulu öndər elə prinsiplər üzərində qurub ki, burada müxtəlif sahələrin vəhdətinə nail olmaq imkanı yaranıb. O cümlədən milli təhlükəsizlik enerji siyasəti ilə tam çulğaşıb. Hazırda Azərbaycanın milli təhlükəsizliyində enerji siyasətinin oynadığı rolu ekspertlər açıq etiraf edirlər. “Milli təhlükəsizlik” anlayışı müxtəlif aspektləri ehtiva edir. Burada nəhəng transmilli enerji və nəqliyyat layihələrinin ayrıca yeri və rolu vardır.

Konkret misal olaraq təməli Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən sona çatdırılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini göstərə bilərik. Bu layihə energetik və iqtisadi faktorlarla yanaşı, geosiyasi amillərə də ciddi təsir göstərdi. Ulu öndər Heydər Əliyev ifadə edirdi ki, həmin layihə dünyanın geosiyasi xəritəsini yeniləşdirəcək. Bu proqnoz özünü tam doğrultdu. Özü də iki aspektdə.

Birincisi, Bakı-Tbilisi-Ceyhan energetika rolu baxımından böyük bir ərazidə geosiyasi qüvvələr nisbətini dəyişdi. Çünki müxtəlif dairələr ona mane olmağa çalışsalar da, Heydər Əliyevin yüksək iradəsi və diplomatik peşəkarlığı sayəsində bütün cəhdlər iflasa uğradıldı. Bununla da geosiyasət üçün mühüm əhəmiyyət kəsb edən bir tezis öz təsdiqini tapdı: postsovet məkanında müstəqil dövlətlər kənar təsirlər olmadan dünya əhəmiyyətli layihələr həyata keçirə bilər! Bunu Ulu öndər Heydər Əliyev bütün dünyaya sübut etdi, Prezident İlham Əliyev isə buna yeni məzmun çalarları verdi!

Həmin çalarlar Bakı-Tbilisi-Ceyhanın geosiyasi rolunun ikinci aspekti ilə bağlıdır. Konkret olaraq bu layihənin reallaşması digər nəhəng proqramların da həyata keçirilməsini mümkünlüyünü siyasi şüurlara yeritdi. Budur, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verildi, 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməli qoyuldu. Bu layihə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Avropanın yüksək səviyyəli rəsmiləri bunu açıq etiraf edirlər. Hətta Donald Tramp bu barədə açıq və qəti fikrini bildirib. Məhz Cənub Qaz Dəhlizinin Qərbin enerji təhlükəsizliyi üçün geosiyasi vacibliyini nəzərə alaraq, layihədə iştirak edən ölkələri sanksiyalardan kənarda tutub.

Cənub Qaz Dəhlizinin uzunluğu 3500 kilometr, dəyəri isə 40 milyard dollardan çoxdur. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Bütün bunlara 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş”in (“Əsrin müqaviləsi”) müddətinin 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılması fonunda nəzər salsaq, Ulu öndərin nə dərəcədə uzaqgörən siyasi lider olduğuna bir daha əmin olarıq.

Qərb ölkələri hələ 1994-cü ildə imzalanan bir sazişin 2050-ci ilə qədər qüvvədə qalmasında maraqlıdır. Buna görədir ki, həmin müqavilənin vaxtı uzadılıb. Üstəlik, müqavilə Azərbaycan üçün daha səmərəli şərtləri nəzərdə tutur. Məsələn, yeni şərtlərə görə, SOCAR-ın payı 11 faizdən 25 faizə qaldırılmalı və mənfəət neftinin 75 faizi Azərbaycana verilməlidir. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət kursu Azərbaycana beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında aktiv iştirak etməyə imkan yaradıb. Prezident İlham Əliyev bu istiqamətdə son dərəcə əhəmiyyətli təşəbbüslər irəli sürüb. Nəticədə, Avropa və Asiyanı birləşdirən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizləri yaradılıb. Daha geniş kontekstdə bu, Azərbaycanı bütövlükdə “Bir Qurşaq, Bir Yol” layihəsi çərçivəsində aktiv bir müstəviyə çıxarıb. Azərbaycan hazırda Cənubi Qafqazın geosiyasi və nəqliyyat qovşağı funksiyasını yerinə yetirir.

Bunun təsdiqlərindən biri Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Abşeron Logistika Mərkəzinin tikintisi kimi layihələrin artıq reallaşdırılmasıdır. Bütövlükdə, Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirmiş Bakı-Tbilisi-Qars dəmir yolu regionda Azərbaycanın çox əhəmiyyətli təsir amili olmaqla onu tranzit daşımalar mərkəzinə çevirir.

Təbii ki, Azərbaycanın xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq xüsusi yer tutur. Bunun ümumi prinsiplərini Ulu öndər Heydər Əliyev müəyyənləşdirib. Həmin aspektdə Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ifadə edib ki, münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır. Bununla yanaşı, yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar Azərbaycanın mövqeyini daha da möhkəmləndirir. Bu nəticəyə Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət prinsiplərinə ciddi əməl edilməsi və gərgin zəhmət sayəsində gəlinib.

Danılmaz həqiqətdir ki, müstəqil Azərbaycan dövlətinin xarici siyasəti Heydər Əliyev siyasi kursunun məhsuludur. Bu siyasət son illərin sınağından uğurla çıxıb və Azərbaycanın dövlət suverenliyinin əbədiləşdirilməsinə möhkəm zəmin yaradıb. O cümlədən həmin siyasət Azərbaycanı regionun aparıcı dövlətlərindən birinə çevirib. Ayrıca qeyd edək ki, 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Ölkəmiz 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatında uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının zirvə görüşü keçiriləcəkdir.

Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşdır. Bununla yanaşı, onu da unutmaq olmaz ki, Heydər Əliyevin xarici siyasət kursunda daha çox önəm verilən istiqamətlərdən biri qonşu ölkələrlə əməkdaşlığın genişləndirilməsi və tərəfdaşlığın təmin edilməsi ilə bağlı olub. Bununla əlaqəli Azərbaycan Prezidenti İlham Əliyev deyib: **“Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir”.**

Heydər Əliyevin xarici siyasət kursunda beynəlxalq təşkilatlarla əməkdaşlıq da xüsusi yer tutur. Ulu öndərin BMT Baş Assambleyasının 49-cu sessiyasında söylədiyi nitqi bu baxımdan strateji əhəmiyyət kəsb edir. Heydər Əliyev həmin nitqində həm Azərbaycanın xarici siyasətinin ümumi prinsiplərini ifadə edib, həm də qlobal geosiyasi proseslərin inkişafı ilə bağlı maraqlı tezislər irəli sürüb. Ümummilli lider BMT-nin dünya siyasətindəki fəaliyyətinin daha da aktivləşdirilməsi ilə əlaqədar konkret təkliflər irəli sürüb. Deməli, müstəqil Azərbaycanın xarici siyasəti kökündən beynəlxalq miqyasda özünü göstərən trendlərlə beynəlxalq hüquq normaları çərçivəsində sıx vəhdətdə olub.

Vurğulanan məqamlar bir daha təsdiq edir ki, Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı kimi bütün istiqamətlərdə atılacaq addımların ümumi prinsiplərini zərgər dəqiqliyi ilə müəyyənləşdirib. Ümummilli liderin bu mirası Azərbaycan dövlətçiliyini daim var etməyə qadirdir. Prezident İlham Əliyevin həyata keçirdiyi proqramlar, apardığı islahatlar, ordu quruculuğu kursu bu baxımdan Heydər Əliyev siyasi kursunun etibarlı əllərdə olduğunu nümayiş etdirir.

**Newtimes.az**

# Ulu öndər Heydər Əliyev qüdrətli siyasətçi kimi güclü və inkişaf edən Azərbaycan dövlətinin əsasını qoymuşdur

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü*

**Hüseyn Cavid**

*Qərinələr, əsrlər və minilliklər boyu davam edən bəşər salnaməsi, sivilizasiyaların, lokal və qlobal mədəniyyətlərin təkamülü və transformasiyası, eləcə də mövcud kəmiyyət dəyişikliklərinin yeni keyfiyyət dəyişikliyinə çevrilməsi nəticəsində Yer üzünün əşrəfi sayılan insan övladı və onun yaşadığı cəmiyyət adilikdən adilliyə, varislikdən müasirliyə doğru irəliləyərək müxtəlif dövrləri əhatə edən zaman və məkan müstəvisində misilsiz xidmətlər göstərmiş, tarixin yaddaşından silinməyən şəxsiyyətlər yetişdirmişdir.*

*Bu mənada ictimai şüurda milli və qlobal təfəkkürdə, həmçinin əxlaq fəlsəfəsində ən ali keyfiyyətləri özündə təcəssüm etdirən, eyni zamanda, real gerçəklikdən və sosial zərurətdən doğan tarixi şəxsiyyətlərin, görkəmli dövlət başçılarının, siyasi liderlərin siyasi arenaya çıxması təbii hal və məntiqi hadisə kimi qiymətləndirilməlidir.*



**Hacıbala Abutalıbov**
**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Fizika-riyaziyyat elmləri doktoru, professor**



Yəqin, yanılmarıq, desək ki, Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşən, milli və ümumbəşəri dəyərlərin daşıyıcısı sayılan, qədim, eləcə də daima yeniləşən müstəqil Azərbaycan təkcə ecazkar təbiəti, zəngin yeraltı və yerüstü sərvətləri, unikal mədəniyyəti, nəcib, xeyirxah insanları ilə deyil, bu insanları, bədii təxəyyülün dili ilə söyləsək, vücuda gətirərək, xalq, millət halında birləşdirən tarixi şəxsiyyətləri, dövlət və mədəniyyət xadimləri ilə də seçilir. Bəli, bu gün Azərbaycanımızda olan ən böyük sərvət onun bu məmləkətdə yaşayan insanlarıdır. Və bu insanlar arasından çıxmış tarixi şəxsiyyətlər öz əməlləri ilə doğma diyarımızı gülüstana çevirərək cahana tanıtmış, əvəzsiz xidmətləri ilə əbədiyaşarlıq haqqı qazanmışlar.

Heç şübhəsiz ki, belə tarixi şəxsiyyətlər sırasında Öz əzəməti və qüdrəti ilə ən uca zirvələri fəth edən, zəfər salnaməmizin parlaq səhifələrini qızıl hərflərlə tarixə yazan müasir Azərbaycan dövlətinin banisi, məhz Böyük Xilaskar Heydər Əliyevimiz olmuşdur.

Başqa sözlə, bəşəriyyətə, həmçinin dünya mədəniyyətinə əvəzsiz töhfələr, dühalar və dahilər bəxş etmiş qədim və müasir Azərbaycanın parlaq tarixi şəxsiyyətləri sırasında dövlət müstəqilliyimizin qarantı Heydər Əliyevimiz şər qüvvələrin təklədiyi ölkəmizi, obrazlı dildə desək, sanki düşdüyü cəhənnəm burulğanları əzabında çapalayan sahibsizlik girdabından, bir xalq və bir dövlət olaraq tamamilə məhv olmaq təhlükəsindən xilas edərək, onu qısa zaman kəsiyində məşəqqətli, zülmətli gecələrdən işıqlı, nurlu, ilhamlı gələcəyə doğru inamla aparan, daha sonra cahanşümul məmləkətə çevirən ilk fövqəltəbiətli tarixi şəxsiyyət olmuşdur.

Vaxtı ilə yaxın və uzaq keçmişin mürəkkəb və ziddiyyətli anlarında görkəmli şəxsiyyətlərin, dövlət başçılarının cəmiyyət həyatında oynadığı rolu düzgün dəyərləndirən klassik alman filosofu Hegelin "siyasi tənəzzülə doğru sürətlə yaxınlaşmaqda olan xalqın müqəddəratını yalnız dahilər xilas edə bilər", eləcə də Türkiyə Cümhuriyyətinin yaradıcısı və qurucusu Mustafa Kamal Atatürkün "ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatlarını qurban verən insanlardır" fikirləri sanki Böyük Xilaskar Heydər Əliyevimizin siyasət fəlsəfəsinə müasirlərimiz tərəfindən verilən bugünkü qiymətlə həmahəng səslənir.

Bildiyimiz kimi, Heydər Əliyevimizin ali siyasət fəlsəfəsində azərbaycançılıq ideologiyası, bütövlükdə Azərbaycan mövzusu bütün mövzuların şahı, əzəl mübtədası, başlanğıcı və sonu olmuşdur. O, qüdrətli bir siyasətçi kimi bütün şüurlu həyatı boyu Azərbaycanı düşünmüş, onun müstəqilliyini hər şeydən və hər kəsdən uca tutmuş, nura qərq olmuş mənalı ömrünün ilk çağlarından son günlərinədək güclü Azərbaycan dövlətinin əsasını qoymaq eşqi ilə yaşayıb-yaratmışdır. Bu mənada Ulu öndərimiz azərbaycançılıq məfkurəsini və ideyasını, Vətənə, millətə olan sevgisini ən müqəddəs amal hesab edir, bütün maddi və mənəvi dəyərlərin üzərində Azərbaycan dövlətinin və millətinin maraqlarının durduğunu əməli fəaliyyəti ilə də sübut edirdi. Beləliklə, Heydər Əliyevimiz əsrlər boyu düşünən aydınların, filosof və mütəfəkkirlərin arzuladığı, lakin gerçəkləşdirə bilmədiyi "ideal cəmiyyət" ideyasını günümüzün reallıqları səviyyəsinə çatdırmış, milli dövlət quruculuğu istiqamətində məmləkətimizi zəiflik mənbəyindən güc, əzəmət mənbəyinə çevirərək heç nədən böyük məmləkətimizi yaratmış, əldə etdiyi uğurlar nəticəsində Azərbaycanı dünyaya, dünyanı da Azərbaycana tanıtmışdır.

Siyasi fəaliyyətində azərbaycançılıq ideologiyasını daima rəhbər tutan Heydər Əliyevimiz Azərbaycan xalqının və onun hər bir vətəndaşının milli-dini kimliyindən, mənsubiyyətindən, siyasi əqidəsindən və baxışlarından asılı olmayaraq, millətin azadlıq carçısı və müstəqillik simvolu, insanların yeganə ümidgahı və pənah yeri idi. O, sanki Ulu Tanrı tərəfindən göndərilmiş milli taleyin səmavi elçisi və xilaskarı, daxili və xarici çəkişmələrdən, siyasi təlatümlərdən büdrəyən insanların azadlığı qarşısında hörülən tikanlı sədləri, maneələri dəf edərək, xalqı təbiətin gözəllik və əzəmət rəmzi sayılan uca çinartək bugünkü və gələcək Azərbaycanın inkişafı naminə iri addımlarla irəliyə doğru aparan bayraqdarı olmuşdur. Görünür, məhz bu səbəbdən də biz hər dəfə Heydər Əliyevimiz deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyevimiz başa düşürük. Həqiqətə söykənən bu deyilən sözlərin bir növ tam təsdiqi olaraq gözlərimiz önünə və poetik yaddaşa əbədi həkk olunmuş görkəmli Azərbaycan şairi Nəbi Xəzrinin sözlərinə dünya şöhrətli müğənni Müslüm Maqomayev tərəfindən bəstələnmiş Azərbaycan mahnısı yada düşür. Respublika sarayında (əvvəllər belə adlandırılırdı) Ulu öndər Heydər Əliyevimizin prezident seçkiləri ilə bağlı andiçmə mərasimindən sonra keçirilən bədii hissədə Müslüm Maqomayev ilk dəfə olaraq etiraf etmişdi ki, onun dillər əzbəri olan Azərbaycan mahnısı məhz Böyük azərbaycanlı Heydər Əliyevimizə həsr olunub. Sadəcə, çox şeyin gizlin saxlanıldığı və qapalı ölkə sayılan Sovetlər Birliyində adı çəkilən mahnının yazılmasının səbəbini və mahiyyətini açıqlamaq o dövr üçün məqsədəuyğun sayılmırdı.

*Heydər Əliyevimizin ali siyasət fəlsəfəsində azərbaycançılıq ideologiyası, bütövlükdə Azərbaycan mövzusu bütün mövzuların şahı, əzəl mübtədası, başlanğıcı və sonu olmuşdur. O, qüdrətli bir siyasətçi kimi bütün şüurlu həyatı boyu Azərbaycanı düşünmüş, onun müstəqilliyini hər şeydən və hər kəsdən uca tutmuş, nura qərq olmuş mənalı ömrünün ilk çağlarından son günlərinədək güclü Azərbaycan dövlətinin əsasını qoymaq eşqi ilə yaşayıb-yaratmışdır. Bu mənada Ulu öndərimiz azərbaycançılıq məfkurəsini və ideyasını, Vətənə, millətə olan sevgisini ən müqəddəs amal hesab edir, bütün maddi və mənəvi dəyərlərin üzərində Azərbaycan dövlətinin və millətinin maraqlarının durduğunu əməli fəaliyyəti ilə də sübut edirdi*

Yeri gəlmişkən, Nəbi Xəzri yaradıcılığının və qəlbinin dərin qatlarında doğmalaşmış Azərbaycan və onun təbiətinin gözəlliyini tərənnüm edən uca çinar mövzuları ilə bağlı aşağıdakı sətirlər Heydər Əliyevimizin əxlaq fəlsəfəsi, daxili aləmi, mənəviyyat dünyası və dühası ilə, demək olar ki, daxili vəhdət, qarşılıqlı təsir müstəvisində bir-birini tamamlayan ahəngdarlıq və harmoniya təşkil edir.

*Əgər yıxılsam, Çinar göstərin,*
*Mən ona söykənim, arana baxım.*
*Gözlərim görməsə, Göygölü verin,*
*Mən onun gözü ilə cahana baxım.*
*Hər yerdə, həmişə*
*Sənsən gümanım.*
*Canım-gözüm mənim,*
*Azərbaycanım!*
*Sən Günəş, mən isə bir zərrə kimi*
*Diriykən oğlunam, ölsəm torpağın.*
*Sən uca çinarsan, mənsə yarpağın,*
*Sənsən özüm mənim, Azərbaycanım.*

Artıq uzun illərdi ki, bir çox tədqiqatçılar, o cümlədən başda Heydər Əliyev Fondu olmaqla, Ulu öndərimizin yaddaşlardan silinməyən, müasirlərimizə və gələcək nəsillərə nümunə ola biləcək həyat və yaradıcılığı, zəngin siyasi fəaliyyəti, müstəqil dövlət quruculuğu istiqamətində gördüyü əzəmətli əməllərlə bağlı bir sıra elmi-tədqiqat işlərini, monoqrafiyaları və seçilmiş əsərlərinin çoxcildli külliyyatını dünyanın müxtəlif dillərində işləyib çapa hazırlamış, başqa sözlə, bir növ bu Böyük İnsan qarşısında olan vicdan borclarını şərəf və ləyaqətlə yerinə yetirmişlər. Çünki nə qədər Azərbaycan adlı məmləkət və Azərbaycan xalqı yaşayırsa, bir o qədər də Onun tükənməz və ölçüyəgəlməz irsinə olan tələbata daima ehtiyac duyulacaq.

Böyük Xilaskarın müstəqil və güclü Azərbaycan naminə gördüyü əzəmətli və möhtəşəm əməllərdən biri, bəlkə də, ən birincisi - dünyada bir çox qüdrətli səltənətlər qurmuş siyasi xadimlərdən fərqli olaraq, Onun məmləkətimizi əbədiyaşar məkana çevirmək məqsədi ilə Öz siyasi məktəbini yaratmasıdır və bu siyasi məktəbin ən parlaq, layiqli nümayəndəsi İlham Əliyevimizi müasir Azərbaycanın bugünkü və gələcək inkişafı naminə hazırlayaraq, siyasi arenaya çıxara bilməsidir.

*"Əgər oğul atasından sonra onun millət və dövlət uğrunda yolunu ləyaqətlə davam etdirirsə, bunu varisin övladlıq borcu adlandırmaq olar"*

**Konfutsi**

Öz inkişafında ahəngdarlıq və harmoniya prinsiplərinə söykənən bəşəriyyət üçün əsrlər boyu ən ali ölçü vahidi sayılan zaman insanların yaşadığı sosial mühitdən asılı olmayaraq, onların əməllərinə, seçiminə daha düzgün qiymət və fərman verir. Dünya fəlsəfi fikir tarixində əsas mövzulardan biri hesab edilən insan və cəmiyyət, dövlət və onun idarə olunması problemləri təkcə qədim dövrün deyil, həm də çağdaş əsrimizin mütəfəkkirlərini, sənət və sənətkarlarını daima düşündürdüyündən onlar qarşılarına çıxan suallar çələnginə cavab axtarmağa çalışmışlar. Bu mənada, böyük Səməd Vurğunun məşhur fəlsəfi misrası "Qalib gələcəkmi cahana insan?" və bu misra ilə bağlı "əgər cahanda dövlətə rəhbər seçilən insan ağlı, insan zəkası xeyrə, insanlığa xidmət edəcəksə, onda o, qalibiyyət nişanını qələbə bayrağına sanca biləcəkdir" fikri həm varislik, həm də müasirlik baxımından olduqca aktual səslənir.

Deyilən bu ibrətamiz fikirləri mübaliğəsiz olaraq əsası Ulu öndər Heydər Əliyevimiz tərəfindən qoyulmuş azərbaycançılıq və güclü Azərbaycan ideologiyasının layiqli davamçısı, məmləkətimizi Öz möhtəşəm və əzəmətli əməlləri ilə rövnəqləndirən, qətiyyətli və qüdrətli ölkə başçımız İlham Əliyevimizə tam əminlik hissi ilə aid etmək olar.

Siyasi liderlik mədəniyyəti və estafeti yeniləşən Azərbaycanın yeni lideri, respublikamızın Prezidenti İlham Əliyevimizə həvalə olunduqdan sonra O, qısa zaman kəsiyində yüksələn xətt üzrə ictimai həyatımızın bütün sahələrini əhatə edən uğurlu və məqsədyönlü islahatlar həyata keçirmiş, müasir Azərbaycanda baş verən modernləşmə proseslərini düzgün məcraya yönəldərək, yeni innovasiyalar və informasiya texnologiyalarının tətbiqi prosesinin daxili və qlobal mühitin tələblərinə uyğun səviyyədə gerçəkləşməsinə münbit şərait yaratmışdır.

*Siyasi liderlik mədəniyyəti və estafeti yeniləşən Azərbaycanın yeni lideri, respublikamızın Prezidenti İlham Əliyevimizə həvalə olunduqdan sonra O, qısa zaman kəsiyində yüksələn xətt üzrə ictimai həyatımızın bütün sahələrini əhatə edən uğurlu və məqsədyönlü islahatlar həyata keçirmiş, müasir Azərbaycanda baş verən modernləşmə proseslərini düzgün məcraya yönəldərək, yeni innovasiyalar və informasiya texnologiyalarının tətbiqi prosesinin daxili və qlobal mühitin tələblərinə uyğun səviyyədə gerçəkləşməsinə münbit şərait yaratmışdır*

Ulu öndər Heydər Əliyevimizin dövlətçilik siyasətinə xas olan xüsusiyyətləri Öz əməli fəaliyyətində yüksək peşəkarlıqla həyata keçirən müstəqil dövlətimizin başçısı İlham Əliyevimiz ölkə iqtisadiyyatının tərəqqisinə xidmət edən sosial-iqtisadi proqramların gerçəkləşməsi prosesləri ilə yanaşı, milli mənəviyyatımızın və milli dəyərlərimizin təməl sütunlarından sayılan mədəniyyət siyasətinin hərtərəfli inkişafına da mühüm əhəmiyyət və önəm verir. Burada Prezidentimizi daha çox düşündürən və xalqımızın taleyüklü məsələlərindən sayılan dünyanı bürümüş labüd, haradasa ziddiyyətli qloballaşma proseslərinin insan amilinə mənfi təsirinin nəticələri fonunda kamil Azərbaycan cəmiyyətinə xas olan milli-mənəvi əxlaqi dəyərlərin, adət-ənənələrin, milli şüur və milli iftixar hissinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsidir. Deyilən bu fikirlərin bir növ əyani təsdiqi kimi böyük Azərbaycan şairi Nizami Gəncəvi də öz əsərlərində cəmiyyət və dövlətin idarəetmə sistemində güclü şəxsiyyət və ədalətli dövlət başçısı probleminə toxunaraq qeyd edir ki, "hakimiyyəti təmsil edənlər qanunların aliliyinə söykənməli, ədalətli qərarlar qəbul etməlidirlər". Əks halda bu istiqamətdə atılan addımlar cəmiyyətin tərəqqisinə deyil, tənəzzülünə xidmət etmiş olur. Bu isə son nəticədə mövcud mənəvi və əxlaqi dəyərlərin məhvinə gətirib çıxarır. Söylənilən bu ibrətamiz kəlamın bir növ məntiqi davamı olaraq xatırlatmaq istərdik ki, müasir dünya siyasətində, həmçinin postsovet məkanına aid edilən bəzi ölkələrdə baş verən neqativ proseslər bir çox hallarda məhz bu məmləkətlərə başçılıq edən dövlət rəsmilərinin daxili və xarici siyasətlərində atılan yanlış addımlar, son nəticədə, cəmiyyətlərin zəifləməsinə, dövlət müstəqilliyinin və ərazi bütövlüyünün itirilməsinə gətirib çıxarır.

Göstərilən bu fəsadlı proseslər fonunda müstəqil Azərbaycanın milli-dövlət maraqlarını hər şeydən üstün tutan ölkə başçımız İlham Əliyevimiz istər bölgədə, istərsə də dünyada baş verən son dərəcə mürəkkəb, bəzən də həllinin sonu görünməyən bu ziddiyyətli hadisələri ağlın süzgəcindən keçirərək gələcəkdə qarşımıza çıxa biləcək problemlərin yeganə və düzgün həlli yollarını böyük məharət, iradə və siyasi ustalıqla tapır.

Bütün dünyada etibarlı tərəfdaş, söz və əqidə sahibi, siyasətdə qətiyyətliliyin və dönməzliyin simvolu kimi tanınan ölkə başçımız İlham Əliyevimizin rəhbərliyi sayəsində ictimai həyatımızın bütün istiqamətləri üzrə aparılan məqsədyönlü islahatlar, balanslaşdırılmış və zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş daxili və xarici siyasət kursu bugünkü və gələcək inkişafımızın uğurlu addımlarından xəbər verir.

Deyilən bütün fikirlərlə yanaşı, eyni zamanda, qətiyyətlə bildirmək istərdik ik, artıq bu gün müasir Azərbaycan nə günbatan, nə də üstünü qara buludlar almış zülmətli gecə dövləti deyildir ki, kimsə istənilən vaxt burada zülmət toxumunu səpə bilsin. Eləcə də bu gün Azərbaycan daşları, divarları için-için qan ağlayan, insanları ahu-nalə çəkib göz yaşları axıdan elə bir məmləkət deyil ki, burada yağı düşmən istədiyi an at oynada, meydan sulaya. Ölkə başçımız, Ali Baş Komandan İlham Əliyevimizin rəhbərliyi ilə müasir Azərbaycan vətəndaşlarında, ələlxüsus Azərbaycan əsgərində və ordusunda torpağa, dövlətə, məmləkətə aşılanmış sahiblik şüuru tam əminlik hissi ilə deməyə əsas verir ki, biz bir millət, bir dövlət olaraq istənilən an öz ərazi bütövlüyümüzü qorumağa, düşmənə sarsıdıcı zərbə vuraraq işğal olunmuş Azərbaycanın dilbər guşəsi olan Qarabağı və onun ətrafındakı rayonları azad etməyə hazırıq. Çünki biz zəiflik mənbəyini güc mənbəyinə çevirərək güclü millət, güclü dövlət məfkurəsini gerçəkləşdirə bilmiş, Azərbaycanı bütün dünyaya, dünyanı da Azərbaycana tanıda bilmişik.

*"Qadın başlanğıcdır, qadın yaradışdır və ruhun təməlidir"*

**Jan-Pol Sartr, 20-ci əsrin görkəmli filosofu, Nobel mükafatı laureatı**

Əsrlər boyu öz möhtəşəm əməlləri ilə bəşər mədəniyyətini daima zənginləşdirən, tarixin hünər salnaməsini qəhrəmanlıq nümunələri ilə bəzəyən, başqa sözlə, qılınc və qələm, əzəmət və siyasət aləmində tarix yazan xalqlar arasında qədim türklər və türk dünyası, eləcə də bu dünyanı həmişə rövnəqləndirən türk qadını zamanından və məkanından asılı olmayaraq, bütün mütəfəkkirlərin, aydınların və sənətkarların həmişə təqdirini qazanmışdır. Təsadüfi deyildir ki, türk dünyasını, o cümlədən Azərbaycanı təmsil edən qadınlar ən qədim zamanlardan çağdaş dünyamızdakı ailənin və ocağın qoruyucusu, həyata layiqli övladlar gətirən və tərbiyələndirən dəyanətli ana, şərəf və ləyaqətini hər şeydən uca tutan vəfalı insan, istər döyüş meydanlarında, istərsə də cəmiyyətin və dövlətin idarə olunmasında qədirbilən xalqımızın qadir nümayəndələri ilə çiyin-çiyinə, yanaşı və məğrur duran, onlara hər an dəstək, həyan olan ən güclü, eyni zamanda, zərif və müqəddəs bir varlıqdır.

Çox sevindirici və fərəhləndirici haldır ki, ulu əcdadlarımızdan və qədim dastanlarımızdan bizə miras qalmış milli-mənəvi və əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz və bu dəyərlərin, ənənələrin fövqündə duran Azərbaycan qadınının adı, şərəfi həmişə uca tutulmuş, onun istər ailədə, istərsə də cəmiyyət həyatında oynadığı rol daima yüksək qiymətləndirilmişdir.

Bu gün müstəqil Azərbaycanın ictimai həyatını, onun demokratik təsisatlara söykənən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində atdığı uğurlu addımları rəşadətli, fədakar qadınlarımızın xidmətlərini nəzərə almadan təsəvvür etmək qeyri-mümkündür. Azərbaycan qadını, onun ideal obrazı və ideal cizgiləri ilə bağlı deyilən bütün bu fikirlərin ən ali mücəssəməsi öz parlaq təsdiqini əməli fəaliyyətində insani və idraki gözəlliyi daima təcəssüm etdirən, insanlığa, müasir və gələcək nəsillərə öz bənzərsizliyi ilə nümunə olan, xeyirxahlıq və nəciblik simvolu sayılan Mehriban xanım Əliyevamızın timsalında tapır. Bədii və fəlsəfi təfəkkürün dili ilə söyləsək, Mehriban xanım Əliyevamızın ictimai həyatımızın bir çox sahələri üzrə gördüyü əzəmətli işlər bizə onu deməyə əsas verir ki, artıq bu gün o, bir evin, bir elin, bir obanın xanımı olmaqla yanaşı, həm də dünyada tanınan Azərbaycan adlı bir məmləkətin də layiqli övladıdır. Bu mənada, ölkə başçımız İlham Əliyevimizin rəhbərliyi ilə Mehriban xanım Əliyevamızın güclü Azərbaycan naminə həyata keçirdiyi çoxşaxəli və məqsədyönlü silsilə tədbirlər böyük minnətdarlıq hissi ilə qarşılanmalı, hər cür təqdirəlayiq hal kimi dəyərləndirilməlidir.

Öz əməli və praktiki fəaliyyətində insan amilini, humanizm ideyalarını hər şeydən uca tutan Mehriban xanım Əliyevamızın həyata keçirdiyi geniş spektrli tədbirlər bilavasitə Azərbaycan dövlətinin və xalqının maraqlarına xidmət edir. Bu da təbiidir. Çünki Mehriban xanım Əliyevamızın həyat amalını və əxlaq fəlsəfəsinin qayəsini məhz Azərbaycan sevgisi, başqa sözlə, azərbaycançılıq ideologiyası təşkil edir.

Bu gün təmiz əxlaq, yüksək mədəniyyət və dərin zəka sahibi Mehriban xanım Əliyevamızın millət və Vətən naminə gördüyü diqqətəlayiq və heyrətamiz işlər yüz insan ağlına və ömrünə sığmayan nurlu ömür salnaməsinin parlaq səhifələrini təşkil edir.

Beləliklə, azad Azərbaycanın dünəni, bu günü, sabahı və nurlu gələcəyi naminə dövlət quran, dövləti yaşadan, xalqın qan yaddaşında torpağa sahiblik şüurunu oyadan bu üç BÖYÜK DAHİ insan haqqında söz açıb, söz yazmaq nə qədər çətin və məsuliyyətli olsa da, bir o qədər də şərəflidir. Çünki sağlam düşüncəli hər bir Azərbaycan vətəndaşı kimi bizlər də öz möhtəşəm əməlləri ilə zəngin tarix yazmış bu BÖYÜK İNSANLAR qarşısında olan öz vicdan, mənəviyyat borcumuzu və məsuliyyətimizi dərk edir, Vətən və millət eşqi ilə yaşamağı, düşünməyi bir daha onlardan öyrənirik.

Böyük insanlarla bağlı düşüncələrimi, onların əyilməz vicdanlarında əbədi həkk olunmuş əqidə dönməzliyinin bariz nümunələrini ürəyimin dərin qatında çoxdan yaşatdığım, bu gün də yaşayan və həmişə yaşayacaq ülviyyətə qovuşan böyük sevgimi Nəbi Xəzri poeziyasında səslənən "siz yaxşı ki, varsınız" bəndlərindəki misralarla bildirmək istərdim.

*Sizlərə vurğunam mən,*
*Bəzəyidir şəfəqdən...*
*Sizlərdən yollar keçər,*
*Siz yaxşı ki, varsınız,*
*Zirvələrə açılan qapılarsınız.*

Bu gün yeniləşən Azərbaycan sözün bədii və həqiqi mənasında nura qərq olmuş, günçıxan və parlaq gələcəyi olan elə bir dövlətdir ki, onun nuru bütün dünyaya işıq saçır. Və bu işığın çırağında, heç şübhəsiz ki, Ulu öndərimizin müqəddəs ruhu, ölkə başçımız, zəfər salnaməmizin ən qüdrətli sərvəri İlham Əliyevimizin sarsılmaz iradəsi, təmiz əxlaq, yüksək mədəniyyət və dərin zəka sahibi Mehriban xanım Əliyevamızın mehriban baxışları bizimlə olub, bizləri qoruyur və hifz edir.

# Ulu öndər Heydər Əliyev ümumbəşəri şəxsiyyətdir

*2018-ci il - "Azərbaycan Xalq Cümhuriyyəti İli" tariximizin hər bir səhifəsini vərəqləməyə geniş imkanlar yaradır. Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. İllər bir-birini əvəzlədikcə, bu günümüzdən dünənimizə bir baxış keçirməklə uğurlarımızın fonunda keçilən yolun dəyərləndirilməsinin obyektiv aparılmasının bir zərurət olduğunu daha aydın görür, tarixdə şəxsiyyətlərin rolunu daha yüksək qiymətləndirir, ən əsası aforizmə çevrilən bu fikri bir daha təsdiqləmiş oluruq: keçmişinə bağlı olan, bu günü ilə qürur duyan, gələcəyə böyük ümid bəsləyərək inamla irəliləyən xalqlar tarixin sərt və çətin sınaqlarından üzüağ çıxaraq, milli varlığını yüksək səviyyədə qoruyur, sözünün imzası qədər dəyəri olduğunu dünyaya nümayiş etdirir.*

## *Ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik tarixi milli sərvətimizdir*





**Siyavuş Novruzov,**
**Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri**

Azərbaycan xalqı 1991-ci il 18 oktyabrda tarixi uğur qazanaraq dövlət müstəqilliyini yenidən bərpa etdi. Lakin həmin dövrdə ölkəyə səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, ən əsası, şəxsi ambisiyalarını dövlətin maraqlarından üstün tutan şəxslərin rəhbərlik etməsi Azərbaycanı böyük uçurum qarşısında qoymuşdu. Daxili çəkişmələr, silahlı qüvvələrin torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət etməsi, Ermənistanın təcavüzü böyük çətinliklər yaratmış, xalqın sabaha inamı itmişdi. 90-cı illərin həmin çətin anlarında məhz Ulu öndər Heydər Əliyev Azərbaycanı dağılmaqdan xilas etdi. Dahi şəxsiyyətin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə yeri və rolunun artmasında, ən əsası, iqtisadi böhrandan xilas olub dinamik inkişaf yoluna çıxmasında misilsiz və müstəsna rol oynadı. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VI qurultayında söylədiyi **"Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi Ulu öndər Heydər Əliyevdir. Məhz Onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. 1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Əlbəttə ki, bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi - Onun dəmir iradəsi, xalqın Ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik"** fikirlər Azərbaycanın müstəqillik tarixinin ayrı-ayrı səhifələrinə işıq salmaqla yanaşı, Ulu öndər Heydər Əliyevin dövlətimiz qarşısında xidmətlərinin miqyasının nə qədər böyük olduğunu təsdiqləyir. Dahi şəxsiyyət Heydər Əliyev Xilaskarlıq missiyasını yerinə yetirməklə işıqlı gələcəyimizi şərtləndirdi.

Dahi şəxsiyyət Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin Azərbaycana qazandırdığı uğurlar bir daha bu reallığı ortaya qoyur ki, hər bir ölkənin inkişafında onun lideri əhəmiyyətli rol oynayır. Milli lider dövlətin özünütəsdiqində, xarici siyasətin formalaşmasında mühüm rol oynayan əsas amildir. Liderin həyat təcrübəsi, dünyagörüşü, siyasi iradəsi inkişaf strategiyasının düzgün müəyyənləşdirilməsinə stimul verir, ən çətin məqamlarda düzgün yol seçməyə imkan yaradır.

Dahi şəxsiyyət Heydər Əliyevin xidmətlərini dəyərləndirmək üçün tarixə qısa baxış keçirmək hər zaman bir zərurətdir. Onun uzun illər Azərbaycana rəhbərlik etməsi faktı özlüyündə Heydər Əliyev şəxsiyyətində ifadəsini tapan, müstəqilliyə və xalqına sədaqət, millilik və vətənə məhəbbət hisslərinə olan sarsılmaz ümumxalq inamının təzahürüdür. Sovetlər birliyi dövründə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizi qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə dövlətçilik tariximizin yeni mərhələsinin başlanğıcını qoydu. Müstəqil, iqtisadi cəhətdən qüdrətli, dünya birliyinin layiqli üzvü olan Azərbaycanı yaratmaqla xalqla hər zaman bir olduğunu, Vətənini, torpağını canından çox sevdiyini bir daha nümayiş etdirdi.

1993-cü ilin 3 oktyabrında yüksək etimad qazanan və 11 oktyabr 1998-ci ildə qələbəsini yenidən təsdiqləyən Ümummilli lider Heydər Əliyev milyonların ürəyindən keçən istəkləri reallaşdırdı. Dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ilin oktyabrında keçirilən andiçmə mərasimində bildirmişdir: **"Belə yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".**

Prezidentliyinin ilk mərhələsində həyata keçirdiyi islahatlar, böhran içərisində qalan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını artırmaqla ölkəmizin dünya birliyinə açılan yoluna "yaşıl işıq" yandırdı. Bu baxımdan ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin qurulması vacib amil kimi önə çəkilirdi. Daxili siyasətin uğurları Azərbaycanın beynəlxalq aləmdə yeri və roluna da öz müsbət təsirini göstərdi. Bir əsas məqamı xüsusi qeyd etməliyik ki, Ulu öndər Heydər Əliyevin səyləri nəticəsində 1994-cü il 12 mayda atəşkəs sazişinin imzalanması ölkədə sabitliyin möhkəmləndirilməsinə, digər sahələr üzrə əhəmiyyətli addımların atılmasına stimul verdi. Malik olduğu təbii resurslardan səmərəli istifadə etmək, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmək, ən əsası birgə səylər, qarşılıqlı təcrübə mübadiləsi sayəsində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün 1994-cü ilin 20 sentyabrında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında "Əsrin müqaviləsi" imzalandı. Bununla Azərbaycan öz iqtisadi imkanlarını dünyaya təqdim edərək, növbəti sazişlərin imzalanmasına zəmin yaratdı.

İllər keçdikcə, Azərbaycan yeni-yeni dostlar qazandı, səsi bir çox beynəlxalq təşkilatların tribunasından eşidildi, diplomatik uğurları diqqət çəkdi. Dünya siyasətində dəst-xətti ilə seçilən, dövlət başçıları arasında fenomen istedadı və hazırlığı ilə fərqlənən Heydər Əliyev şəxsiyyəti müdriklik simvolu kimi nümunə göstərildi. Bu, cəsarət və qətiyyət, liderlərə məxsus dönməzlik və məğrurluq müasir Azərbaycanın qurucusu olan bu dahi şəxsiyyətin həyat amalının gerçəkləşməsinin parlaq ifadəsi kimi Azərbaycanın imicini, nüfuzunu yüksəltdi. Ulu öndər Heydər Əliyevin irəli sürdüyü bütün prioritetlərin əsasında qüdrətli respublikanın inkişaf perspektivləri - düşünülmüş, dünya siyasətinə uyğunlaşdırılan balanslaşdırılmış xarici siyasət, ölkə daxilində sabitliyin təminatı, dövlətçiliyin möhkəmlənməsi, bazar iqtisadiyyatı yolunu seçməklə malik olduğumuz təbii ehtiyatlardan xalqın mənafeyi və rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə, insan hüquq və azadlıqlarının qorunması, Azərbaycanın tolerant dövlət kimi bütün azərbaycanlılar üçün vətən olması və digər bir-birindən məsuliyyətli vəzifələr dayanırdı. Bu gün qürur hissi ilə deyə bilərik ki, bu vəzifələrin öhdəsindən layiqincə gəlinmişdir.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan üçün göstərdiyi xidmətlərin çəkisi və əhəmiyyəti ölçüyəgəlməz dərəcədə çoxdur. Məhz Onun təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın bir amal - azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi vacib amil kimi önə çəkildi. 2001-ci ilin noyabrında Dünya Azərbaycanlılarının I qurultayını keçirməklə, soydaşlarımızın həmrəyliyini təmin etməklə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əsas amil olan diasporun təşkilatlanması üçün hüquqi bazanın əsası qoyuldu, görüləcək işlərin bir mərkəzdən idarə olunması üçün müvafiq dövlət komitəsi yaradıldı. Bu gün böyük fəxr və inam hissi ilə qeyd edirik ki, dünyanın müxətlif ölkələrinə səpələnmiş soydaşlarımız Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə öz töhfələrini verir, yaşadıqları ölkələrdə həqiqətlərimizin təbliği istiqamətində bir-birindən əhəmiyyətli uğurlara imza atırlar. Erməni yalanlarının ifşa olunmasında, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında birgə səylərin göstərilməsi mütləqdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin Dünya azərbaycanlılarının III qurultayında səsləndirdiyi bu fikri bir daha qeyd etmək istərdik: **"Güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir".**

Bu gün Azərbaycanın dünya miqyasında enerji təhlükəsizliyinin təminatçısı kimi tanınmasının əsasında Ulu öndərin hazırladığı neft strategiyası, ölkənin enerji siyasətinin uğurlu həlli dayanır. Təkcə cari ildə enerji sektorunda əldə olunan uğurlara nəzər salmaq kifayətdir. May ayında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı, iyunda onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi, oktyabrda Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılışı və s. kimi bir-birindən mühüm hadisələr regional əməkdaşlığın əsas aparıcı qüvvəsi olan Azərbaycanın bu əməkdaşlığın coğrafiyasının genişləndirilməsində maraqlı olduğunu, eyni zamanda, Ulu öndər Heydər Əliyevin dünya praktikasına istinadən söylədiyi **"Heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz"** tezisinin bu gün də həyata keçirilən siyasətin ana xəttini təşkil etdiyini təsdiqləyir. Bir sözlə, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirən Azərbaycanın lider dövlət kimi tanınmasının təməlində məhz Ulu öndər tərəfindən qoyulan daxili və xarici siyasətin uğurlu həlli dayanır. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycana inamı artırmaqla, bugünkü uğurları şərtləndirdi. "Əsrin müqaviləsi"ndən sonra imzalanan onlarla müqavilələr, ən əsası ötən il "Yeni əsrin müqaviləsi"nin imzalanması ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və roluna bir daha işıq saldı.

Bütün xalqlar və dövlətlərlə qarşılıqlı anlaşma və əməkdaşlıq siyasətini yeridən, Azərbaycanın ən tanınmış beynəlxalq təşkilatlarda təmsil olunub, söz sahibi nüfuzu qazanması müdrik bir siyasətin məntiqi nəticəsi kimi bu gün də özünü doğruldur.

Təbii ki, 15 iyun 1993-cü il tarixinin Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi düşməsi də səbəbsiz deyil. Bu tarix Azərbaycanın xaosdan, anarxiyadan, özbaşınalıqdan, iqtisadi böhrandan xilasını, inkişaf, tərəqqi yoluna çıxdığını ümumiləşdirdi. Bugünkü Azərbaycan reallıqları həmin tarixin, Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsası kimi dəyərləndirilən Heydər Əliyev ideyaları ölkəmizin qarşısında yeni-yeni imkanlar açır, yeni-yeni uğurlara aparır.

2003-cü ildə Ulu öndər Heydər Əliyevin xalqa müraciəti, ən əsası, cənab İlham Əliyevin xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilməsi böyük yolun davamı kimi tarixə yazıldı. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdiriləcəyini bildirdi. Son 15 ildə hər vədin konkret əməli işdə öz təsdiqini tapdığının şahidiyik. Cənab İlham Əliyevin bu fikirlərini xatırlatmaq istərdik: **"Bu gün Heydər Əliyev siyasəti bütövlükdə bütün sahələrdə davam etdirilir. 2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçdiyi gündən bu günə qədər bu siyasətə sadiqəm. Mən 2003-cü ildə bu barədə sözümü demişəm. Mən bu siyasətə sadiq qalacağam və 2003-cü ildən bu günə qədər Azərbaycanda gedən uğurlu inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir, müstəqil Azərbaycanın təntənəsidir".**

Son 15 ildə Azərbaycanın qazandığı uğurlar göz qabağındadır. "Gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər amil vardır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, siyasətimiz milli maraqlar üzərində qurulub: **"Bizim siyasətimiz müstəqilliyin möhkəmlənməsinə istiqamətləndirilibdir. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında özünə layiq yerini tuta bilibdir. Azərbaycan daha da güclü ölkə olmalıdır. Biz qüdrətli Azərbaycan dövləti qururuq və əminəm ki, quracağıq. Bütün hədəflərə çatmaq üçün bizim müstəqil siyasətimiz davam etməlidir. Xalq bu siyasəti dəstəkləyir".**

Qarşıdakı illər üçün əsas hədəf Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək, yüksək gəlirli ölkəyə çevirmək, bu günə qədər 3 dəfədən çox artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaqdır. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında Azərbaycanın müstəqillik tarixində qazandığı uğurların fonunda işlənib hazırlanan və təsdiq olunan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əsas hədəflər və onlara çatmağın yolları öz əksini tapıb.

Ölkənin hərtərəfli inkişafı dövlət siyasətinin əsasını təşkil edir. Hər sahə üzrə konkret Dövlət proqramlarının qəbulu və uğurlu icrası qarşıya qoyulan bu məqsədə yüksək səviyyədə nail olmağa əsas yaradır. O da məlumdur ki, hər il konkret bir sahənin adı ilə bağlanaraq, bu istiqamətdə tədbirlər planı həyata keçirilir.

İqtisadi tərəqqi demokratikləşmə prosesinin sürətləndirilməsində mühüm rol oynayır. Azərbaycanın demokratiya təcrübəsinin digər ölkələrə nümunə göstərilməsi uğurlu islahatların nəticəsidir. 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul olunan Azərbaycan demokratik dəyərlərə sadiq olduğunu bir daha dünyaya nümayiş etdirdi. Ötən bu dövr ərzində qurumla ölkəmiz arasında əlaqələrin yüksələn xətt üzrə inkişafı yüksək dəyərləndirilir. Azərbaycan atdığı hər addımında bu reallığı ortaya qoyur ki, demokratikləşmə prosesi sadəcə bir şüar, niyyət deyil, ölkənin hərtərəfli inkişafı üçün əsasdır. O da məlumdur ki, qəbul olunan qanunlar, o cümlədən Milli Konstitusiyamız dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilir, yenilikləri özündə əks etdirir. Konstitusiyanın maddələrinin böyük əksəriyyəti insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Azərbaycan dövləti siyasətində insan amilinə verdiyi dəyəri atdığı addımları ilə təsdiqləyir.

Demokratiyanın vacib amillərindən biri kimi siyasi partiyaların, ictimai birliklərin fəaliyyətini tənzimləyən qanunvericilik bazası daim təkmilləşdirilir. "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsi də bu təkmilləşmənin, yeniləşmənin təsdiqidir. Azad mətbuatın inkişafına yönələn addımlar davamlılığı ilə diqqət çəkir. Məhz bu diqqət və qayğının nəticəsidir ki, ölkə Prezidenti İlham Əliyev üç dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Siyasi və iqtisadi islahatların vəhdətliyi fonunda Azərbaycanın uğurları biri-birini əvəzləməkdədir. Dünyanın enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rolunu günbəgün artıran Azərbaycan sabitlik diyarı kimi də diqqət çəkməkdədir. Təbii ki, son 15 ildə ölkə iqtisadiyyatına 230 milyard dollardan artıq investisiyanın qoyulması Azərbaycanın bu gününə və gələcəyinə inamdan irəli gəlir. Azərbaycan beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz liderliyini qorumaqdadır. Bütün bunlar təbii ki, dövlətimizin uğurlu siyasətinə əsaslanır.

Ölkəmizin hər gün, hər həftə müxtəlif mövzularda beynəlxalq əhəmiyyətli tədbirlər üçün əsas məkan seçilməsi beynəlxalq münasibətlər sistemində artan rolunun göstəricisidir. Azərbaycanın 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi onun beynəlxalq nüfuzunu, siyasi çəkisini bir daha dünyaya nümayiş etdirdi. Təbii ki, bu uğurlarımız ən böyük problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini yaxınlaşdırır. Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, hər gün bizi qələbəyə yaxınlaşdırır. Azərbaycanla heç bir sahədə rəqabət aparmaq imkanında olmayan Ermənistan işğalçılıq siyasəti ucbatından bütün enerji layihələrindən kənarda qalmaqla iqtisadi böhran içərisində çabalayır. Azərbaycanın hərbi xərcləri Ermənistanın ümumi büdcəsindən artıqdır. Bu gün böyük inamla qeyd edə bilərik ki, sülh danışıqları səmərə vermədiyi təqdirdə Azərbaycan işğal altında olan torpaqlarını hərb yolu ilə azad etmək gücündədir. 2016-cı ilin aprel, cari ilin Naxçıvan qələbələri, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin, Bakının azad olunmasının 100 illiyi münasibətlilə keçirilən paradlar da Azərbaycan Ordusunun gücünü, malik olduğu imkanları bir daha dünyaya nümayiş etdirdi.

Son 15 ilə qısa baxış etməklə reallıqlarımız fonunda gələcəyə daha böyük inamla irəliləməyə böyük əsaslar olduğunu aydın görmüş oluruq. Azərbaycan yenilikçi ölkə kimi nüfuz qazanıb. Mühüm uğurlarımız sırasında artıq üç peykimizin orbitə buraxılmasını xüsusi qeyd etməliyik.

Müasir dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu nəzərə alsaq, artıq dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq hər kəs bu və ya digər dövlətin reallıqları barədə məlumat əldə etmək imkanındadır. Lakin gerçəkliklərin birbaşa şahidi olmaq tamamilə fərqli bir düşüncənin formalaşmasına stimul verir. Azərbaycan 2015-ci ildə Birinci Avropa Oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməklə idman ölkəsi kimi də tanındığını nümayiş etdirdi. Bu tədbirlər, eyni zamanda Azərbaycanın tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkə kimi təqdimatında da əhəmiyyətli rol oynadı. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm həyat tərzimizdir. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilmişdir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan dövlətlər, xalqlar arasında körpü roluna yeni-yeni əlavələr edir.

Daim yeniliyi, müasirliyi, modernləşməni həyata keçirdiyi siyasətin önündə saxlayan dövlətimizin bir-birindən əhəmiyyətli addımları hərtərəfli inkişafı sürətləndirməklə yanaşı, beynəlxalq baxışın yüksək səviyyədə formalaşmasına stimul verir.

Azərbaycanın davamlı uğurlarında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı əsasında keçirilən Birinci Avropa Oyunları, həmçinin IV İslam Həmrəyliyi Oyunları ölkəmiz haqqında reallıqları dünya xalqlarına çatdırmaqla, Azərbaycana yönələn məkrli, böhtan xarakterli kampaniyalara tutarlı cavab oldu. Əsrlər boyu mədəniyyətlərin, sivilizasiyaların mərkəzi kimi tanınan Azərbaycan daim təşəbbüsçüsü və iştirakçısı olduğu layihələrlə, tədbirlərlə ölkələr, xalqlar arasında dostluq körpüsü olduğunu təsdiqləyir.

**"Biz əlbəttə iqtisadi müstəvidə də transformasiyaya çox böyük önəm vermişik və veririk. Ona görə də iqtisadi sahəni inkişaf etdirmədən və güclü iqtisadiyyat qurmadan siyasi islahatlar mümkün deyildir. Ona görə də biz islahatları paralel olaraq həm siyasi, həm iqtisadi müstəvidə apardıq. Siyasi və iqtisadi islahatlar bir-birini dəstəkləmişdir və bugünkü Azərbaycan onu göstərir ki, biz düzgün yolu seçdik və düzgün işlər görürük"** söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, son on beş ildə ölkəmizdə inkişaf yüksələn xətlə davam edir. Bu dinamika beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkəmizin gücünü, qüdrətini göstərir.

Keçilən yola qısa baxış fonunda bu reallığı da qeyd etməliyik ki, uğurlarımızda Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyasının öz payı vardır. Milli Konstitusiyamızın qəbulundan ötən 23 il ərzində ölkəmizdə keçirilən bütün seçkilərdə uğur qazanan Yeni Azərbaycan Partiyası daim qələbələrini təmin etməklə xalqın partiyası olduğunu təsdiqləyir. 2018-ci il də ölkəmizin tarixinə prezident seçkiləri ili kimi daxil olub. Son 15 ildə Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin dəfələrlə qələbəsini təmin etməsi Heydər Əliyev siyasətinin təntənəsidir. Bu gün sıralarında 700 mindən artıq insanı birləşdirən Yeni Azərbaycan Partiyasının hər bir üzvü Heydər Əliyev ideyalarının təbliğatçısıdır. Ümummilli lider Heydər Əliyevin **"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"** tezisi bütün dövrlər üçün aktuallığını qoruyur, işıqlı sabahımıza böyük inam formalaşdırır. Dahi şəxsiyyətin bu fikrinin davamı olaraq cənab İlham Əliyev bildirir ki, Yeni Azərbaycan Partiyası nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatıdır. YAP yarandığı gündən tutduğu yola sadiqlik nümayiş etdirməklə milyonların dəstəyini qazanıb. Dövlətimizin daha da qüdrətlənməsi, insanların daha da yaxşı yaşaması üçün səylərini artıran partiyanın gələcəyinə inam böyükdür. Yeni Azərbaycan Partiyası bütün seçki proseslərinə yeni şüarla qatılır, davamlı inkişafın prioritet məsələ olduğunu devizində əks etdirir. 2018-ci il prezident seçkilərində "İlhamla irəli" çağırışını edən Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyev növbəti qələbəsi ilə qarşıdakı 7 ilin hədəflərinin reallığa çevrilməsinə zəmin yaratdı. Bu hədəflər sırasında Azərbaycanda dayanıqlı iqtisadiyyatın qurulmasının tam təmin olunması, iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsi, xarici investisiyaların stimullaşdırılması məqsədilə azad iqtisadi zonaların yaradılması, regionlarda müasir və əməktutumlu müəssisələrin yaradılması, yeni iş yerlərinin açılması, müasir infrastrukturun yaradılması üzrə tədbirlərin davam etdirilməsi yer alır. Bundan başqa, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması, əhalinin sosial müdafiəsi sisteminin mütərəqqi dünya təcrübəsi əsasında daha da təkmilləşdirilməsi, icbari sığortanın əhatə dairəsinin genişləndirilməsi, idarəetmə sahəsində islahatların davam etdirilməsi də qarşıda duran hədəflərdəndir. Ən əsası, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, dünya enerji təhlükəsizliyi sistemində Azərbaycanın mövqeyinin gücləndirilməsi, ölkəmizin beynəlxalq multikultural, mədəni, humanitar və idman sahələrini əhatə edən tədbirlərin bundan sonra da uğurla həyata keçirilməsi, işğal altında olan ərazilərimizin azad edilməsi üçün bütün səylərin artırılması kimi məsələlər strateji hədəflər kimi müəyyənləşdirilib.

Dövlətimizin başçısı İlham Əliyev bildirir: **"Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının bir parçasıdır. Bütün Azərbaycan xalqının xoşbəxt gələcəyi üçün bizim partiyamız əlindən gələni əsirgəmir və biz bundan sonra da bunu edəcəyik".**

Bir yazı çərçivəsində müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərini əhatə etmək qeyri-mümkündür. Ulu öndər Heydər Əliyev ümumbəşəri şəxsiyyətdir. O, bütün bəşəriyyət üçün çalışıb. Bu kontekstdən yanaşsaq, silsilə yazıların məcmusu yaranar.

Bugünkü qüdrətli Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin şah əsəridir. Məhz inkaredilməz olan bu reallıqlara söykənərək dahi şəxsiyyət Heydər Əliyev bildirmişdir: **"Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"**

# Azərbaycan xalqı Heydər Əliyev ideyalarından, Heydər Əliyev dühasından əbədi bəhrələnəcəkdir

*12 dekabr Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günüdür. Ulu öndər Heydər Əliyev həm SSRİ dövründə, həm də müstəqillik illərində respublikamıza rəhbərliyi zamanı xalqımız və dövlətimiz qarşısında Azərbaycanın yüksəlişi və tərəqqisini təmin edən misilsiz xidmətlər göstərmişdir. Xalqımız müasir müstəqil Azərbaycanın memarı və qurucusu olan Ulu öndər Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir.*

*Ümummilli lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətləri ilə bağlı sualları Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov cavablandırır. Qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin etimad göstərdiyi şəxslərdən biri olan Süleyman İsmayılov 1992-1994-cü illərdə Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində mütəxəssis, baş mütəxəssis-müavin, eləcə də 1994-1996-cı illərdə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Ümumi şöbəsində Ümumi sektorun müdiri vəzifələrində çalışmış, 1996-cı ildə Ümummilli lider Heydər Əliyevin imzaladığı Sərəncamla Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri təyin edilmişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov www.yap.org.az saytına müsahibəsində Ulu öndər Heydər Əliyev ilə bağlı xatirələri və təəssüratlarını bölüşüb, eləcə də Ümummilli liderin ölkəmizə rəhbərliyi dövründə həyata keçirilən siyasətin real nəticələrindən, müasir müstəqil Azərbaycanın inkişafına və tərəqqisinə xidmət edən işlərdən və əldə edilən nailiyyətlərdən bəhs edib.*





**- Süleyman müəllim, 12 dekabr müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli lider Heydər Əliyevin anım günüdür. Siz Ulu öndərin etimad göstərdiyi, Onunla birlikdə çalışmış şəxslərdənsiniz. Ulu öndərlə görüşləriniz xatirənizdə hansı izlər buraxıb?**

- Bu il unudulmaz rəhbərin dünyasını dəyişməsindən 15 il keçir və dekabrın 12-də yenə də xalqımız bu böyük şəxsiyyətin 15-ci anım gününü böyük ehtiramla qeyd edəcəkdir.

Heydər Əliyev şəxsiyyətinə bələd olan, Onunla ünsiyyətdə olan elə bir insan yoxdur ki, Ondan nə isə öyrənməsin, nə isə götürməsin və bu gün də atdığı hər bir addıma Onun gözü ilə qiymət verməsin, hər bir fakta Onun prizmasından yanaşmasın. Ulu öndərin insanların qəlbində buraxdığı izlər o qədər dərindir ki, onları unutmaq, sadəcə olaraq, mümkün deyildir.

Taleyin qisməti elə gətirib ki, Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışından sonrakı illərdə Onunla ünsiyyətdə olmaq, gündəlik fəaliyyətimdə Onun tapşırıqlarını yerinə yetirmək xoşbəxtliyi mənə də nəsib olub. Onunla bütün görüşlərim xatirəmdə silinməz izlər buraxıb və onlar heç vaxt unudula bilməz.

1991-ci ildə Ulu öndər Heydər Əliyev respublikaya qayıdıb Naxçıvan Muxtar Respublikasına rəhbərlik etməyə başladıqdan sonra Naxçıvanda yaşayan insanlarda öz taleyinə və sabahına bir inam yarandı, çünki Heydər Əliyev artıq onlarla birlikdə idi. Hamı Onun şəxsiyyətinə, təcrübəsinə, bacarığına inanır və Onun, nə olur-olsun, bir xilas yolu tapacağını bilirdi.

O dövrdə Naxçıvan, həqiqətən, son dərəcə ağır duruma salınmışdı. Blokada şəraitində olan muxtar respublikanın vəziyyətini həm də ozamankı ölkə rəhbərliyinin soyuq və qərəzli münasibəti mürəkkəbləşdirirdi. Məhz o çətin dövrdə, 1992-ci ilin fevralında Ulu öndərin təşəbbüsü ilə Bakıda Naxçıvan MR-in Daimi Nümayəndəliyi yaradıldı. O qədər də isti qarşılanmayan bu təşəbbüs muxtar respublikanın həyatında böyük hadisəyə çevrildi və onun informasiya blokadasından qurtulmasında böyük rol oynadı.

Həmin vaxt Naxçıvan Ali Məclisinin Sədri olan Heydər Əliyevlə görüşərkən mənə Naxçıvan Muxtar Respublikasının Bakıdakı Nümayəndəliyində işləməyi tövsiyə edəndə, təbiidir ki, bu etimada görə çox sevindim. Heydər Əliyev bizə Bakıda muxtar respublikanın bir növ informasiya blokadasından qurtulması üçün görüləcək işlərin, bunun üçün müvafiq dövlət qurumları, həmçinin kütləvi informasiya vasitələri ilə əlaqələr qurmağın vacibliyini göstərərək hər bir məsələ barəsində məlumat verməyi tapşırmışdı. O zaman gördüyümüz işlərin nə dərəcədə vacib olduğunu illər keçdikcə daha yaxından dərk edir və bununla, sözün həqiqi mənasında, qürur duyur, fəxr edir və sevinirəm.

Böyük rəhbər haqqında danışarkən bu gün bir daha Onunla ilk görüşlərimi, ilk söhbətlərimi xatırlayır, bu insanın nə qədər böyük bir vətənpərvər olduğunu, Azərbaycan üçün hətta canından keçməyə hazır olduğunu, bu Vətəni qorumaq, onu yaşatmaq, ucaltmaq üçün hər bir fədakarlığa hazır olduğunu, bununla da ətrafındakı hər bir insanı ümumi məqsədlər naminə səfərbər etmək istedadını vurğulamağı özümə borc bilirəm.

Mən burada əvvəlcə o zaman Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan Muxtar Respublikasının Bakıdakı Nümayəndəliyində işlədiyim günlərdən söz açmaq istərdim.

O vaxt respublika Nazirlər Kabinetinin binasında yerləşən Nümayəndəliyin ştatı 13-14 nəfərdən ibarət idi. Çox təəssüf ki, bu Nümayəndəliyə soyuq münasibət bəsləyən respublika rəhbərliyi onun işinə kömək əvəzinə, ancaq maneçilik törədirdi. Nazirlər Kabineti aparatının binasında bir çox otaqların boş olmasına baxmayaraq, bizə yuxarı mərtəbədə, ucqar bir guşədə cəmi 2 otaq ayrılmışdı. Onların birində daimi nümayəndənin özü, digər otaqda isə qalan işçilər oturmalı idi və əslində, cəmi 5 nəfər işləyə bilirdi. Həmin 5 nəfərin şəraiti dözülməz idi. Balaca kabinetdə cəmi iki masa və iki stul vardı, ona görə əməkdaşlardan biri stul arxasında əyləşəndə, o biri məcbur idi dəhlizdə gözləsin görək nə vaxt yer boşalacaq. Bir sözlə, iş şəraiti o qədər də qibtə doğuracaq halda deyildi. Biz Nazirlər Kabinetinin yeməkxanasında nahar edən vaxt çoxları bizə çəp-çəp baxırdı. Belə vəziyyətdə işləmək çox ağır idi.

Hər şey olurdu. Mənə deyilənə görə, telefonlarımız dinlənilirdi. Pənah Hüseynov baş nazir olanda bizim daim izlənməyimiz, kimin kimlə danışmasına göz qoyulması haqda göstəriş vermişdi. Nazirlər Kabinetinin işçiləri yanımızdan keçir, bizimlə salamlaşmırdılar. Mən elə adamlar tanıyırdım ki, vaxtilə Heydər Əliyevlə işləmiş, Onun dəstəyi sayəsində "böyümüşdülər", amma onlar da qorxurdular, yanımızdan elə keçirdilər, sanki, biz canlı insanlar deyil, kölgələr idik. Onlar dəhlizdə və ya liftdə təsadüfən bizimlə qarşılaşanda salamlaşmazdan əvvəl yan-yörələrinə baxırdılar, görsünlər yaxınlıqda kim var. Yəni hökumətdən heç bir köməyimiz yox idi, faktiki olaraq, biz Bakıda da blokadada idik.

İnformasiyanı əldə etmək çox çətin idi. 1993-cü il fevral, ya mart ayında mən yenə Naxçıvanda oldum və Heydər Əliyevlə yenidən görüşdüm. Onda O, mənim qarşımda belə bir məsələ qoydu: "Bundan sonra sən Naxçıvanda baş verən hadisələr, mənim keçirdiyim tədbirlər, görüşlər haqqında məlumatlar alacaqsan və onu Bakıdakı mətbuat orqanlarında yayacaqsan". Heydər Əliyev Naxçıvan Ali Məclisinin mətbuat xidmətinə tapşırdı ki, Özünün bütün görüşləri, danışıqları, Ali Məclisin ən mühüm qərarları haqqında mənə müvafiq məlumatlar və materiallar göndərilməsini təmin etsin. Mən həmin məlumatları Bakıda, respublika KİV-lərində yaymalı idim. O zaman indiki kimi nə internet şəbəkəsi var idi, nə də digər elektron rabitə vasitələri. Hər şey köhnə və bərbad vəziyyətdə olan sovet rabitə sistemi ilə, necə deyərlər, "dədə-baba qaydası ilə" yerinə yetirilirdi. Hər bir məktub, məlumat təyyarə ilə Naxçıvana gedib-gələn insanlar vasitəsilə çatdırılırdı. Onda mən xüsusi albom ayırmışdım, Bakıda qəzetlərdə dərc etdirməyə müvəffəq olduğum bütün materialları həmin alboma yığırdım.

Bəzən mühüm materiallar olanda Heydər Əliyev Özü zəng edir, lazımi tapşırıqlarını verir və bizim işimizlə müntəzəm maraqlanırdı. Onun tapşırıqları mənim üçün həm şərəf, həm də böyük məsuliyyət idi. Mən materialları bütün qəzetlərə daşıyırdım, sözün həqiqi mənasında, KİV-lərin "kandarını dağıdırdım".

Dövlət mətbuat orqanları çox vaxt mənim onlara təqdim etdiyim materialları qəbul etmirdilər, bizim xəbərləri dərc etməyə qorxurdular. Mətbuatda Naxçıvan haqqında hansısa bir informasiya çıxması bizim üçün əsl bayrama çevrilirdi.

Yadımdadır, mən Heydər Əliyevin Fransa səfiri ilə görüşü haqqında informasiyanı AZƏRTAC-a apardım, Şamil Şahməmmədovla görüşdüm. O, materialı oxuyub dedi: "Mən bunu dövlət qəzetlərində buraxa bilmərəm". O, məndən min dəfə üzr istədi, dedi ki, Heydər Əliyevə böyük hörməti var, amma bunu edə bilməz, "mümkünsə, bunları özəl qəzetlərdə dərc etdirin".

Bizim materiallar əksər hallarda qeyri-hökumət qəzetlərində dərc edilirdi. O vaxtkı "Səs", "Səhər", "Aydınlıq" və başqa qəzetlərdən kəsdiyim parçaları indiyə qədər öz şəxsi arxivimdə saxlayıram. Yadımdadır, mən bütün qəzetləri - həm yerli, həm də Moskvada çıxan qəzetləri alır, Heydər Əliyevə haqqında yazılanları həmisını, hətta cəmi bir neçə sətirlik materialları da səliqə ilə kəsib qovluğa yığırdım.

Biz daha çox Naxçıvana iqtisadi yardım göstərilməsini təşkil etməyə çalışırdıq. Məsələn, yanacaqla dolu sisternlərin maşınlarla daşınmasını təşkil edir, müxtəlif dövlət təşkilatlarının Naxçıvana kömək göstərmələri üçün bacardığımızı əsirgəmirdik. Naxçıvandan gələn məmurların nazirliklərlə əlaqə yaratmalarına kömək göstərir, nəyəsə nail olurduq. Amma bu, böyük çətinliklə başa gəlirdi. O vaxt Naxçıvana çox qəribə münasibət yaranmışdı, elə bil bu, Azərbaycan ərazisi deyildi və orada baş verən hadisələr Bakıda heç bir maraq doğurmurdu.

O zaman hakimiyyətdə olan adamlar Heydər Əliyevi blokadada saxlamaq, xalqın nəzərində Onun nüfuzunu aşağı salmaq üçün göstəriş verirdilər ki, Naxçıvanla bağlı hər hansı məsələ həll edilməsin, qoy insanlar düşünsünlər ki, guya Onun əlindən heç nə gəlmir, yalnız respublika rəhbərliyi ilə münaqişə yaradır. Yəni Heydər Əliyevin ətrafında süni narazılıq atmosferi yaratmağa çalışırdılar. Bu adamların səylərinə rəğmən, xalqın öz lideri ətrafında daha sıx birləşməsi onları əsəbiləşdirirdi.

Ozamankı Azərbaycan rəhbərliyi tərəfindən hamıya ciddi göstəriş verilmişdi ki, Naxçıvana kömək göstərilməsin. Respublikanın rəhbərləri düşünmürdülər ki, onlar Naxçıvanı, ümumiyyətlə, itirə bilərlər. O zaman ölkəyə intellektual və siyasi səviyyəsi bu cür aşağı olan insanlar rəhbərlik edirdilər.

Sözsüz, onlar bizi hər vasitə ilə təcrid etməyə çalışırdılar. Bir dəfə Pənah Hüseynov bizim otaqlara, sözün həqiqi mənasında, hücum çəkib qışqırdı: "Bunlar nə üçün burada otururlar? Casusdurlar, məlumat toplayıb, Naxçıvana ötürürlər". Sonra o, tabeliyində olanlara tərəf çevrilib əmr etdi: "Bunları buradan çıxartmaq barədə fikirləşin". Bəli, bizə münasibət çox sərt idi. Əgər "cəbhəçilər" bir az da qalsaydılar, bizim nümayəndəliyi bağlayacaqdılar.

Biz öz daxili istəyimizlə, səmimi qəlbdən Heydər Əliyevə, Naxçıvana necəsə kömək etmək arzusu ilə işləyirdik. O zaman mən heç fikrimə də gətirməzdim ki, Heydər Əliyev nə vaxtsa Prezident olacaq. İşin mahiyyəti ondan ibarət idi ki, O Özü də bunu istəmirdi. Heydər Əliyev yalnız respublika çıxılmaz vəziyyətə düşəndə xalqın tələbi ilə rəhbərliyə qayıtdı.

Bizə yaxşı münasibət bəsləyənlər az da olsa vardı, onlar bizi qəhrəman adlandırırdılar. Biz özümüzü qəhrəman saymırdıq, belə hesab edirdik ki, Heydər Əliyevə və blokadada olan Muxtar Respublikaya kömək etmək bizim borcumuzdur.

Bir məsələni qeyd etməliyəm ki, günlər keçdikcə ətrafımızdakı buzlar əriyir, respublikada yaranmış vəziyyət Heydər Əliyevin Bakıya qayıdışını günün, zamanın tələbinə çevirirdi. Bunu hamı dərk edir, Azərbaycanın xilasının yalnız Ulu öndərin gəlişində olduğunu başa düşürdü.

Bəli, əlaqələrimiz intensivləşmişdi. Çox adam bizdən onların Heydər Əliyevlə görüşünü təşkil etməyimizi xahiş edirdi. Aralarında tanınmış, hörmətli adamlar çox idi. Bu insanlar vəziyyəti görür, ovaxtkı rəhbərliyin ölkəni haraya sürüklədiyini başa düşürdülər. O dövrdə Naxçıvana getmək çətin idi, buna görə də adamlar Heydər Əliyevlə hansı yollasa əlaqə yaratmaq üçün bizim yanımıza gəlirdilər. Belə müraciətlərin sayı getdikcə artırdı.

Hökumət nümayəndələrinin də bizə münasibəti dəyişdi. Məmurlar tez-tez bizim otaqlara gəlməyə başladılar, onlar Heydər Əliyevin planları ilə səmimi maraqlanırdılar. Hətta bu adamların üzləri də dəyişmişdi. Onların hər biri öz xidmətləri barədə nə isə danışmağa, bu xidmətləri Heydər Əliyevə xatırlatmağa çalışırdı.

Sonrasını özünüz bilirsiniz: Heydər Əliyev xalqın tələbi ilə, ovaxtkı rəhbərliyin xahişi ilə gəlib ölkəyə rəhbərlik etdi.

Danışıqlarımıza, söhbətlərimizə əsasən Onun təxminən nə vaxt gələcəyini bilirdik. Odur ki, Onu aeroportda qarşıladıq, özü də təyyarə trapının yanında. Bu qarşılanma mərasimi bütün təfərrüatı ilə yadımdadır, çox səmimi və yaddaqalan bir tədbir alınmışdı.

Heydər Əliyevin gəlişi xalqın ürəyindən idi və bu ümidlər Onun böyük iradəsi, yorulmaz fəaliyyəti və qətiyyəti sayəsində tədricən reallığa çevrilməyə başladı.

**- Ümummilli liderin vətəndaşlarla ünsiyyət saxlamasına, xüsusilə regionlarda və Bakı şəhərində keçirilən ictimai-siyasi tədbirlərdə Ona şəxsən təqdim edilən müraciətlərə yanaşmasına dair, eləcə də sənədlərlə işə göstərdiyi diqqət barədə nə söyləyə bilərsiniz?**

- Mən bu böyük şəxsiyyətin rəhbərliyi altında işlədiyim son 10 ildə isə Onun nə qədər həssas, nizam-intizamlı, səliqəli, diqqətli, tələbkar, eyni zamanda, son dərəcə qayğıkeş bir insan olduğuna tam əmin oldum. Mən Prezidentin İcra Aparatının o zaman Ümumi şöbəsinin, indi isə Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri olduğuma görə sənədlərlə işə Onun göstərdiyi diqqət və tələbkarlıqdan xüsusilə danışmaq istərdim. Ulu öndərin bir dövlət xadimi və aparat işinin mahir bilicisi kimi bu sahədə o qədər zəngin təcrübəsi vardı ki, ən xırda detalları belə dərhal tutur, sənədin daxil olan kimi ona çatdırılmasından tutmuş onun necə işlənməsinə qədər hər şeyə diqqət yetirir, baxdığı, imzaladığı hər bir sənədin dərhal icraçıya verilməsini tələb edirdi.

Heydər Əliyev Prezidentin İcra Aparatında elə bir qayda qoymuş, elə bir nizam-intizam yaratmış və mənə qəti tapşırmışdı ki, Onun imzaladığı sənəd İcra Aparatı daxilində 10 dəqiqə, kənar təşkilatlara isə uzağı yarım saat ərzində çatdırılmalı idi. Həmin vaxt bitən kimi vacib sənədlər barədə dərhal müvafiq şəxslərə zəng vurar, sənədi alıb-almadığını soruşar, Öz tövsiyələrini verər və görüləcək tədbirləri müəyyənləşdirərdi. Bunu hamımız bilir, hər kəs bu prinsiplərə ciddi riayət etməyi özünün ən vacib vəzifəsi hesab edirdi.

Digər vacib bir məsələni də mütləq qeyd etməliyəm. Bilirsiniz ki, "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" sözlərini xüsusi bir qürurla səsləndirən Heydər Əliyev hələ sovet dönəmində, 1978-ci ildə Azərbaycanın yeni Konstitusiyası qəbul edilərkən digər sovet respublikalarından fərqli olaraq Azərbaycan dilini Konstitusiyada dövlət dili kimi təsbit etmişdi. Ulu öndərin Azərbaycan dilinin inkişafı və daha geniş tətbiqi üçün gördüyü tədbirlər müstəqillik illərində daha böyük vüsət aldı. Heydər Əliyevin bu barədə imzaladığı çoxsaylı qanun, Fərman və sərəncamlar Azərbaycan dilinin inkişafında bu gün də böyük rol oynayır və onlar öz əhəmiyyətini heç vaxt itirməyəcəkdir. Ancaq Ulu öndərin Azərbaycan dilinin də böyük bilicisi olduğunu Onunla təmasda olarkən daha yaxından hiss edirdim.

Bir dəfə hansısa Fərmanda gedən redaktə və çap xarakterli xəta ilə əlaqədar qəzetə düzəliş verilmişdi. Həmin düzəlişi görüb dərhal məndən bunun səbəbini soruşmuş, belə faktlar barədə daha geniş məlumat istəmiş və operativ surətdə İcra Aparatının struktur bölmələri rəhbərlərinə tapşırmışdı ki, Ona imzaya verilən bütün sənədləri mütləq dil və üslub cəhətdən dərindən yoxlasınlar və nəzərə alsınlar ki, belə sənədlərdə Ümumi şöbənin də vizasının olması vacibdir.

Heydər Əliyevin vətəndaşlarla ünsiyyət saxlamasını, xüsusilə regionlarda və Bakı şəhərində keçirilən ictimai-siyasi tədbirlərdə Ona şəxsən təqdim edilən müraciətlərə xüsusi diqqətlə yanaşmasını da ayrıca qeyd etmək lazımdır. Bunun özü də Ümummilli liderin idarəçilik məktəbini öyrənmək baxımından çox əhəmiyyətlidir. Ulu öndər Ona yaxınlaşmaq istəyən sadə insanlarla ünsiyyətdən çəkinmir, Öz qayğı və problemləri barədə bilavasitə Ona müraciət etmələrinə şərait yaradır, bununla da sanki cəmiyyətin nəbzini tutmağa çalışır və yerlərdə real vəziyyəti təkcə məmurların dilindən deyil, həm də sıravi insanların dilindən eşidir, öyrənirdi. Belə müraciətlərə böyük həssaslıqla yanaşan Heydər Əliyev Ona çatdırılan ərizələri Öz əli ilə nömrələyir, onların siyahısının, baxılması barədə alınmış cavabların nəticələri haqqında məlumatların Ona verilməsini tələb edirdi. Əhali ilə görüşlərində onların müraciətlərini bilavasitə Özü qəbul edir, onları narahat edən problemləri ətraflı öyrənir, hər birinə mümkün olan köməyi əsirgəmir, lazım olan hər şeyi edirdi.

**- Ulu öndərin iş üslubunun əsas xüsusiyyətləri ilə bağlı müşahidələriniz və fikirləriniz nədən ibarətdir?**

- Ulu öndərin iş üslubu haqqında danışmaq heç də asan deyildir. Bu, böyük müşahidə və qarşılıqlı ünsiyyət şəraitində öyrənilən bir məsələ olduğu üçün mən yalnız zahiri müşahidələrimi bölüşə bilərəm. Onun iş üslubunun əsas cəhətlərindən biri, mənim fikrimcə, verdiyi tapşırıqların icrasını axıradək izləməsi və bu sahədə heç bir güzəştə yol verməməsi, başladığı hər bir işi mütləq sona çatdırmağa nail olması idi. Fenomenal yaddaş sahibi olan Heydər Əliyev heç vaxt verdiyi tapşırıqları, Ona verilən məlumatları unutmur, keçirdiyi toplantı və müşavirələrin, xüsusilə Təhlükəsizlik Şurasının iclaslarının stenoqramlarını diqqətlə oxuyur, bəzi hallarda Öz qeyd və təkliflərini bildirirdi.

Bir qayda olaraq, hər bir müşavirə və iclasdan sonra şöbə tərəfindən müvafiq qurumlara verilmiş tapşırıqlar ümumiləşdirilir, fərdi məktublarla həmin qurumlara göndərilir və konkret müddətlər göstərilməklə cavab tələb olunur, alınmış cavablar barədə Ümummilli liderə vaxtaşırı məlumatlar təqdim olunurdu. Bu məlumatları diqqətlə oxumaqla yanaşı, bəzi vacib məsələlər barədə tapşırıq verilən qurumların rəhbərlərindən və digər kanallardan əlavə məlumatlar da alırdı. Yəni hamı bilirdi ki, Heydər Əliyev verdiyi heç bir tapşırığı unutmur və Onun diqqətindən heç nə yayınmır.

**- Azərbaycan bu gün Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Bu barədə nə deyə bilərsiniz?**

- Ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik ənənələrinə sadiqlik, milli mənafeləri hər şeydən üstün tutmaq prinsipləri bugünkü Azərbaycan dövlətinin qurulmasında və möhkəmləndirilməsində əsas rol oynamışdır və həmin prinsiplərə bu gün də ciddi əməl olunur.

İllər, qərinələr, əsrlər ötəcək, Azərbaycan xalqı öz xilaskarını heç vaxt unutmayacaq. Heydər Əliyev ideyalarını uğurla həyata keçirən hörmətli Prezidentimiz İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, soydaşlarımız doğma yurdlarına qayıdacaq, Azərbaycan dövləti daim regionun aparıcı dövləti olaraq qalacaq, xalqımız Heydər Əliyev ideyalarından, Heydər Əliyev dühasından əbədi bəhrələnəcəkdir.

# Ulu öndər Heydər Əliyev xalqımızın və dövlətimizin gələcəyi naminə misilsiz xidmətlər göstərib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb.



AMEA-nın prezidenti, akademik Akif Əlizadə Ulu öndər Heydər Əliyevin XX əsrin Azərbaycana, xalqımıza, dünyaya bəxş etdiyi ən böyük vətəndaş, dahi şəxsiyyət, müdrik siyasi xadim, əbədi lider olduğunu vurğulayıb, Ümummilli liderin respublikamızın gələcəyi naminə göstərdiyi böyük fəaliyyətin nəticələrinin zaman keçdikcə daha aydın göründüyünü söyləyib. Qeyd edib ki, bu fəaliyyət xalqın gələcəyi üçün uzaqgörənliklə düşünülüb, ən yüksək dəyərlər səviyyəsində qiymətləndirilib və milli inkişafın strateji proqramı kimi qəbul olunub.



***Akif Əlizadə:***
*Müasir Azərbaycanın hər bir sahəsində Ulu öndər Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünür*

Akademik bildirib ki, müasir Azərbaycanın hər bir sahəsində Ulu öndər Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünür və bu istiqamətlər sırasında elm sahəsinin xüsusi yeri var. A.Əlizadə söyləyib ki, həm sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə Ümummilli lider Heydər Əliyevin elm siyasəti milli quruculuq siyasətinin əsas istiqamətlərindən birini təşkil edib: **"Bütün fəaliyyəti xalqa xidmət nümunəsi olan Ulu öndər Heydər Əliyev Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərib. Elmə belə həssas münasibətin bütün respublika miqyasında yaratdığı intellektual atmosferdə elm və mədəniyyət xadimləri elmi potensialın qorunması, inkişaf etdirilməsi işinin milli dövlət quruculuğundakı əhəmiyyətini daha dərindən anlayıb, Ulu öndərin verdiyi mənəvi stimul alimlərimizi yeni-yeni elmi nailiyyətlərə ruhlandırıb".**

Akademik A.Əlizadə Ümummilli liderin sovet hakimiyyəti illərində həyata keçirdiyi elm siyasətinin nəticəsi olaraq qazanılan nailiyyətlərin Onun Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkəmizin sosial-iqtisadi inkişafının əsas dayaqları olduğunu vurğulayıb. Bildirib ki, bu gün AMEA-nın tarixinə nəzər salarkən bu elm məbədinin xalqımızın tarixi taleyində necə mühüm rol oynadığının bir daha şahidi oluruq: **"Akademiyanın inkişafının böyük bir mərhələsi Ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Akademiyada Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, dilinin, milli mənəvi dəyərlərinin tədqiqi istiqamətindəki araşdırmaların aparılmasında Heydər Əliyevin uzaqgörən siyasəti mühüm rol oynayıb".**

1969-cu ildə Ümummilli liderin hakimiyyətə gəldiyi zaman Azərbaycanın aqrar bir respublika olduğunu diqqətə çatdıran akademik həmin dövrdə ölkəmizdə yeni mərhələnin başlandığını bildirib. Onun sözlərinə görə, elmin strateji əhəmiyyətini düzgün qiymətləndirən Ulu öndərin elm və texnologiya sahəsinin inkişafına xüsusi diqqəti nəticəsində ötən əsrin 70-ci illərində Azərbaycanda riyaziyyat elmi, kimya, neft emalı və neft-kimya sənayesi sürətlə inkişaf edib, astronomiya, kosmik tədqiqatlar sahəsində də bir sıra mühüm nailiyyətlərə imza atılıb.

AMEA-nın prezidenti həmçinin deyib ki, Ulu öndər Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoyub. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilib, hər il xaricə 800 tələbə yola salınıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətlərindən danışan AMEA prezidenti Ulu öndərin müstəqillik illərində yenidən hakimiyyətə gəlişindən sonra bu sahədə növbəti inkişaf mərhələsinin başlandığını, geniş islahatların aparıldığını diqqətə çatdırıb.



***Məlahət İbrahimqızı:***
*Ulu öndər Heydər Əliyev böyük tarixi şəxsiyyətdir*

A.Əlizadə Ulu öndər Heydər Əliyevin daim alimlərimizin, ziyalılarımızın əməyini yüksək qiymətləndirdiyini söyləyib. O qeyd edib ki, bu gün Prezident İlham Əliyev Ulu öndərimizin elm siyasətini uğurla davam etdirir.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar isə bildirib ki, Ümummilli lider Heydər Əliyev haqqında danışarkən bir məqamı qeyd etməmək mümkün deyil: **"Şəxsiyyətlərin miqyası, bir tərəfdən, onların öz zamanlarında gördükləri işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin, həyata keçirdiklərinin əhəmiyyəti ilə, əhatəsi ilə, təsir dairəsi ilə ölçülürsə, digər tərəfdən, bu fəaliyyətin tarixdə əks-sədasıyla, uzun illər, dövrlər müddətində hadisələrin gedişatını yönəltməsi ilə müəyyənləşir. Hər iki meyarla Heydər Əliyev - tarixi şəxsiyyətdir. Bu danılmaz həqiqəti kimsə inkar edə bilməz. Bu gün dünya miqyasında tanınmış siyasi xadim olan Heydər Əliyev Azərbaycanın geniş siyasi meydanına 1969-cu ildə çıxdı. Mərkəzi Komitənin birinci katibi seçiləndən sonra ilk vaxtlar çox adamın üzdən tanımadığı Heydər Əliyev şəhəri gəzir, qanunsuzluqları, əliəyrilikləri, pozuntuları Özü Öz gözləriylə əyani şəkildə müşahidə edir və yerindəcə günahkarların cəzasını verirdi. Belə faktlar da əhalidə yeni ədalətli rəhbərin iş başına gəlməsi və hər cür ədalətsizliklərin kökünü kəsəcəyi haqqında fikirlərin geniş yayılmasına səbəb olurdu. Bu üsul, təbii ki, ən qısa bir müddətdə davam edə bilərdi, çünki tezliklə respublikanın yeni rəhbərini hamı üzdən də tanımağa başladı və Heydər Əliyev qanun pozuntularına qarşı mübarizəsini başqa, daha geniş miqyasla davam etdirdi".**



***Anar:***
*Biz yazıçılar Ulu öndər Heydər Əliyevdən həmişə xoş münasibət görürdük*

Xalq yazıçısı qeyd edib ki, sovet dövründə Heydər Əliyev Azərbaycanda böyük quruculuq işləri həyata keçirdi, respublikamızın siması əhəmiyyətli dərəcədə dəyişdi: **"Bilirsiniz ki, O, rəhbər seçilənə qədər Azərbaycan keçmiş ittifaq respublikaları arasında ən geridə qalanlardan biri idi. Amma Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan hərtərəfli inkişaf etdi. Onun hakimiyyəti illərində xalqın özünüdərki, milli şüurun oyanışı baxımından da mühüm nəticələr əldə olundu. Ulu öndərimiz müstəqilliyimizin dönməzliyini təmin etdi. Heydər Əliyev Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi".**

**"Mən Ümummilli lider Heydər Əliyevi ilk dəfə sovet dövründə komsomolun qurultayında görmüşəm, Onun iştirak etdiyi həmin qurultayda çıxış etmişdim. Sonra isə dəfələrlə görüşmüşük. O, Moskvada işləyəndə də görüşmüşük, vəzifədən istefa verəndən sonra da əlaqələrimiz olub. Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri olanda da Onunla Naxçıvanda görüşmüşəm. Eləcə də müstəqillik illərində Heydər Əliyev dövlət başçısı olarkən dəfələrlə görüşümüz olub. Heydər Əliyev xarici səfərlərə gedəndə yazıçıları da aparırdı və mən də Onun bir neçə səfərində iştirak etmişəm",** - deyən AYB-nin sədri Ulu öndər Heydər Əliyevə müraciətlərinin həmişə müsbət cavablandığını söyləyib. Onun sözlərinə görə, müstəqillik illərində Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra AYB, onun qəzet və jurnalları dövlət büdcəsi hesabına maliyyələşdirildi: **"Çünki ədəbi jurnal və qəzetlər olmadan ədəbiyyat inkişaf edə bilməz. Heydər Əliyevin bu qayğısı Azərbaycan ədəbiyyatının xilası idi. Eləcə də yazıçıların yubiley tədbirləri olanda, təşkilatımızın qurultaylarında Ulu öndər Heydər Əliyevə müraciət edirdik və həmişə Ondan xoş münasibət görürdük".**

**"Ulu öndər Heydər Əliyev yeni Azərbaycanın əsasını qoydu. Bu gün müstəqil dövlətimiz möhkəm təməllər üzərində qurulub. Yəni müasir müstəqil Azərbaycan dövləti Ulu öndər Heydər Əliyevin zəhmətinin bəhrəsidir. Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, həqiqətən, Heydər Əliyev xalqımızın əbədi milli sərvətidir.**

**2003-cü ildən keçən zaman ərzində cərəyan edən proseslər, Azərbaycanın Heydər Əliyev yolu ilə gedərək yeni-yeni uğurlar əldə etməsi dahi şəxsiyyətin bütün digər məsələlər kimi, siyasi varislik məsələsində də yanılmadığını sübuta yetirdi. Hörmətli Prezidentimiz İlham Əliyev Ulu öndərimizin layiqli davamçısıdır. O cümlədən Prezidentimizin ədəbiyyata diqqətini də hiss edirik. O, yaradıcı təşkilatlara hər zaman qayğı göstərir. Bəzən cahil fikirlər səslənir ki, AYB, yaradıcılıq təşkilatları nəyə lazımdır. Bunlara yaxşı cavablardan biri də dövlət başçısının Azərbaycan Yazıçılar Birliyinin fəaliyyətinə verdiyi yüksək qiymətdir",** - deyə AYB sədri vurğulayıb.

**"Ulu öndər Heydər Əliyev böyük tarixi şəxsiyyətdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev xalqımızın və dövlətimizin gələcəyi naminə misilsiz xidmətlər göstərib".** Bu fikirləri isə YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. M.İbrahimqızı bildirib ki, Ulu öndər Heydər Əliyev hələ Sovet İttifaqının tərkibində respublikamızda rəhbər vəzifələrdə çalışdığı dönəmlərdə belə Azərbaycanın və azərbaycanlıların gələcəyini düşünüb və bu günümüz üçün böyük işlərin, layihələrin əsasını qoyub. Onun sözlərinə görə, ölkəmiz ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra düşdüyü çətin vəziyyətlərdən məhz Ulu öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində xilas olub: **"Azərbaycanda elə bir sahə yoxdur ki, Ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmasın, çox hallarda da O, bu işlərin qurucusu və yaradıcısıdır. Heydər Əliyev irsi bizim üçün və gələcək nəsillər üçün zəngin xəzinədir, vətəninə, xalqına, dövlətinə xidmət nümunəsidir. Mən də belə bir böyük şəxsiyyətin zamanında yaşamağıma və Onun məktəbindən dərs aldığıma görə özümü hədsiz dərəcədə xoşbəxt hiss edir, mənim üçün yazılmış bu alın yazıma görə Yaradanıma sonsuz şükürlər edirəm".**

**"Zəngin mədəniyyəti, milli dəyərləri və zəngin sərvətləri olan xalqımız əslində həm şöhrətli bir xalqdır. Azərbaycan xalqı tarix boyu məşhur dövlət xadimləri yetişdirmiş xalqlardan olmaqla, XX əsrdə dünya siyasətində həm Sovetlər Birliyində, həm də müstəqillik illərində çox tanınan siyasətçi və görkəmli dövlət adamı, müasir müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev kimi şəxsiyyət yetirən bir xalqdır",** - deyən millət vəkili əlavə edib ki, müasir müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu Ulu öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilib. Heydər Əliyevin polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaz xidməti, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulub. Məhz Onun müəyyənləşdirdiyi inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirə bilib, zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olub.

**"Tarixi şəxsiyyət o zaman dahi öndər, lider olur ki, o, özünün atdığı imza ilə xalqının adından imza atmış olsun",** - deyən M.İbrahimqızı bildirib ki, Heydər Əliyev təkcə müstəqilliyin əldə olunmasını əsas şərt hesab etmirdi. O, müstəqilliyin əbədiliyinə zəmanət olacaq addımlar haqqında fikirləşirdi.

**"Dövlətimizin sağlam, sarsılmaz təməllər üzərində bərqərar olmasının əsası da o dövrlərdə qoyulub. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab Prezident İlham Əliyevin praqmatik siyasəti ilə ölkəmiz daha da yüksək inkişaf xətti ilə irəli gedir",** - deyə YAP Siyasi Şurasının üzvü qeyd edib.

**Nardar BAYRAMLI**

# Heydər Əliyev bütün zamanların ən böyük dövlət xadimlərindən biri, Azərbaycan xalqının Ulu öndəridir



Vəfatından sonra xalqın yaddaşında əbədi qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Ümummilli lider Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan Öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

AZƏRTAC Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlunun qeydlərini təqdim edir.

Azərbaycan xalqının böyük oğlu, müstəqil dövlətimizin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, ölkəmizdə milli özünüdərk prosesinin öndəri və idarəedicisi Ümummilli lider Heydər Əliyev dövlətçilik tariximizdə elə böyük yeniliklərə imza atıb ki, sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər sovet xalqları müstəvisində, istərsə də Şərqi Avropadan tutmuş Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir.

### HEYDƏR ƏLİYEV ERASI MÜXTƏLİF SOSİAL, İQTİSADİ VƏ İDEOLOJİ QATLARDAN İBARƏTDİR

Biz Ulu öndərin fəaliyyətinə, Azərbaycan xalqı qarşısında xidmətlərinə nəzər saldıqda görəcəyik ki, dediyimiz bu era ayrı-ayrı qatlardan və mərhələlərdən ibarətdir. Bu qatların və mərhələlərin hər biri Azərbaycan xalqının tarixində ayrıca səhifədir. Ən əsası odur ki, bu səhifələr Azərbaycan xalqının və dövlətinin inkişafını özündə ehtiva edən, onu stimullaşdıran səhifələrdir. Əlbəttə ki, Ulu öndərin hakimiyyətinin ikinci dövrü Onun SSRİ rəhbərliyinə aparılması ilə bağlıdır. Bu dövrdə də yenə Azərbaycan daim Ulu öndərin diqqətində olmaqla respublikamızın inkişafı başlıca məsələ kimi SSRİ rəhbərliyinin diqqət mərkəzində dururdu. Nəhayət, Ulu öndərin sonrakı mərhələdəki fəaliyyəti Onu artıq müstəqil bir dövlətin, müstəqil bir xalqın lideri kimi səciyyələndirməyə imkan verir. Genetik olaraq, liderlik keyfiyyətlərinə və yüksək xarizmaya sahib olan Heydər Əliyev heç kəsin proqnozlaşdıra bilməyəcəyi proseslər baş verərkən XX əsrin sonlarında bunları proqnozlaşdırmağı, həmçinin Öz yeri və mövqeyini bu proseslərin içində müəyyənləşdirməyi dəqiqliklə bacarırdı. Eyni zamanda, Onun qəbul etdiyi şəxsi qərarlar, bir növ, Azərbaycan xalqının siyasi qərarlarına çevrilirdi. Ən əsası isə bu qərarlar uzaqgörən və məqsədyönlü, konkret hədəfə doğru istiqamətlənmiş olduğu üçün bizim ümummilli yolumuzu işıqlandıran mayaka çevrildi.

### HEYDƏR ƏLİYEV DÖVLƏTİN SİYASİ VƏ İDEOLOJİ VARİSLİYİNİ TƏMİN ETDİ

Ulu öndər elə böyük dövlət və siyasi xadimlərdən idi ki, dövlətçiliyin siyasi-ideoloji əsaslarını yaratmaqla bərabər, eyni zamanda, onun varisliyini də təmin etdi. Hər hansı bir dövlətin var olması üçün mütləq ideoloji-siyasi varislik lazımdır. Əgər bu olmasa, dövlət bir nüfuza, liderə, bir fiziki şəxsə bağlı olduqda o şəxsin fiziki-bioloji mövcudluğu bitdikdən sonra dövlətin də ömrü bitir. Məhz bunu bilən Ümummilli lider dövlətçiliyimizin siyasi-ideoloji varisliyini də təmin etmiş oldu.

Biz tarixi şəxsiyyət Heydər Əliyev üçün çoxlu titullar deyə bilərik. Ümummilli lider, Ulu öndər, Azərbaycan Respublikasının siyasi rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, müstəqil Azərbaycan Respublikasının Prezidenti və s. Bunlar, əlbəttə ki, hamısı bir titul, bir vəzifədir. Amma Heydər Əliyev şəxsiyyəti bütün bunların hamısının fövqündə durur. Yəni, bu, bir həqiqətdir ki, bütün bu vəzifələrdən və titullardan Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün istifadə etdi. O, bir millət mücahidi, xalq mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı vəzifə borcu etmişdi. Prezidentlikdən tutmuş qalan digər titul və vəzifələr isə Onun üçün, məhz bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və vasitə idi. Ona görə də Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daim hörmətlə anılacaq. Xalqımız var olduqca O da yaşayacaq.

# Ukraynalı deputat: Müasir Azərbaycan tarixinin bütöv bir epoxası Heydər Əliyevin adı ilə bağlıdır

Azərbaycanın bugünkü uğurlarının böyük bir hissəsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

AZƏRTAC xəbər verir ki, bu fikri Kiyevdə Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan diasporu" mövzusunda keçirilən konfransda Ukrayna Ali Radasının deputatı Xviça Meparişvili söyləyib.

Deputatın sözlərinə görə, müasir Azərbaycan tarixinin bütöv bir epoxası, önəmli bir mərhələsi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.



X.Meparişvili bildirib ki, görkəmli dövlət və siyasi xadim Heydər Əliyev ölkəyə rəhbərliyinin hələ birinci dövründə Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaradıb, müstəqilliyin təminatı üçün möhkəm bünövrə qoyub. Qeyd edib ki, Ulu öndər müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi xalqın qəlbində özünə əbədi heykəl ucaldıb.

Deputat vurğulayıb ki, hələ SSRİ dövründə vəzifədə olan Heydər Əliyev Ukrayna, Gürcüstan və digər dövlətlər üçün misilsiz xidmət göstərib.

# Azərbaycan xalqı Ümummilli lider Heydər Əliyevin xatirəsini daim öz qəlbində yaşadacaq



*Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov www.yap.org.az saytına müsahibə verib:*

**- Hüseynbala müəllim, dünya tarixinə nəzər saldıqda xalqların və dövlətlərin taleyində lider fenomeninin və liderlik faktorunun çox mühüm yerə malik olduğunu görürük. Bu baxımdan, Azərbaycanın dövlətçilik tarixində lider fenomeninin yeri, o cümlədən bu kontekstdə Ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında tarixi əhəmiyyətə malik olan misilsiz xidmətləri barədə nə deyə bilərsiniz?**

- Tarixin müxtəlif dövrlərində liderlər ayrı-ayrı millətlərin, xalqların və bəzən bütün bəşəriyyətin tarixində dönüşə səbəb olmuş tarixi şəxsiyyətlər qismində çıxış ediblər. Ümumiyyətlə, liderlik xüsusi istedaddır və o, heç də siyasətin hər bir subyektində olmur. Yalnız müstəqil düşüncəsi, parlaq zəkası olan və kütlənin marağını ifadə edən şəxsiyyət lider ola bilər. Tarix boyu liderlərin müxtəlif xalqların ictimai-siyasi taleyində oynadığı rola, dövlətlərin dünyanın siyasi xəritəsində və beynəlxalq münasibətlər sistemində yeri və roluna həlledici təsirinə dair çoxsaylı nümunələr mövcuddur. Bu mənada, Azərbaycanın da siyasi və dövlətçilik tarixində lider fenomeninin, liderlik faktorunun rolu və təsiri istisna deyil.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev nəinki xalqımız, bütövlükdə türk dünyası üçün əvəzsiz bir fenomendir. Ulu öndər XX əsrin bağrından qopan, Tanrının Azərbaycana bəxş etdiyi düha, yeni, müstəqil Azərbaycanın memarı və qurucusudur. Dahi şəxsiyyətin ölkəmizin ən yeni tarixində, bütövlükdə Azərbaycanın dövlətçilik tarixində yeri və roluna nəzər salarkən Onun respublikamıza rəhbərlik etdiyi dövrlərdə gördüyü misilsiz işlərin, altına imza atdığı möhtəşəm nailiyyətlərin əhəmiyyətinə xüsusi diqqət yetirmək lazımdır. Ulu öndərin 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycanın sıçrayışlı inkişafının, intibah və yüksəlişinin, bütün sahələri əhatə edən tərəqqinin əsası qoyuldu, respublikamız SSRİ miqyasında inkişaf göstəricilərinə görə ön sıralarda yer tutmağa başladı. Bu, dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən, məqsədyönlü siyasətinin real nəticəsi idi. Ulu öndər həmçinin milli təəssübkeşlik və güclü vətənpərvərlik hissləri ilə, azərbaycançılıq ideyası əsasında milli mənəvi dəyərlərin qorunması və inkişafına xidmət edən mühüm addımlar atdı, eləcə də respublikamızın inkişafı naminə kadr hazırlığı məsələsinə xüsusi diqqət yetirdi. Yəni Ulu öndərin həmin dövrdə gördüyü genişmiqyaslı işlər dərin məzmuna və böyük əhəmiyyətə malikdir.

Müstəqillik dövründə isə Ümummilli lider Heydər Əliyev Azərbaycanı parçalanmaq, məhv olmaq təhlükəsindən, xaos və anarxiyadan xilas edərək inkişaf yoluna çıxardı. Buna görə də haqlı olaraq Ulu öndər müstəqil Azərbaycanın memarı və qurucusu, Azərbaycan xalqının Ümummilli lideri adlandırılır. Bilirsiniz ki, müstəqilliyin ilk iki ilində, yəni 1991-1993-cü illərdə Azərbaycanda hərc-mərclik hökm sürürdü, bütün sahələrdə getdikcə dərinləşən tənəzzülün fonunda ölkə iflasa düçar olmuşdu. O zaman hakimiyyətdə olan qüvvələr isə xaos və tənəzzülü aradan qaldırmaq gücünə, iradəsinə malik deyildilər. Azərbaycan xalqının yeganə ümidi məhz zəngin dövlətçilik təcrübəsinə malik olan, dövlətimizin mənafeyini hər şeydən üstün tutan dahi şəxsiyyət Heydər Əliyevə idi. Məhz xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə gələn Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sabitlik təmin olundu, inkişafın əsası qoyuldu. Bütün sahələrdə ardıcıl, səmərəli, gələcəyə hesablanmış misilsiz işlər görüldü, Azərbaycanın çoxşaxəli və uğurlu beynəlxalq əlaqələri formalaşdırıldı, respublikamızın ikitərəfli və çoxtərəfli münasibətləri inkişaf etdirildi, dünya siyasi arenasında mövqeyi möhkəmləndi. Beləliklə, Ümummilli lider Heydər Əliyev güclü-qüdrətli bir məmləkəti - müasir müstəqil Azərbaycanı yenidən qurdu. O, Öz adını əbədiyyətə və Azərbaycan tarixinə xilaskar kimi həkk etdi. Azərbaycan xalqı Ümummilli lider Heydər Əliyevin xatirəsini daim öz qəlbində yaşadacaq.

**- Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə dair çoxsaylı elmi və bədii-publisistik əsərlər yazılıb. Siz də bu cür əsərlər ərsəyə gətirən şəxslərdən birisiniz. Ümummilli liderin zəngin irsinin təbliği və öyrənilməsinin əhəmiyyəti barədə düşüncələriniz nədən ibarətdir?**

- Heydər Əliyev irsi indiki və gələcək nəsillər üçün zəngin mənəvi xəzinədir, çünki bu irs özündə vətənə, xalqa və dövlətə xidmət nümunəsini əks etdirir. Ümumiyyətlə, təkcə Azərbaycanda deyil, xarici ölkələrdə belə diqqətlə öyrənilən Heydər Əliyev idarəçiliyinin möcüzəsi onda idi ki, O, parçalanmaq həddində olan, vətəndaş müharibəsi ilə üz-üzə qalan Azərbaycanda xalqın arzusunda olduğu müstəqil milli dövlətçiliyin əsasını qoydu, onu möhkəmləndirərək əzəmət verdi, ölkəni təhdid edən vətəndaş müharibəsinin, qardaş qırğınının qarşısını aldı, sabitliyi təmin etdi, Azərbaycanı tərəqqi yoluna çıxardı.

Bütün bunların fonunda Heydər Əliyev irsinin təbliği və dərindən öyrənilməsi böyük əhəmiyyətə malikdir, zəruridir. Ulu öndərin zəngin irsinin geniş miqyasda təbliği və öyrənilməsi üçün çoxsaylı əsərlər yazılıb, müxtəlif dillərə tərcümə olunub. Mənim də Ulu öndər Heydər Əliyev haqqında kitablarım çap olunub. "İşığın izi ilə", "Bir günəş var", "Həqiqət", "Millətin atası" belə əsərlərdəndir. Bundan başqa, Moskvanın "Molodaya qvardiya" nəşriyyatının "Görkəmli adamların həyatı" seriyasından həmmüəllifi olduğum "Heydər Əliyev" trilogiyası çap olunub. Bu kitabı Viktor Andriyanov adlı rus yazıçı ilə birlikdə ərsəyə gətirmişik. Kitabın ilk buraxılışı 2005-ci ildə olub. Kitabın IV nəşri də artıq çapdan çıxıb. Qeyd edim ki, bu kitab dünyanın 47 dilinə tərcümə olunub.

**- Müasir müstəqil Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsində Azərbaycan uğurla inkişaf edir, ölkəmizin beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir. Azərbaycanın bugünkü və gələcək mənzərəsi necə görünür?**

- Ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri Özündən sonra layiqli varis yetişdirməsidir. Onun layiqli varisi olan Prezident İlham Əliyev yüksək xarizmaya və liderlik istedadına malik olan, xalqın, dövlətin mənafelərini hər şeydən üstün tutan şəxsiyyətdir. Ulu öndərin əsasını qoyduğu siyasəti layiqincə və uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, həyata keçirilən daxili və xarici siyasət kursu Azərbaycanı güclü-qüdrətli dövlətə çevirib, respublikamızın qarşısında yeni inkişaf üfüqləri açılıb. Bu gün Azərbaycan xalqı öz dövləti ilə qürur duyur, çünki müstəqil respublikamızın üçrəngli bayrağı ən yüksək zirvələrdə dalğalanır, qazanılan nailiyyətlər ölkəmizin öz inkişafını inamla davam etdirməsini təmin edir. Eyni zamanda, Azərbaycanın beynəlxalq müstəvidə söz və nüfuz sahibi olması böyük qürur və iftixar yaradır.

Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin layiqli varisi olan cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan xalqının böyük etimadı əsasında Prezident seçildikdən sonra insanları bəyan etdiyi bəşəri məqsəd və dəyərlər ətrafında birləşdirdi, milli maraqlarımızın qorunmasına xidmət edən siyasəti uğurla həyata keçirdi. XXI əsrin ilk onilliyində ölkənin sosial-iqtisadi inkişafının yeni hədəflərini müəyyənləşdirən Dövlət proqramları işlənib hazırlandı və həyata keçirilməyə başlandı. Gənc müstəqil dövlətin qısa zamanda qazandığı uğurlar, eyni zamanda, beynəlxalq aləmdə yüksək qiymətləndirildi. Azərbaycan böyük bir inkişafa, iqtisadi sıçrayışa nail oldu. İnsan kapitalının keyfiyyətcə yüksək inkişafı təmin edildi, cəmiyyətin yüksək sosial rifahını təmin edən rəqabətqabiliyyətli yeni sosial-iqtisadi model yaradıldı, bütün sahələri əhatə edən çoxşaxəli islahatlar müvəffəqiyyətlə reallaşdırıldı.

Bu gün Azərbaycan dinamik inkişafını uğurla davam etdirir, yeni zirvələr fəth edərək tarixi nailiyyətlər qazanır. Respublikamız beynəlxalq miqyasda demokratik, hüquqi və sosial dövlət kimi tanınır. Ümummilli lider Heydər Əliyevin dövlətçilik təcrübəsi və zəngin siyasi irsi əsasında, müasir çağırışlara və reallıqlara uyğun olaraq davam etdirilən inkişaf siyasəti Azərbaycanın gələcəyinin də parlaq və uğurlu olacağına əminlik yaradır. Hər bir azərbaycanlının Prezidenti olan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daim zirvələrdə olacaq, yeni uğurlar qazanaraq öz qüdrətini daha da artıracaq.

# Əbədiyaşar Şəxsiyyət



**Rəşad MAHMUDOV,**
**millət vəkili**

Əgər məndən yeni Azərbaycan tarixində ən böyük şəxsiyyətlər arasından birini seçməyi xahiş etsəydilər, elə birinci Heydər Əliyevi seçərdim. Ona görə ki, xalqımız və müasir dövlətçiliyimiz öz varlığına görə bu böyük şəxsiyyətə borcludur. Heydər Əliyev mənim üçün başqa səbəblərə görə də nadir bir şəxsiyyət və fövqəlinsandır. O, mənim üçün tükənməz bilik və təcrübə mənbəyidir, Onu heç kimlə müqayisə edə bilmirəm - sadəcə, bunu deyə bilərəm: dünyaya ikinci bir Heydər Əliyev gəlməyəcək...

Tarix hər zaman sübut edib ki, o şəxsiyyət əbədiyaşar ömür qazanır ki, öz nümunəsi ilə xalqı gözəl, nəcib, faydalı və işıqlı işlərin ardınca apara bilir və bilib. Xalqın bütün arzu və istəkləri, gücü, enerjisi, fikir və düşüncələri də bu cür şəxsiyyətin, parlaq dühanın özündə cəmləşir. Belə şəxsiyyətlər həm tarix üçün, həm də əbədiyyət üçün yaşayır, yaradır, qurur və həyatdan köçürlər. Belə şəxsiyyətlər bir də ona görə ölməzlik qazanırlar ki, onların əməllərindən, yaratdıqlarından nəsillər, millətlər, xalqlar bəhrələnirlər, fayda götürürlər. Onların həyat və fəaliyyətinə baxanda bir daha əmin olursan ki, bu şəxsiyyətlərin ömür səhifələrinin hər birində yeni-yeni üfüqlər var, hələ heç kimin görmədiyi, duymadığı, anlaya bilmədiyi ənginliklər, yeni-yeni ulduzlar sayrışır. Onları təzədən kəşf etmək də böyük səadətdir, gözəl duyğudur. Bax, mənim üçün Ulu öndərimiz Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Onun ömür yolunu öyrəndikcə, gördüyü işlərə dərindən nüfuz etdikcə anlayırsan ki, bizim nə böyük dühamız, nə böyük öndərimiz olub!

Heydər Əliyev bizim istiqlalımızın bizə ən böyük hədiyyəsi idi. O həm siyasətçi, həm dövlət xadimi, həm də SSRİ dövründə Sovet İttifaqının ən nüfuzlu və dəyərli liderlərindən biri idi və Allah Onu məhz ən ağır dövrdə - müstəqilliyimizin başının üstünü qara buludlar aldığı bir dövrdə bizə ikinci dəfə göndərdi, Azərbaycan xilas edildi, dövlətçiliyimiz, müstəqilliyimiz xilas edildi. O zamanlar biz yeni dövrün siyasi və inzibati havasının gərginliyi, həm də son dərəcə dramatik vəziyyət alması fonunda Heydər Əliyevin daha bir simasını - təkcə uzaqgörən siyasətçi və dövlət xadimi, böyük şəxsiyyət və insan olmasını deyil, həm də müstəsna şəxsiyyət olaraq Öndər, Örnək kimi gördük və tanıdıq. Sovet dönəmində baş verən siyasi proseslər, 90-cı illərin əvvəllərindən ayaq götürən qatma-qarışıq, qanlı-qadalı, faciəli, sonu bəlli olmayan hadisələr burulğanı sübut elədi ki, Heydər Əliyevsiz Azərbaycanın sabit və rahat həyata qayıtması mümkün deyil. O hadisələr sübut elədi ki, Heydər Əliyevsiz Azərbaycan dövlətinin yaşaması, müstəqilliyimizin əbədi olması mümkün deyil! Biz bu prosesləri yaşamışıq və görmüşük! Xalq əsrlərlə qazandığı mənəvi-əxlaqi dəyərləri də itirə bilərdi! Amma Heydər Əliyev buna imkan vermədi. Ulu öndər həm də buna görə əbədiyaşar ömür qazandı.

Ulu öndər adını qazanmaq hər şəxsiyyətə nəsib olmur, amma Heydər Əliyevə nəsib oldu. Mən çox xoşbəxtəm ki, Onunla bir dövrdə yaşamışam, Onun zəngin ömrünün son illərində Onu görmüşəm, Onu yaxından müşahidə etmişəm, canlı olaraq nitqinə, söhbətlərinə qulaq asmışam, Ondan öyrənmək, bəhrələnmək imkanı əldə etmişəm.

12 dekabr 2003-cü il bizim yeni tariximizin ən kədərli günü və bəlkə də, ən qürurlu günümüz oldu: həmin gün milyonlarla insan öz rəhbərini son mənzilə yola salırdı, sevimli liderlərini çiyinlərində Fəxri Xiyabana aparırdı. O, son mənzilə də öndə gedirdi - milyonların önündə. Ona əbədiyaşar ömrü də bu xalq vermişdi, çünki O, bütün həyatı boyu bu xalqın önünə, bu millətin qabağına düşüb onun arzu-istəklərini yerinə yetirmişdi, onu birləşdirməyə çalışmışdı. Xalq "Heydər!" deyirdi, Ulu öndər Heydər Əliyev isə son nəfəsinədək "Xalq!" demişdi və həmin gün xalq yenə "Heydər!" deyirdi, qəhrəman oğlunu əbədiyyətə yola salırdı. Qürur doğuracaq kədər də bu idi! Hələ dünyanın heç bir ölkəsində belə bir vidalaşma olmayıb!

Bu gün qürurla demək olar: Azərbaycan tarixinin ən parlaq səhifələrini Heydər Əliyevin yaratdıqları tutur. Azərbaycanın ən yeni tarixində Ulu öndərimizin adı və möhürü əbədi olaraq qalacaq. Buna heç kimin şübhəsi olmasın. Onun yarım əsrdən də çox bir müddət ərzində Azərbaycana, onun dövlətçilik ideallarına xidmət göstərməsi Onu tariximizin ayrılmaz bir parçasına çevirib. Təkcə elə bu fakt kifayətdir ki, Heydər Əliyev şəxsiyyətinin nəhəngliyini, Onun ömür yolunun zənginliyini, tariximizdəki yeri və çəkisini biləsən, qiymətləndirəsən.

Bütün həyatını ölkəmizin çiçəklənməsinə həsr etmiş Ulu öndərimiz səhiyyə sahəsinə - xalqımızın sağlamlıq məsələlərinə də taleyüklü məsələ kimi yanaşıb. O, səhiyyənin cəmiyyət və dövlətin həyatında ən vacib sahə olduğunu deyirdi. **"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".** Göründüyü kimi, Ulu öndər həyatımızın digər sahələri ilə yanaşı, səhiyyə sisteminin də yenidən qurulmasını, yeni tibb müəssisələrinin yaradılmasını, ölkədə sağlamlıq zonaları və istirahət evlərinin tikilməsini, mövcud səhiyyə ocaqlarının profilinin genişləndirilməsini önə çəkirdi. Hələ ötən əsrin 70-ci illərindən də Azərbaycanın ucqar rayonlarında ixtisaslı həkimlər - kardioloq, onkoloq, ginekoloq, nevropatoloq, sanitar həkim və epidemioloqlar yetərli deyildi. İnsanlar müalicə üçün kənddən şəhərə axışırdılar. Heydər Əliyev hələ o zamandan bu sahəyə diqqət artırmağa başladı, tibb profilli ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun sayını artırdı, kənddən gələn abituriyentlər üçün güzəştlər tətbiq etdi. Beləliklə, bu və ya digər tədbirlər bölgələrdə fəaliyyət göstərən səhiyyə müəssisələrində kadr çatışmazlığının aradan qaldırılmasına səbəb oldu... Bu misalların sayını nə qədər desən artırmaq olar.

Müstəqillik dövründə Ulu öndərimiz Azərbaycan səhiyyəsinin inkişafı üçün daha önəmli işlər görmüşdür. Səhiyyə sahəsindəki genişmiqyaslı islahatların sayəsində ölkəmizdə tibb elmi, tibb təhsili və bu sistemin digər sahələri yüksək hazırlıqlı milli kadrlarla təmin edilmiş, əhalinin sağlamlığı sahəsində irəliləyişlər əldə olunmuşdur. Bütün bunlar Ulu öndərimizin rəhbərliyi ilə görülən ardıcıl, məqsədyönlü, sistemli və kompleks xarakterli tədbirlərin nəticəsində qazanılıb və indi də uğurla davam etdirilir. Ulu öndərimizin bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görüldü, islahatlar aparıldı. İlk növbədə səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması daim diqqət mərkəzində saxlanılırdı. Bu məqsədlə ölkədə səhiyyənin qanunvericilik bazasını gücləndirən bir sıra qanunlar, o cümlədən "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında", "Tibbi sığorta haqqında" və s. qanunlar işlənib hazırlandı və Milli Məclis tərəfindən qəbul edildi. Azərbaycan ərazisində QİÇS və vərəm xəstəliklərinin yayılmasının qarşısını almaq üçün milli proqramlar işlənib hazırlandı. Ulu öndərin Azərbaycan səhiyyəsi sahəsində xidmətlərindən danışarkən səhiyyə islahatları proqramının hazırlanması və icrasını xüsusi qeyd etmək olar. Onun "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 13 mart 1998-ci il tarixli Sərəncamı səhiyyənin bütün sahələrini əhatə edən islahatların daha geniş miqyasda və sürətlə aparılması üçün şərait yaratdı. Məhz Onun iradəsi və əzmi sayəsində ölkədə yeni səhiyyə sisteminin qurulması mümkün oldu, maddi-texniki bazası gücləndi. Hazırda qürurla deyə bilərəm ki, Azərbaycan tibb müəssisələri bir çox hallarda dünyanın qabaqcıl tibb ocaqlarından geri qalmır, bəzi hallarda isə onları üstələyir də...

Göründüyü kimi, Ulu öndərimizin əsasını qoyduğu səhiyyə strategiyası bu gün də uğurla davam etdirilir, əhalinin sağlamlığı və sosial rifahı yüksəlir, tibb sahəsində yeni-yeni nanotexnologiyalı, yüksək innovasiyalı müalicə-diaqnostika müəssisələrinin sayı və yüksəkixtisaslı tibbi personalının xüsusi çəkisi durmadan artır...

Biz xoşbəxtik ki, bəxtimizə Heydər Əliyev kimi müdrik və uzaqgörən lider düşdü və bu gün Onun həyat və fəaliyyəti nəsillərimiz üçün örnəkdir. Hələ bundan sonra gələn neçə nəsillər bu böyük şəxsiyyətin qətiyyətli, yenilikçi, müdrik və uzaqgörən islahat və proqramlarının əsl mahiyyətini daha dolğun açacaqlar. Onun siyasi-iqtisadi və mədəni həyatımızın bütün sahələrindəki islahatları, diplomatiya, etiket, davranış, mədəniyyət, dil, səhiyyə, idman, ədəbiyyat və incəsənət... sahəsindəki dərin bilikləri, özünəməxsus məziyyətləri hələ bundan sonra da öyrənilməlidir.

Mən bir həqiqətə də qəti inanıram: Heydər Əliyevin gördüyü nəhəng işlər, siyasi-iqtisadi və mədəni həyatımızın bütün sahələrinin sağlamlaşdırılmasında və düzgün istiqamətləndirilməsində apardığı islahatlar Onun Öndər və Lider kimi təkrarsız şəxsiyyət olmasını sübut edir. O, bütöv bir Universitet idi və Onun kimi fitri istedad sahibləri bundan sonra yüz il də dünyaya gəlsələr, Onun zəngin Universitet dünyasına çata bilməyəcəklər, Onun ömür yolunu yaşaya bilməyəcəklər.

Ulu öndərimizin həyat və fəaliyyəti nə nağıl, nə də əfsanədir - bunlar həqiqətlər və gerçəkliklərdir. Bunlar bizim dünənimiz, bu günümüz və gələcəyimizin unudulmaz və əbədiyaşar parçalarıdır.

# Dmitri Kiselyov: Heydər Əliyev Rusiya ilə Azərbaycan arasında strateji münasibətlərin qurulmasına mühüm töhfə verib

Rusiya-Azərbaycan münasibətləri təkcə Qafqazda deyil, daha geniş regionda da sülh amilidir.

AZƏRTAC xəbər verir ki, bu barədə "Rossiya seqodnya" beynəlxalq informasiya agentliyinin baş direktoru, Ümumrusiya Dövlət Televiziya və Radioyayımı Şirkətinin baş direktorunun müavini, populyar televiziya aparıcısı Dmitri Kiselyov "Vestnik Kavkaza"nın müxbiri ilə müsahibəsində bildirib.



**"Hazırda Rusiya-Azərbaycan münasibətləri təkcə Qafqazda deyil, daha geniş regionda da sülh amilidir. Məsələn, Azərbaycan Rusiya və İran arasında xüsusi vasitəçi qismində, hətta bizim üçtərəfli layihələrdə tərəfdaş kimi də tam uğurla iştirak edir",** - deyə D.Kiselyov bildirib.

Rusiyalı jurnalist xüsusi vurğulayıb ki, Azərbaycanın Ümummilli lideri Heydər Əliyev Rusiya ilə Azərbaycan arasında müasir qarşılıqlı faydalı strateji münasibətlərin qurulmasına mühüm töhfə verib. **"Mənə elə gəlir ki, O, əlaqələrin sağlam bünövrəsini qoyub. Heydər Əliyevin ideyası Rusiya-Azərbaycan-İran münasibətləri üçbucağını qurmaqdan ibarət idi. Bu, olduqca balanslaşdırılmış üçbucaq oldu və onun sayəsində Rusiya-Azərbaycan münasibətləri Xəzər dənizində nizama salma amili oldu",** - deyə jurnalist vurğulayıb.

**"Prezident İlham Əliyev bu istiqamətdə Öz atasının siyasi xəttini davam etdirir. Azərbaycan olduqca sürətlə inkişaf edir, beynəlxalq arenada özünü inamlı hiss edir, ölkə daxilində isə sabit və balanslaşdırılmış cəmiyyət mövcuddur. Hesab edirəm ki, bu, hazırkı iqtidarın böyük xidmətidir",** - deyə Dmitri Kiselyov qeyd edib.

# Ukraynada Ulu öndər Heydər Əliyevin xatirəsi anılıb

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Kiyevdə "Heydər Əliyev və Azərbaycan diasporu" mövzusunda konfrans keçirilib. Komitədən qəzetimizə verilən məlumata görə, Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən konfransda Dövlət Komitəsinin, Azərbaycanın Ukraynadakı səfirliyinin nümayəndələri, bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının təmsilçiləri iştirak ediblər. İştirakçılar əvvəlcə Heydər Əliyev adına parkda Ulu öndərin heykəli önünə tər çiçəklər düzüb, Ümummilli liderin əziz xatirəsini ehtiramla yad ediblər.




Konfransda çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Daşqın Rəcəbli Azərbaycanla Ukrayna arasında iqtisadi, siyasi, elmi və mədəni əlaqələrin möhkəm əsaslar üzərində qurulmasında Ümummilli lider Heydər Əliyevin misilsiz rolu olduğunu vurğulayıb. O, Ulu öndərin keçdiyi tarixi yoldan danışıb. Bildirib ki, o dövrlər hakimiyyət uğrunda mübarizə getdiyi bir zamanda xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı böyük bəlalardan qurtarıb. Ömrünün son gününə qədər dövlətçiliyin inkişafında əməyini əsirgəməyib. Azərbaycanda diaspor quruculuğunda Heydər Əliyevin misilsiz xidmətlərinə toxunan D.Rəcəbli qeyd edib ki, Ulu öndər bütün xarici ölkələrə səfəri zamanı mütləq diaspor təşkilatları ilə görüşüb müzakirələr aparardı. Məhz Onun səyləri nəticəsində dünyada güclü Azərbaycan diasporu formalaşıb.

Sonra Heydər Əliyev Fondu tərəfindən hazırlanan "Böyük ömrün anları" adlı film nümayiş etdirilib.

Daha sonra çıxış edən diaspor rəhbərləri Ümummilli lider Heydər Əliyevin Azərbaycan diasporunun inkişafında əvəzsiz rolundan danışıblar.

Qeyd edək ki, konfrans çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Ulu öndərin həyat və yaradıcılığına həsr olunan sərgi də nümayiş etdirilib.

MÜŞFİQƏ

# Respublika Veteranlar Təşkilatının VIII plenumu keçirilib





Dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VIII plenumu keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət nümayəndələri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq tədbirin gündəliyi barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın builki fəaliyyətinin yekunları, 2019-cu il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.

Gündəlik təsdiqləndikdən sonra Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun cari ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib. Ulu öndər Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulayıb ki, veteranların sosial müdafiəsinin gücləndirilməsi qurumun fəaliyyətinin əsas istiqamətlərindən biridir.

Təşkilatın keçirdiyi tədbirlər barədə məlumat verən C.Xəlilov bildirib ki, qurum gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların Azərbaycan dövlətinə və xalqına sədaqət ruhunda yetişmələri üçün yerli və beynəlxalq səviyyəli çoxsaylı ictimai-siyasi, mədəni-kütləvi mühüm tədbirlər təşkil edib. Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin yaradılmasının, Bakının daşnak-bolşevik işğalından azad olunmasının 100 illik, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik, Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyləri və digər tədbirlər təşkilatın mərkəzi aparatında və müxtəlif qurumlarda yüksək səviyyədə qeyd edilib. Qurumun beynəlxalq əlaqələrinin genişləndirilməsi məqsədilə MDB dövlətlərinin veteran təşkilatları ilə iş gücləndirilib. Veteranlarımız apreldə keçirilmiş Prezident seçkilərində fəal iştirak edib və özlərinin layiqli namizədi İlham Əliyevi yekdilliklə dəstəkləyiblər. İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 73-cü ildönümü ilə əlaqədar dövlət orqanlarında, ictimai təşkilatlarda, təhsil ocaqlarında, hərbi hissələrdə veteranlarla görüşlər olub.

Oktyabrda Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illik yubileyi Dünya Veteranları Federasiyasının prezidentinin iştirakı ilə təntənəli şəkildə müxtəlif tədbirlərlə qeyd edilib. Tədbirlərdə ölkəmizdə dövlətin veteranlara qayğısı, Azərbaycanın ərazilərinin 20 faizinin Ermənistan silahli qüvvələri tərəfindən işğal olunması, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanması ilə bağlı qəbul etdiyi dörd qətnamənin təcavüzkar dövlət tərəfindən yerinə yetirilməməsi barədə məlumatlar qonaqların diqqətinə çatdırılıb.

Hesabat dövründə təşkilatın Rəyasət Heyətinin iclaslarında veteranların sosial müdafiəsi məsələsi müzakirə olunub, onlara kömək göstərilib. Ötən müddətdə təşkilata veteranlardan daxil olmuş 200-dən çox müraciətlə bağlı müvafiq qurumlara məktublar göndərilib, itkin düşmüş müharibə iştirakçılarının axtarışı davam etdirilib.

Bu il də respublikanın şəhər və rayonlarında yaşayan müharibə, əmək, Silahlı Qüvvələr və hüquq-mühafizə orqanları veteranlarının sayı dəqiqləşdirilib. Məlumatlara görə, 2018-ci ilin noyabrınadək İkinci Dünya müharibəsi iştirakçılarının sayı 540 nəfərdir. Onlardan on nəfərinin yaşı 100-dən çoxdur.

Azərbaycan dövləti tərəfindən veteranlara göstərilən diqqət və qayğıdan danışan C.Xəlilov deyib ki, hər il alman faşizmi üzərində Qələbənin ildönümü ərəfəsində Prezident İlham Əliyev müharibə veteranları ilə görüşərək onların problemləri ilə maraqlanır. İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləğinin ildən-ilə artırılması, eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində imzalanmış çoxsaylı fərman və sərəncamlar bu sahəyə dövlət qayğısının bariz nümunələridir. Respublika Veteranlar Təşkilatı bu qayğını yüksək qiymətləndirir, fəaliyyətini daha səmərəli qurmağa çalışır.

Plenumda çıxış edən Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev bildirib ki, Respublika Veteranlar Təşkilatı ölkəmizin ictimai-siyasi həyatında fəallığı və səmərəli fəaliyyəti ilə seçilir, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti hərtərəfli dəstəkləyirlər.

Bu ilin ölkə həyatında bir çox mühüm hadisələrlə zəngin olduğunu vurğulayan Ə.Mehdiyev veteranlarımızın bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirdiklərini diqqətə çatdırıb. Veteranların böyük döyüş və mənalı həyat yolu keçərək zəngin təcrübə qazandıqlarını qeyd edən şöbə müdirinin müavini bildirib ki, buna görə də onlara cəmiyyətin ağsaqqalı, müdrik sözü, qəti və aydın mövqeyi olan insanlar kimi hörmət və ehtiram göstərilir. Bu baxımdan veteranların ictimai-siyasi proseslərdə rolu çox böyükdür. Onlar həmişə cəmiyyətdə öndə gedərək aydın şəkildə qəti vətəndaşlıq mövqeyi nümayiş etdirirlər. Azərbaycan dövləti də həmişə veteranlara yüksək diqqət və qayğı göstərir. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri veteranların qayğı ilə əhatə olunması, onların fəaliyyətinin təmin edilməsi üçün lazımi tədbirlərin görülməsidir. Bu gün Respublika Veteranlar Təşkilatının fəaliyyəti üçün yaradılan şərait bütün bunları aydın şəkildə sübut edir.

Bu il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileylərinin yüksək səviyyədə qeyd olunduğunu deyən Ə.Mehdiyev vurğulayıb ki, müxtəlif vaxtlarda Azərbaycan Silahlı Qüvvələrində xidmət edən veteranlarımız ordumuzun xalqımız və dövlətimiz qarşısında vəzifə borcunu yerinə yetirməsi, onun təhlükəsizliyinin qorunması, əmin-amanlığının təmin olunması işinə bu gün öz töhfələrini verirlər. Veteranlarımız indi də bu işin öhdəsindən gəlmək əzmi ilə çalışır, qarşıda duran əsas vəzifənin - işğal altındakı ərazilərimizin azad olunması istiqamətində istər orduda, istərsə də cəmiyyətdə hərbi-vətənpərvərlik ruhunun artırılması işində fəal iştirak edirlər.

Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədri Firudin Süleymanov, Şəki rayon veteranlar təşkilatının sədri Mustafa Əhmədov, Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov və digərləri hesabat dövründə görülən işlərdən danışıblar.

Çıxış edənlər, eləcə də Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov, Təşkilatın Nəzarət-Təftiş Komissiyasının sədr müavini Salman Babayev və başqaları Respublika Veteranlar Təşkilatının illik fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Natiqlər yeniyetmə və gənclərimizin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində, veteran hərəkatının inkişafında, cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıblar. Plenumun iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman dövlətin yanında olduğunu, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək Onu dəstəklədiklərini bildiriblər.

Daha sonra C.Xəlilov gündəlikdəki ikinci məsələ olan Respublika Veteranlar Təşkilatının 2019-cu il üçün tədbirlər planı barədə məlumat verib.

Plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının tədbirlər planı, habelə qurumun hesabat dövründəki fəaliyyətinin yekunları səsə qoyularaq qənaətbəxş hesab edilib.

# UNEC-də Ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə tədbir keçirilib.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, əvvəlcə tədbir iştirakçıları Ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüblər. Sonra Ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



UNEC-in rektoru, professor Ədalət Muradov qeyd edib ki, Ümummilli lider yalnız dahi siyasətçi yox, həm də müdrik iqtisadçı kimi yaddaşlarda qalıb. Rektor bildirib ki, sovet dövründə milli iqtisadiyyatın strukturunun formalaşdırılması, milli gəlirin bölüşdürülməsi zamanı Azərbaycanın maraqlarının əsas tutulması, ölkədə olduqca əhəmiyyətli sənaye müəssisələrinin yaradılması və fəaliyyətinin təmin edilməsi uğrunda apardığı mübarizə Heydər Əliyevin Azərbaycanın gələcəyini düşündüyünü göstərir.

Qeyd olunub ki, dahi rəhbər Heydər Əliyev Azərbaycanın gələcəyi baxımından xüsusi əhəmiyyət kəsb edən insan kapitalının formalaşdırılması məsələsinə böyük diqqət yetirib. Ümummilli liderin dəstəyi ilə həmin dövrlərdə təhsil almış minlərlə gənc indi də Azərbaycan naminə çalışır. Dahi şəxsiyyətin səyləri, Azərbaycanın gələcəyi üçün gördüyü işlər onu deməyə əsas verir ki, o, ölkəmizin müstəqilliyə qovuşacağına inanırdı.

Bildirilib ki, Ulu öndər Heydər Əliyev həm də dəyərli bir ailə başçısı olub. Onun siyasətini davam etdirən Prezident İlham Əliyevin ölkəmizin daha da inkişafı, rifahı və çiçəklənməsi üçün göstərdiyi səylər hər kəsi öz işinə daha böyük inamla yanaşmağa ruhlandırır.

Sonra dahi şəxsiyyətə həsr edilmiş videoçarx nümayiş olunub.

Tarix elmləri doktoru, professor Məhəbbət Paşayeva "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi tarixi faktlarla" mövzusunda məruzə ilə çıxış edərək Ulu öndərin zəngin fəaliyyəti barədə məlumat verib. "SABAH" mərkəzinin tələbəsi Jalə Rzayeva qüdrətli Azərbaycan şairi Zəlimxan Yaqubun "Əsrin Heydər tarixi" poemasını səsləndirib.

"Heydər Əliyev - dünya şöhrətli siyasi lider" mövzusunda məruzə ilə çıxış edən siyasi elmlər namizədi Leyli Həmidova Ümummilli liderin təkcə postsovet məkanında deyil, həmçinin bütün dünyada tanınmış şəxsiyyət olduğunu vurğulayıb.

# Sergey Medvedev: Heydər Əliyev mətbuat nümayəndələri ilə həmişə qeyri-rəsmi və səmimi şəraitdə işləyirdi

*Rusiyanın birinci prezidenti Boris Yeltsinin mətbuat katibi işləmiş Sergey Medvedev "Moskva-Bakı" portalına müsahibəsində Heydər Əliyevin insanlara səmimi münasibətindən və jurnalistlərlə ünsiyyət qurmaq bacarığından danışıb. AZƏRTAC müsahibənin mətnini oxuculara təqdim edir:*



- Mən Ümumittifaq radiosunda çalışırdım, sonra "Vremya" proqramına keçdim. Heydər Əliyevlə iki dəfə rastlaşmışam. Birinci dəfə, mən Onun sədrliyi ilə "Admiral Naximov" teploxodunun qəzaya uğraması ilə bağlı təhqiqatla əlaqədar keçirilən müşavirədə iştirak etdim. İkinci dəfə isə Kremldə bizim aramızda söhbət oldu. Cari məsələlərdən danışdıq. Yevgeni Primakov da bu söhbətdə iştirak edirdi. Mən hətta onların özümə marağının səbəbini başa düşmədim, çünki adi müxbir idim. Redaksiyadakı vəziyyət, nələrə həvəsimin olması, öz işimə münasibətimlə maraqlanırdılar. Bu söhbət mənə olduqca qəribə gəldi. Adətən bu cür hallar kadr məsələləri ilə bağlı baş verirdi. Mənə aid heç bir kadr məsələsi həll edilmədi. O vaxt bir jurnalist kimi siyasi xəbərlərlə məşğul idim və siyasi liderlərin fəaliyyətini diqqətlə izləyirdim.

Heydər Əlirza oğlu Əliyev, sözün əsl mənasında, nadir şəxsiyyət - milli elitanın yetirməsi idi. Onun bioqrafiyasını yaxşı bilirəm. Mənə məlumdur ki, Heydər Əliyev Azərbaycanda qalmağını xahiş edəndə, buna imkan verməyiblər və O, Moskvaya gedib.

Heydər Əliyev Kreml həyatının bütün siyasi cərəyanlarını və burada gedən oyunları çox gözəl başa düşürdü. 1985-ci ildə Qorbaçovun ölkə lideri seçilməsini dəstəkləyəndə O, Öz üzərində siyasi təzyiq hiss etdi. Sonralar məhz həmin Qorbaçovun özü tərəfindən siyasi təzyiqə məruz qaldı. Bu dəstxət mənə tanış idi, çünki mən yaxşı bilirdim ki, Qorbaçov Yeltsinin Moskva Şəhər Partiya Komitəsinin rəhbəri olduğu dövrdə həkimlərin vasitəsilə onu istefaya göndərmək üçün bu üsuldan istifadə edib. Heydər Əliyevlə də bu cür rəftar etmək istəyirdilər. Yəni Onu inandırmağa çalışırdılar ki, həmin vaxt Onun həm fiziki, həm də siyasi vəziyyəti bundan sonra gördüyü böyük işlə məşğul olmağa imkan vermir... Belə metamorfozalar yaşamış liderlərin sayı o qədər də çox deyil. Görünür, onların ikisi də daxilən buna hazır idilər. Heydər Əliyev, ümumiyyətlə, həyatında daha çox satqınlıqlar görüb...

Heydər Əliyevdə xoş təsir bağışlayan nə idi? Jurnalist korpusunun bir nümayəndəsi kimi deyim; yeri gəlmişkən, Yevgeni Primakovdan fərqli olaraq, O, heç vaxt jurnalistlərlə ünsiyyətdən boyun qaçırmağa, onlarla arasında hər hansı sədd qoymağa cəhd etmirdi. Heydər Əliyev mətbuat nümayəndələri ilə həmişə qeyri-rəsmi, səmimi şəraitdə işləyirdi.

Xalq arasına "çıxmağa" ilk dəfə Heydər Əliyev başladı. Qorbaçov yox, məhz Heydər Əliyev. Avtomobil dayanır və O, maşından düşərək vətəndaşlarla ünsiyyət qurmağa gedir. Vəcdə gəlmiş insanlar suallar verir, belə bir yüksək rəhbərə ehmalca toxuna bilirdilər. Mənə elə gəlir ki, O, bunu səmimiyyətlə edirdi. Bu, heç də gözdən pərdə asmaq üçün deyildi. Heydər Əliyev insanlarla ünsiyyəti xoşlayırdı. Bəzi görkəmli rəhbərlər, hətta yaxşıları belə, bunu xoşlamır və bacarmırlar. O isə bunu xoşlayır və bacarırdı. Xalqın həyat nəbzini tutmaq Onun üçün çox mühüm idi, beləcə O, aldığı informasiyadan bəhrələnirdi. Bir var sənə arayış, məruzə, hesabat verirlər, bir də var ki, sən özün insanların nə fikirləşdiyi, onların hansı əhval-ruhiyyədə olduğu barədə aydın təsəvvürə malik olursan. Kağız parçası onların əhval-ruhiyyəsini əks etdirə bilməz. Heydər Əliyev sanki kamerton kimi insanların psixoloji vəziyyətini hiss edirdi. Açıq görünürdü ki, O, bunu qeyri-rəsmi şəraitdə edir. Bu, Ona lazım idi.

Ola bilər ki, Heydər Əliyev ən mürəkkəb siyasi kolliziya və vəziyyətlərin, qarşıdurmaların əvvəlində həmişə qalib olmurdu. Lakin O, son nəticədə qalib gəlir və qələbəyə aparan yolu kompromislər, heç də asan olmayan qərarlarla tapa bilirdi. Heydər Əliyev siyasətçinin necə olmasını nümayiş etdirirdi. Onun müstəqil, çiçəklənən dövlət qurmaq arzusu gerçəkləşdi. Biz hazırda Azərbaycanda necə ciddi dəyişikliklərin baş verməsinin şahidiyik!

# Nikol Paşinyan öz hakimiyyətinə seçkini saxtalaşdırmaqla başladı

## *Ekspertlər hesab edirlər ki, 9 dekabr seçkiləri erməni xalqının idarəedici elitanın nə müxalif, nə də iqtidar kəsiminə etibar etmədiyini bir daha təsdiqlədi*

Məlum olduğu kimi, işğalçı Ermənistanda dekabrın 9-da növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilərin nəticələri və prosesin gedişatı bir çox məqamlara yenidən aydınlıq gətirmiş oldu. İlk növbədə qeyd edək ki, Ermənistan xalqı Serj Sarkisyan və Robert Koçaryanın cinayətkar xunta rejimini tarixin zibilliyinə atdı. Digər məqam isə ondan ibarətdir ki, Nikol Paşinyan öz hakimiyyətinə seçkini saxtalaşdırmaqla başladı. Daha doğrusu, ekspertlərin də bildirdikləri kimi, 9 dekabr seçkiləri erməni xalqının idarəedici elitanın nə müxalif, nə də iqtidar kəsiminə etibar etmədiyini bir daha təsdiqlədi. Elə bunun göstəricisidir ki, seçici fəallığı həmişə olduğundan daha aşağı idi. Bir sözlə, küçələrə axışan kütlənin təzyiqi ilə oxlokratik rejim qurmuş Nikol Paşinyan öz hakimiyyətinə legitimlik qazandıra bilmədi. Hətta ciddi saxtalaşdırmalardan, inzibati resurslardan sui-istifadədən sonra da açıqlanan rəsmi rəqəmlərə görə, seçkiyə qatılanların 60-70 faizi, yəni erməni seçicilərinin ümumi hissəsinin yalnız 30-35 faizi Paşinyan komandasına səs verib, bundan daha artıq saxtalaşdırmalar etmək mümkün olmayıb. Digər tərəfdən, ekspertlərin də vurğuladıqları kimi, seçkinin nəticəsi olaraq Ermənistanda qeyri-legitim və anti-Rusiya mövqeli bir hakimiyyət formalaşır. Paşinyan üçün qarşıda ciddi sınaqlar, mürəkkəb proseslər gözlənilir.



***Elman Nəsirov:*** *9 dekabrda keçirilən seçkilərdə ciddi qanun pozuntularının olması ilə bağlı çoxlu faktlar mövcuddur*



***Elşad Mirbəşiroğlu:*** *Ermənistanda parlament seçkilərindən sonra növbəti marionet hakimiyyət formalaşır*

Eyni zamanda vurğulandığı kimi, Ermənistandakı bu seçkilər Soros Fondu üçün də məğlubiyyət kimi dəyərləndirilməlidir. Yəni, Soros Fondu Paşinyan komandasının zəif seçki nəticələri göstərməsinin nümunəsində postsovet məkanında növbəti dəfə məğlubiyyətə uğradı. Çünki indi onun layihələri kütlələr üçün maraqlı və cəlbedici deyil.

Öz növbəsində məsələyə münasibət bildirən Milli Məclisin deputatı Elman Nəsirov deyib ki, Ermənistanda 9 dekabrda keçirilən seçkilərdə ciddi qanun pozuntularının olması ilə bağlı çoxlu faktlar mövcuddur: **"Hakimiyyətin əlindəki bütün resursları səfərbər edərək, "qalib gəldiyi" də bildirilir. Eyni zamanda, yeni parlamentdə "Çiçəklənən Ermənistan" və "İşıqlı Ermənistan" təmsil olunacaq. Gördüyünüz kimi, faktiki olaraq Ermənistanda son 20 ildə ilk dəfədir ki, Qarabağ klanı parlamentdə təmsil olunmur".**

Millət vəkili qeyd edib ki, köhnə, yəni Sarkisyan-Koçaryan erası artıq tam bitmiş sayılır. Onun fikrincə, işğalçı ölkədə çox mürəkkəb proseslər gözlənilir: **"O səbəbdən ki, indiyə qədər, yəni Sarkisyanın devrilməsindən bu seçkiyə qədərki mərhələni eyforiya dövrü adlandırmaq olardı. "Küçənin qəhrəmanına" hələ inam var idi. Bu inamın sayəsində o mer və parlament seçkilərinin nəticələrini öz xeyrinə saxtalaşdıra bildi. Lakin bundan sonrakı dövrdə Paşinyan ilk növbədə daxili iqtisadi, sosial problemləri həll etməlidir. Həmin problemlərin həlli üçün isə bu gün Ermənistanın faktiki resursları yoxdur. Ermənistana heç bir ölkə və beynəlxalq təşkilat investisiya qoymaq istəmir. Çünki bunun əhəmiyyəti və faydasının olmayacağını bilirlər. Eyni zamanda, ölkənin xarici siyasəti bu gün böhran keçirir".**

Millət vəkilinin sözlərinə görə, Paşinyan artıq ənənəvi strateji müttəfiq olan Rusiya ilə münasibətləri korlamaq xəttini seçib. Eyni zamanda, Ermənistan özünə əsas dayaq hesab etdiyi KTMT-yə üzv dövlətlərlə, xüsusilə də Qazaxıstan və Belarusla münasibətləri kifayət qədər korlayıb. Belə olan halda, həm ölkənin daxili, həm də xarici siyasəti çox ciddi problemlərlə rastlaşıb. Bu halda Paşinyanın qarşıda dayanan çox ağır vəzifələrin öhdəsindən gələ biləcəyi sual altındadır.

**"Ermənistanda dekabrın 9-da keçirilmiş növbədənkənar parlament seçkilərindən sonra bu ölkədə növbəti marionet hakimiyyət formalaşır".** Bu fikirləri isə politoloq Elşad Mirbəşiroğlu deyib. Onun sözlərinə görə, Ermənistanda parlament seçkilərinin nəticələrini öncədən asanlıqla proqnozlaşdırmaq mümkün idi. Politoloq qeyd edib ki, Nikol Paşinyan baş nazir postunu ələ keçirən gündən bir istiqamətli fəaliyyət göstərib: **"Bu istiqamət nəyin bahasına olursa-olsun, hakimiyyətini təminatlı şəkildə uzatmaqdan ibarət idi. Bəli, Paşinyanın müəyyən elektoratı var idi, lakin nəzərə almaq lazımdır ki, Ermənistanın keçmiş rəhbəri Serj Sarkisyanın yarıtmaz fəaliyyəti nəticəsində ölkədə dərin sosial-iqtisadi böhranla yanaşı, dözülməz siyasi mühit də mövcud idi. Gündən-günə Sarkisyana qarşı kütləvi narazılığın artması açıq-aydın göstərirdi ki, artıq o, hakimiyyətdə qala bilməyəcək".**

E.Mirbəşiroğlu hesab edir ki, bu baxımdan Ermənistan əhalisi uzun illər hakimiyyəti kriminal mexanizmlərin köməyi ilə əldə saxlayan Qarabağ klanına "yox" dedi. Onun sözlərinə görə, seçkiyə qədər olan dövrdə N.Paşinyan siyasi opponentlərinin sərbəst fəaliyyət imkanlarının məhdudlaşdırılması üçün bütün vasitələrdən istifadə etdi ki, bu da onun sələfindən fərqlənmədiyini sübut etdi: **"Paşinyan kütləni şantaj etməklə və hədələməklə addımbaaddım siyasi ambisiyalarını həyata keçirə bildi. 9 dekabrda seçkilər günü Ermənistanın müstəqilliyi tarixində seçici fəallığının ən aşağı səviyyədə olması da sübut etdi ki, Ermənistan əhalisi Paşinyana olan inamını sürətlə itirməkdədir. Seçicilərin fəallığının aşağı səviyyədə olmasını həm də Paşinyanın hələ yazda verdiyi vədlərin heç birinə əməl edə bilməməsi şərtləndirir. Düzdür, Paşinyan köhnə hakimiyyətin dayaqlarını sıradan çıxarmağı, demək olar, bacardı. Amma unutmaq lazım deyil, bu, xalqdan da çox Paşinyanın özünə lazım idi. Həm də nəzərə almaq lazımdır ki, Paşinyan əsas dəstəyini Qaqik Tsarukyandan alıb. Tsarukyan Sarkisyanın hakimiyyəti dövründə Ermənistanın ən böyük inhisarçısına çevrilib. Yəni Ermənistan əhalisinin ağır sosial-iqtisadi vəziyyətinə görə onun məsuliyyəti Sarkisyandan heç də az deyil".**

Politoloq hesab edir ki, belə bir şəxsin, eyni zamanda, Edmon Marukyanın parlamentdə yer alması aydın göstərir ki, yeni parlament məhz Nikol Paşinyan istəyinə uyğun formalaşdırılıb. Yəni N.Paşinyan özünə sərf etməyən siyasi qüvvələrin parlamentdə təmsil olunmalarının qarşısını hər vasitə ilə alıb: **"Nəzərə almaq lazımdır ki, Marukyan Paşinyanla elə eyni siyasi düşərgədəndir. Hesab edirəm ki, Marukyanın sonradan ayrıca siyasi fəallıq göstərməsi manipulyasiyadan başqa bir şey deyil".**

E.Mirbəşiroğlu onu da əlavə edib ki, N.Paşinyan bu dəfə kənar maraqlı güclərin polittexnoloji dəstəyi ilə hakimiyyətə gəldi: **"Təbii ki, o, həmin kənar güclərin istəklərinə uyğun fəaliyyət göstərmək məcburiyyətində olacaq. Kənar güclərin istəklərinin isə Ermənistan xalqının istəkləri və maraqları ilə üst-üstə düşəcəyi inandırıcı deyil".**

**Nardar BAYRAMLI**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında baramaçılığın möhkəm maddi-texniki bazası yaradılır

*Yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyasında hər il 4 min qutu hibrid ipəkqurdu toxumunun, eyni zamanda, 4 kiloqram superelit və 50 kiloqram elit sinfinə aid ipəkqurdu toxumlarının istehsalı planlaşdırılır*



Son illərdə Azərbaycanın regionlarında qədim ənənələrə söykənən baramaçılığın və ipəkçiliyin bərpası kənd təsərrüfatının prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində respublika üzrə barama istehsalı ilbəil artır. Əgər 2015-ci ildə ölkəmizdə cəmi 236 kiloqram barama istehsal edilmişdisə, cari ildə bu göstərici 500 tondan çox olub. Əlamətdar haldır ki, bölgələrdə baramaçılığa maraq göstərən insanların, ailə təsərrüfatlarının sayı da getdikcə artır. 2018-ci ildə bu sahədə çalışanların sayı ötən illə müqayisədə iki dəfədən çox artaraq 22 minə çatıb. Beləliklə, insanlar 30-40 gün ərzində çox da böyük əziyyət çəkməyərək yaxşı pul qazanırlar.

Respublikanın bölgələrində baramaçılığın inkişaf perspektivləri isə daha böyükdür. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 27 noyabr 2017-ci il tarixində imzaladığı müvafiq Sərəncamla “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı” təsdiqlənib. Dövlət Proqramının icrası nəticəsində 2025-ci ilədək ölkədə yaş barama istehsalı həcminin 6,0 min tona çatdırılması nəzərdə tutulur.

## QAX DAMAZLIQ İPƏKÇİLİK STANSİYASI ÖLKƏMİZDƏ İPƏKÇİLİYİN MADDİ-TEXNİKİ BAZASININ YAXŞILAŞDIRILMASI BAXIMINDAN MÜSTƏSNA ƏHƏMİYYƏTƏ MALİKDİR

Əsaslı şəkildə yenidən qurularaq cari il oktyabrın 28-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilən Qax Damazlıq İpəkçilik Stansiyası fermerlərin barama toxumlarına olan tələbatının yerli istehsal hesabına ödənilməsini əsasən təmin edəcək. Qax Damazlıq İpəkçilik Stansiyasının əsası 1973-cü ildə qoyulub. Maliyyə çətinliyi səbəbindən stansiya 1998-ci ildən fəaliyyətini dayandırmışdı. Nazirlər Kabinetinin 2015-ci ildə qəbul etdiyi qərarla stansiya Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumların siyahısına daxil edilib. Prezident İlham Əliyevin ötən il imzaladığı “Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncama uyğun olaraq, Qax Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqla təchiz olunması məqsədilə Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 4,5 milyon manat vəsait ayrılıb. Ötən ildən başlayaraq stansiyada əsaslı yenidənqurma işləri həyata keçirilib.

Açılış mərasimində bildirildiyi kimi, stansiyanın ümumi ərazisi 5 hektar, tikintialtı sahəsi 2 min kvadratmetrdən çoxdur. Stansiyanın ərazisində inzibati bina, hər biri ikimərtəbəli olmaqla laboratoriya və inkubasiya mərkəzi, həmçinin hibrid toxumların istehsalı mərkəzi var. Burada, eyni zamanda, baramaqurdu ailələrinin yemlənməsi binası da yaradılıb. Qax Damazlıq Stansiyasında yeni yaradılmış tut ipəkqurdu cins və hibridlərinin yüksək keyfiyyətli ilkin materialının hazırlanması, çoxaldılması, onların bioloji və texnoloji göstəricilərinin yaxşılaşdırılması, barama toxumu zavodlarının və kümçülərin ipəkqurdunun sənaye qrenası ilə yerli istehsal hesabına təmin edilməsi nəzərdə tutulub. Stansiyada hər il 2 min ton yaş barama istehsalını təmin edəcək 4 min qutu hibrid ipəkqurdu toxumunun, eyni zamanda, 4 kiloqram superelit və 50 kiloqram elit sinfinə aid ipəkqurdu toxumlarının istehsalı planlaşdırılır.

Stansiyanın ərazisində 3 hektar sahədə Çin texnologiyası əsasında intensiv tipli tut bağları salınıb. Bu müəssisənin istifadəyə verilməsi ölkəmizdə ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Bununla yanaşı, stansiya yeni iş yerlərinin yaradılmasında da mühüm rol oynayır. Hazırda stansiyada 11 nəfər daimi işlə təmin edilib. Müəssisə tam işə düşdükdən sonra burada 59 nəfər daimi, 150 nəfər isə mövsümi işlərlə təmin olunacaq.

Stansiyada tut yarpağının, qarğıdalı nişastasının, aktivləşdirilmiş mayanın, vitamin qarışığının və mərmər tozunun hazırlanması həyata keçiriləcək. Bu layihə ilboyu barama məhsulu istehsalının 6 min tona çatdırılmasını, toxum istehsalının sürətləndirilməsini, emal müəssisələrinin davamlı fəaliyyətini və kənd əhalisinin daimi işlə təminatını nəzərdə tutur.

## REGİONLARDA BARAMAÇILIĞIN GÜCLÜ YEM BAZASI YARADILIR

Regionlarda baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə bu günlərdə Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən 70 mininin Şəki rayonu ərazisində əkilməsi nəzərdə tutulur. Tinglər artıq rayona gətirilib və əvvəlcədən müəyyənləşdirilmiş bölgü əsasında əvəzsiz olaraq təsərrüfatlara, barama istehsalçılarına paylanılıb. Qısa müddətdə bu tinglərdən 34 mininin əkilməsi təmin olunub və ting əkini davam etdirilir.

Bundan əlavə, payız mövsümündə rayon ərazisində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 130 min ədəd yerli tut tinginin əkilməsi də nəzərdə tutulur. Bu tinglərdən 50 min ədədi artıq rayona gətirilib və kümçülərə paylanılıb. Tinglərin 21 min ədədinin əkilməsi təmin olunub və bu istiqamətdə işlər davam etdirilir.

Rayon İcra Hakimiyyətindən verilən məlumatına görə, 2016-cı ilədək Şəki rayonu ərazisində 108 min ədəd barverən tut tingi mövcud olub. Baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə 2016-2017-ci illərdə rayon ərazisində 215 min ədəd tut tingi əkilib. Bunun 117 minini Çindən gətirilən tinglər təşkil edib. 2018-ci ildə Şəki rayonunda 48,2 ton yaş barama istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə 30,4 ton artıb.

Masallı rayonunda keçirilən ağacəkmə kampaniyası çərçivəsində Çin Xalq Respublikasından gətirilmiş 20 min tut tingi əkilib. İki gün ərzində aksiyaya qoşulan Ağciyər Xəstəlikləri və Viləş xəstəxanası, Masallı Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi, Masallı Dövlət Regional Kolleci kollektivlərinin, Musakücə, Mahmudavar, Türkoba, Tüklə, Hişkədərə, Bədəlan, Qızılavar, Kolatan, Qodman, Yeyənkəd, Köhnə Alvadı, Təklə, Şərəfə, Həsənli, Xırmandalı, Qızılağac, Yeddioymaq və Şıxlar kəndlərinin sakinləri əkilən ağaclara aqrotexniki qulluq göstərib, onların qorunması üçün mühafizə zolaqları çəkiblər.

Baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən 20 mini Füzuli rayonuna verilib. Füzuli Rayon İcra Hakimiyyətinin sosial-iqtisadi inkişafin təhlili və proqnozlaşdırılması şöbəsindən bildiriblər ki, bölgü əsasında təsərrüfatlara, barama istehsalçılarına əvəzsiz olaraq paylanılan tinglərin əkini artıq başa çatıb. Tut tingləri Çin texnologiyası əsasında əkilib. Sahələrin hazırlanması və əkin işləri mütəxəssislərin nəzarəti altında aparılıb. Bundan əlavə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən 30 min ədəd yerli tut tinginin əkilməsi də həyata keçirilib.

Qeyd edək ki, baramaçılıq 1970-1980-ci illərdə Füzuli rayonunda ən inkişaf etmiş və gəlirli sahələrdən olub. 1993-cü ildə rayonun işğal olunması ilə tənəzzülə uğrayan baramaçılıq 2016-cı ildə yenidən bərpa edilməyə başlanılıb. Həmin il rayonda 4 ton, 2017-ci ildə 24,3 ton, 2018-ci ildə isə 37,5 ton barama istehsal olunub. İpəkqurdunun yem bazasının bərpası məqsədilə 2016-2017-ci illərdə rayon ərazisində 79 min ədəddən çox tut tingi əkilib. Rayon ərazisindəki mövcud və yeni əkilən tut ağacları, əhalinin baramaçılıq sahəsindəki təcrübəsi, həmçinin bu sahənin gəlirli olması barama istehsalını artırmağa imkan verir.

Yeni tut bağlarının salınması məqsədilə Zaqatala rayonunun qəsəbə və kəndlərində bələdiyyə və xüsusi mülkiyyətə aid torpaq sahələri ayrılıb. Bu günlərdə Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən 70 mini Zaqatala rayonunun ərazisində əkiləcək. Artıq bu tinglərdən 45 mininin əkilməsi təmin olunub və ting əkini mütəşəkkil qaydada davam etdirilir.

Bu barədə rayon İcra Hakimiyyətindən məlumat verilib. Qurumdan bildiriblər ki, bundan əlavə, baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə payız mövsümündə rayon ərazisində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 121 min ədəd yerli tut tingi də əkilib. İlin sonunadək daha 9 min ədəd yerli tingin əkilməsi planlaşdırılır.

Baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə cari ilin payız mövsümündə Balakən rayonunun ərazisində 130 min ədəd yerli cins tut tinginin əkilməsi nəzərdə tutulur. Artıq bu istiqamətdə işlərə də başlanılıb və qısa müddətdə rayon ərazisində 25 min ədəd tut tingi əkilib. Bundan başqa, yeni tut bağlarının salınması məqsədilə Çindən ölkəmizə gətirilən 1 milyon ədəd tut tingindən 70 mininin Balakən rayonu ərazisində əkilməsi planlaşdırılır.

## LƏNKƏRAN PEŞƏ LİSEYİNDƏ “BARAMAÇILIQ” QRUPU AÇILIB

Baramaçılığın və ipəkçiliyin inkişafına dair Dövlət Proqramının icrasına qoşulan Lənkəran Peşə Liseyində ölkəmizin peşə müəssisələri arasında ilk dəfə olaraq bu ilin may-iyun aylarında 170 kiloqram barama tədarük edilib. Peşə təhsili ilə bağlı Strateji Yol Xəritəsinə əsasən, 2018-2019-cu illərdə Peşə Təhsili üzrə Dövlət Agentliyinin dəstəyi ilə Lənkəran Peşə Liseyində ilk dəfə olaraq, “Baramaçılıq” qrupu açılıb. İxtisaslı mütəxəssislər tərəfindən bu qruplarda tədris istehsalat işləri davam etdirilir.

Bu sahədə tədris bazasını möhkəmləndirmək, təhsil alanların praktiki bacarıqlarını artırmaq məqsədilə Azərbaycan hökumətinin dəstəyi ilə Çindən gətirilən tut tinglərinin 3 mini Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinə və Lənkəran Peşə Liseyinə verilib.

Artıq liseydə əkin kampaniyasına başlanılıb. Bu işə liseydə fəaliyyət göstərən “Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer”, “Bitkiçilik-çay, sitrus” və “Baramaçılıq” qrupları qoşulub.

**Mübariz ABDULLAYEV**

# Azərbaycanlı gənc fleytaçı Fransada “Qızıl açar” mükafatına layiq görülüb



Fransanın Ecole Normale de Musique de Paris-Alfred-Cortot ali musiqi məktəbinin tələbəsi, azərbaycanlı fleytaçı Ağarəhim Quliyev “Qızıl açarlar” beynəlxalq musiqi müsabiqəsinin fleyta aləti üzrə “Qızıl açar” mükafatına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, 2018-ci ildə Paris, Bolqarıstan, İsrail, Mərakeş, Pekin, Nyu-York, Sankt-Peterburq, Mayami, Martinik, Qvadelupa, Papeete, Numea, La Reünyon, Vilnüs, Sürix, Praqada keçirilən “Qızıl açarlar” beynəlxalq musiqi müsabiqələrinin mükafatlandırma mərasimi İle-de-France regionunun Le Raincy kommunasında təşkil olunub.

Münsiflər heyətinin tanınmış musiqiçilərdən ibarət olduğu müsabiqədə Paris ali musiqi məktəbinin tələbəsi Ağarəhim Quliyev fleyta aləti üzrə “Qızıl açar” mükafatını qazanıb. O, İtaliya bəstəkarı Pietro Morlaççinin “İl pastore svizzero” musiqisini ifa edib.

Qeyd edək ki, Ağarəhim Quliyev Ecole Normale de Musique de Paris-Alfred-Cortot ali musiqi məktəbinə iki ay əvvəl daxil olub. 2016-cı ildə ölkəmizdə “Multikulturalizm ili” çərçivəsində Beynəlxalq Muğam Mərkəzində gənc Prezident təqaüdçülərinin konsertində onun uğurlu ifası alqışlarla qarşılanıb.

İstedadlı gənc musiqiçi bir neçə beynəlxalq müsabiqəyə qatılıb. O, Estoniyanın Narva şəhərində “Baltika ulduzları” IV Beynəlxalq musiqi müsabiqəsində ölkəmizi təmsil edib. 2012-ci ildə Bakıda ISESCO-nun, Azərbaycan Gənclər və İdman Nazirliyinin dəstəyi, “Kainat” Gənclik Mərkəzinin təşkilatçılığı ilə İslam dünyasının gənc klassik musiqi ifaçılarının birinci beynəlxalq müsabiqəsinin Qran-Pri mükafatına layiq görülüb.

# “Bakcell”dən möhtəşəm Yeni İl hədiyyəsi: 20 qiqabayta qədər pulsuz İnternet




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti qarşıdan gələn Yeni İl münasibətilə öz abunəçilərini xüsusi kampaniya ilə sevindirir. Yeni kampaniyanın şərtlərinə əsasən, 1 GB və daha iri həcmli İnternet paketini əldə edən hər bir Bakcell abunəçisinə eyni həcmdə PULSUZ 4G trafik hədiyyə olunacaq.

5 dekabr 2018-ci il tarixindən 31 yanvar 2019-cu il tarixinə qədər keçiriləcək kampaniya sayəsində abunəçilər 20 qiqabayta qədər PULSUZ 4G İnternet əldə edə biləcəklər. Kampaniya “Bakcell”in 1 GB-dən 20 GB-dək həcmində olan sərfəli internet paketlərin geniş çeşidinə şamil edilir.

Kampaniyada iştirak edib “Bakcell”dən xüsusi Yeni İl hədiyyəsi almaq üçün, abunəçilər sadəcə kampaniya ilə əhatə olunmuş internet paketlərinin birini (1 GB, 1.5 GB, 3 GB, 5 GB, 10 GB, 20 GB) əldə etməlidir. PULSUZ 4G İnternet trafiki dərhal onların istifadə etdiyi nömrənin balansına yükləniləcək.

Həmçinin qeyd etmək lazımdır ki, kampaniya müddətində Bakcell abunəçiləri yaşadıqları əraziyə yaxın olan Bakcell Müştəri Xidməti Mərkəzinə və ya “Bakcell”in diler dükanına yaxınlaşıb öz köhnə SİM kartını yeni 4G SİM-kartı ilə PULSUZ dəyişə bilərlər.

Pulsuz internet yalnız Bakcell şirkətinin 4G şəbəkəsində 30 gün ərzində istifadə oluna bilər. Həmin müddət ərzində abunəçilər ölkənin ən sürətli və ən geniş 4G/LTE şəbəkəsinin üstünlüklərindən yararlana biləcəklər. Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə istifadə imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri yüksək həllolma əmsalı ilə 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq və mürəkkəb yeni nəsil mobil tətbiqetmələrindən istifadə edə bilirlər.

“Bakcell”in 4G şəbəkəsi 1700 baza stansiyası ilə Azərbaycanın 40-dan çox çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.

# “Bakcell” daha bir iri məşğulluq sərgisinə qatılıb



Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi “Bakcell” şirkəti Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən təşkil olunmuş məşğulluq sərgisində iştirak edib.

Azərbaycan Respublikasının Gənclər Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi və ASAN Xidmətin birgə təşkilatçılığı ilə “Beynəlxalq Könüllülər Günü”nə həsr olunmuş “Azərbaycan Könüllülərin Həmrəylik Festivalı” çərçivəsində keçirilən əmək yarmarkasında 70 şirkət iştirak edib. Tədbir iştirakçılarına “Bakcell”in satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib. Şirkət nümayəndələri işaxtaranlar və potensial namizədlərlə müsahibələr keçirib.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən “Bakcell” şirkəti, Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənc mütəxəssislərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət bir sıra iri karyera sərgisində iştirakla yanaşı özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib.

“Bakcell” şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam etdirəcək.

# “Nar” Azərbaycanda yaşıl enerji və aqrar texnologiyaların tətbiqini dəstəkləyir

“Nar” Azərbaycanda ilk dəfə “AgTech and Green Energy” mövzusunda keçirilən beynəlxalq foruma dəstək oldu. Məqsəd ölkəmizdə kənd təsərrüfatı sahəsində yeni texnologiyaların tətbiqini dəstəkləməkdir. Qeyd edək ki, forum Kənd Təsərrüfatı Nazirliyi və Energetika Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutub. “Yaşıl gələcək üçün innovasiyalar” şüarı altında keçirilən beynəlxalq forumun əsas məqsədi Azərbaycanda kənd təsərrüfatı və enerji sahələrinin innovativ inkişafına nail olmaq, müxtəlif maraqlı tərəflər arasında əlaqələri gücləndirmək, dayanıqlı biznes modelləri və əlaqələr qurmaqdır.

“Azerfon” MMC-nin baş icraçı direktoru Qunnar Panke forumun işini yüksək qiymətləndirib: **“Aqrar və yaşıl enerji texnologiyalarının inkişafına nail olmaq hər bir ölkə üçün əhəmiyyətli və strateji məsələdir. “Nar”ın təqdim etdiyi yüksək keyfiyyətli xidmətlər və həllər bu sahənin inkişafına öz müsbət təsirini göstərəcək. “Nar” Bakıda və regionlarda 4G şəbəkəsini daha da genişləndirməklə, Azərbaycanda kənd təsərrüfatı sahəsində yeni texnologiyaların tətbiqini dəstəkləyir”.**

Foruma dünyanın 15-ə yaxın ölkəsindən 40-dək xarici mütəxəssis qatılıb. Tədbirdə dünyanın müxtəlif ölkələrindən aqrar və yaşıl texnologiyalar üzrə ixtisaslaşmış ən uğurlu startaplar, şirkət sahibləri, elm xadimləri və tədqiqatçılar, vençur kapitalistlər, visionmakerlər, ölkəmizdə artıq bu sahələr üzrə sözünü demiş yerli mütəxəssislər iştirak edib. Forumda aqrar innovasiyalar üzrə mütəxəssislər tərəfindən maraqlı çıxışlar olub.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının kollektivi təşkilatın sədri Fəqət Şadlinskayaya atası

**Nəcəb Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
498-78-03, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur
Buraxılışa məsul:
Nadir AZƏRİ